# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 228 (8544) ÇƏRŞƏNBƏ AXŞAMI, 3 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Qalib məhz Azərbaycan olacaq

## Birliyimiz sözdə yox, əməldədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, hörmətli Mövlud bəy, əziz qonaqlar.

Sizi görməyimə şadam. Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan həmrəyliyini göstərir. Müharibənin ilk günlərindən, ilk saatlarından başlayaraq Türkiyə bizim yanımızdadır. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycan tək deyil. Bu siyasi və mənəvi dəstək bu gün də davam edir. Həm hörmətli Prezident, eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin Sədri, siz - Xarici İşlər naziri, Müdafiə naziri və digər yüksəkvəzifəli şəxslər dəfələrlə Azərbaycana dəstək göstərmisiniz. Bu, bizi, Azərbaycan xalqını çox məmnun edir. Bu, bir daha göstərir biz bütün dövrlərdə - yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk.

Bildiyiniz kimi, əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir. Mən hər həftə azad edilmiş yeni şəhərlər və kəndlər haqqında məlumat verirəm və ümid edirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur.

Ardı 2-ci səh.

## Düşmən beynəlxalq ədalət mühakiməsindən qaça bilməyəcək

Dağlıq Qarabağ münaqişəsi üzrə hərbi əməliyyatların başlandığı 27 sentyabr tarixindən bəri bu terrorçu ölkənin Azərbaycanın mülki əhalisini raket atəşinə tutması nəticəsində 100-ə yaxın dinc sakinimiz həlak olub. Nə qədər vətəndaşımız yaralanaraq sağlamlığını itirib. Həlak olanlar sırasında xeyli sayda uşaq, qadın, yaşlı-ahıl insanlarımız var.

Ermənistanın oktyabrın 28-də Bərdə şəhərini növbəti dəfə raket atəşinə tutması, elementar insanlıq normalarına zidd olaraq tibb müəssisələrini, ticarət mərkəzini hədəfə çevirməsi nəticəsində 21 mülki sakinin həlak olması hər birimizi sarsıtdı. Bu, 1992-ci ilin 26 fevral gecəsi Xocalıda azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın davamıdır. Ermənistan dövləti torpaqlarımızı işğal altında saxladığına görə bu gün ordumuza cavab verdiyi kimi, bu dövlətin rəsmiləri də bəşəriyyətə qarşı törətdikləri cinayət əməllərinə görə beynəlxalq ədalət mühakiməsindən qaça bilməyəcəklər. Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur.

### Hərbi əməliyyatlar vəhşilik həddinə çatdırılmamalıdır

Prezident İlham Əliyev Rusiyanın "İnterfaks" Agentliyinə müsahibəsində bir neçə dəfə bu məsələyə toxunaraq onun açıq şəkildə izahını vermişdir: "Moskvada atəşkəs əldə olunmasından heç bir gün keçməmiş onlar Gəncəyə zərbə endirdilər. İndi də, Vaşinqtonda atəşkəs razılaşdırıldıqdan bir gün sonra, özü də bunun üçün onlar yalvarırdılar. Axı, atəşkəs barədə yalvaran onlar idi. Moskvada da, indi də Fransa tərəfinin fəaliyyəti nəticəsində əldə edilmiş atəşkəs pozulub. Bir gün keçmədi, onlar Bərdəni atəşə tutdular. Buna qədər isə onlar Tərtərdə dəfn mərasimini atəşə tutmuşdular. Orada 4 nəfər həlak olmuşdu. Bu, qeyri-insani əməllər onu göstərir ki, baxın, görün, biz kiminlə vuruşmağa məcburuq.

Ardı 7-ci səh.

## *Prezident İlham ƏLİYEV:*
## "Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha bir neçə kəndini işğaldan azad edib"



"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

## Azərbaycan tək deyil

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Şadam sizi görməyimə.

**Binəli YILDIRIM:**

-Xoş gördük. Sağ olun. Necəsiniz? Yaxşısınız?

Prezident **İlham ƏLİYEV:**

- Sağ olun, hər şey yaxşıdır. İşlər yaxşı gedir.

**Binəli YILDIRIM:**

- Maşallah.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun ki, gəlmisiniz. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, növbəti həmrəylik təzahürüdür. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu dönəmdə də birliyimiz daha da möhkəmləndi. Bildiyiniz kimi, indi Vətən müharibəsi gedir, yaxşı nəticələr var, bir çox şəhərlər, kəndlər işğalçılardan azad edilib. Demək olar ki, hər həftə Azərbaycan xalqına bu haqda məlumat verirəm.

Ardı 3-cü səh.



## İlham Əliyev Giorgi Qaxariyanı təbrik edib



Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş Naziri Giorgi Qaxariyaya telefonla zəng edib.

Dövlətimizin başçısı Giorgi Qaxariyanı hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının parlament seçkilərində qələbəsi münasibətilə təbrik edib.

Gürcüstanın Baş Naziri təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin gələcək perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Türk iş dünyası qardaş Azərbaycanın səsini bütün dünyaya çatdırmaq üçün Bakıya gəlib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Xoş gəlmisiniz. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ticarət və Sənaye Palatasının Bakıdakı toplantısı çox əlamətdar hadisədir. Nəzərə alsaq ki, Azərbaycan hazırda Vətən müharibəsi aparır, bu toplantının xüsusi önəmi vardır. Biz bunu bizə göstərilən dəstək və həmrəylik əlaməti kimi qəbul edirik, buna görə sizə təşəkkür edirik. Bu, növbədənkənar toplantıdır və bunun əsas məqsədi ölkəmizə mənəvi dəstəyin göstərilməsidir.

Müharibənin ilk günlərindən biz Türkiyənin və digər qardaş, dost ölkələrin dəstəyini hiss edirik. Bildiyiniz kimi, Türkiyə Respublikasının Prezidenti, mənim əziz qardaşım bizə ilk dəstək verdi, çox əhəmiyyətli bəyanatlar verdi. Demişdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Ondan sonra digər dost, qardaş ölkələrin dövlət və hökumət başçıları - Pakistan, Əfqanıstan və digər dövlətlərin dövlət və hökumət başçıları bizə dəstək göstərdilər. Şadam ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bizə dəstək göstərmişdir və Şuranın çox önəmli bəyanatı olmuşdur. Bu, türkdilli ölkələr arasındakı birliyin, həmrəyliyin təzahürüdür. Eyni zamanda deyə bilərəm ki, Azərbaycan dünya miqyasında da çox böyük dəstək almışdır. Qoşulmama Hərəkatı 120 ölkəni özündə birləşdirən, BMT-dən sonra ikinci böyük beynəlxalq təsisatdır və İslam Əməkdaşlıq Təşkilatı da bizə dəstək göstərmişdir.

Ardı 2-ci səh.

## Karantin rejiminin tələblərinə ciddi əməl edilməlidir

Payız mövsümü dünyada koronavirus pandemiyası ilə bağlı vəziyyəti daha da gərginləşdirib. Demək olar ki, hazırda COVID-19-a yoluxma sayı anbaan sürətlə artaraq 50 milyona yaxınlaşır. Belə ki, pandemiyanın başlanğıcından dünyada koronavirusa 46 milyondan çox insan yoluxub, 1,19 milyondan çox insan COVID-19-dan ölüb. Göründüyü kimi, hazırda dünya ölkələri koronavirus pandemiyasının yeni dalğasını yaşayır.

### Bütün ölkələrdə yoluxmanın artması müşahidə olunur

Dünya ölkələrində virusun yayılmasının qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirilir, tətbiq olunmuş karantin rejimi sərtləşdirilir. Almaniyada noyabrın 2-dən ayın sonuna qədər koronavirus infeksiyasının pandemiyası ilə bağlı "məhdud karantin" rejimi, Fransanın bütün ərazisində oktyabrın 30-dan dekabrın 1-dək davam edəcək özünütəcrid rejimi tətbiq edilib. Böyük Britaniyada da noyabrın 5-dən etibarən gücləndirilmiş karantin rejimi həyata keçiriləcək.

Ardı 7-ci səh.

**Düşmənin 3 "Su-25" tipli hücum təyyarəsi məhv edilib, 313 tankı - 255-i məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 329 ədəd müxtəlif çaplı toplar - 261-i məhv edilib, 4 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 98 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 43 "Osa", 3 ədəd PDM, 2 ədəd "Smerç", 5 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 14 ədəd müxtəlif artilleriya qurğusu, 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd "Elbrus"; yeni istismara verilmiş raket-artilleriya silahları anbarı, 1 ədəd "Toçka-U", P-18 radiolokasiya stansiyası məhv edilib; 436 yük avtomobili - 245-i, onlardan 23-ü sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

# Birliyimiz sözdə yox, əməldədir

Əvvəli 1-ci səh.



Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır.

Ancaq ümid edirəm ki, bu proses uzun sürməyəcək. Çünki biz 30 il gözləmişik. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik.

Ermənistan faktiki olaraq öz məğlubiyyətini etiraf edib. Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın baş naziri Rusiya Prezidenti cənab Putinə məktub göndərmişdir. Bu məktub, əslində, məğlubiyyətin etirafıdır. Çünki Rusiyadan hərbi dəstək istənilmişdir, halbuki, buna heç bir əsas yoxdur. Azərbaycan öz hərbi əməliyyatlarını beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazisində keçirir, Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirilmir, bizim belə planlarımız da yoxdur. Əgər olsaydı, biz bunu bu ilin iyul ayında edərdik. Bildiyiniz kimi, o vaxt dövlət sərhədində Ermənistan bizə hücum etmişdir və biz dövlət sərhədini keçmədən Ermənistanı öz torpaqlarımızdan çıxartdıq. Ona görə bir tərəfdən, məğlubiyyəti etiraf edir, - bu məktubun göndərilməsi bunu göstərir, - digər tərəfdən, tam təslim olmaq istəmir. Bu gün müharibənin davam etdirilməsi və hər iki tərəfdən itkilərin olması Paşinyanın üzərinə düşən böyük məsuliyyət və çirkin əməllər nəticəsində baş verir. Bütün məsuliyyət Ermənistan tərəfindədir və bu məğlubiyyəti etiraf edib torpaqlarımızdan çıxsa, danışıqlar masası arxasında məsələnin çözülməsi ən məqbul variantdır. Bir sözlə, bu məsələnin həlli artıq baş verir. Mən demişdim ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edir və təməl prinsiplərinin böyük hissəsini icra edibdir. Ümid edirəm ki, təməl prinsiplərinin qalan hissəsi də icra ediləcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Mən bu fürsətdən istifadə edərək, eyni zamanda, bu günlər ərzində bizə Türkiyə vətəndaşları, bizim qardaşlarımız tərəfindən göstərilən dəstəyə görə bütün qardaş Türkiyə xalqına təşəkkürümü bildirmək istəyirəm. Onlar mənə çoxsaylı məktublar göndərirlər, çox səmimi məktublardır və bu, bizim hamımızı duyğulandırır. Eyni zamanda Türkiyənin media nümayəndələri də gecə-gündüz döyüş meydanlarında öz həyatlarını risk altına atırlar və bu görüntüləri dünya daha çox Türkiyə mediası vasitəsilə görür və bilir. Gəncənin, Bərdənin namərdcəsinə bombalanmasından sonra buraya ilk gələn bizim Türkiyədən olan qardaşlarımızdır. Ona görə bu, bir daha Türkiyə-Azərbaycan birliyini göstərir. Hər zaman mən əziz Qardaşımla bu barədə danışanda biz bilirdik ki, bu birlik sözdə deyil, əməldədir və bunu bu gün bütün dünya bilir. Bir daha xoş gəlmisiniz.

**Mövlud ÇAVUŞOĞLU** dedi:

- Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm, cənab Prezidentim.

Cənab Prezidentimizin təlimatı, tapşırığı ilə gəlmişəm. Hər gün özü ilə danışırsınız, ən azı gündə iki dəfə, amma yenə də Sizə salamlarını göndərdi. Prezidentimizin bizə bir tapşırığı var, bu prosesdə qardaş Azərbaycanı tək qoymayın və davamlı olaraq oraya - Bakıya gedin və birlikdə hərəkət edin. Müdafiə nazirimiz, digər yoldaşlarımız, Binəli bəy də gələcək, Məclis sədrimiz buradadır.

Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq. İnşallah, öz əzəli torpaqlarımızı bu uğurlu əməliyyatlarla geri qaytaracağıq.

Qarabağ məsələsini, davam edən bu əməliyyatları vətəndaşlarımız çox yaxından izləyir və bizə daim "Azərbaycana daha çox dəstək verin, onu tək qoymayın", - deyə xəbərdarlıqlar edirlər. "Bizi də cəbhəyə göndərin" deyən çoxları var. Əminəm ki, Sizə yazılan məktublarda da bunlar vardır.

**Prezident İlham ƏLİYEV:**

- Bəli, bəli.

**Mövlud ÇAVUŞOĞLU:**

- Bütün bu üstünlüyə - həm döyüş meydanındakı üstünlüyə, həm hüquqi üstünlüyə, həm də haqlı olmağımıza baxmayaraq, atəşkəs məsələsində və danışıqlarda da özünə güvənən bir dövlət və millət kimi Sizin liderliyinizlə Azərbaycan güclü dövlət olduğunu bütün dünyaya göstərdi. Bunu anlayan var, anlamayan var, anlamaq istəməyən var.

Ermənistanın da nə etdiyini və atəşkəsi hər dəfə pozduğunu hər kəs görür. Amma bunu söyləmək istəməyən çoxdur, biz bunu bilirik. Bu səbəbdən də biz öz aramızdakı həmrəyliyi daha da gücləndirərək haqqımızı müdafiə etməkdə davam edəcəyik.

❖ ❖ ❖

Dövlətimizin başçısı Türkiyənin İzmir şəhərində zəlzələ zamanı həlak olanlarla bağlı bir daha başsağlığı verdi. Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# Türk iş dünyası qardaş Azərbaycanın səsini bütün dünyaya çatdırmaq üçün Bakıya gəlib





Əvvəli 1-ci səh.

Bu, əlbəttə, bir daha onu göstərir ki, bizim işimiz haqq işidir, biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz ərazimizdə müharibə aparırıq, eyni zamanda, bu təşkilatlarda cəmləşən ölkələrin Azərbaycana olan münasibətinin əlamətidir.

Bir aydan çoxdur ki, müharibə gedir. Biz işğalçılara dərs veririk, onları torpaqlarımızdan qovuruq. Artıq bir çox yaşayış məntəqəsi işğaldan azad edilibdir. Hər həftə onlarla yeni yaşayış məntəqəsi - şəhərlər, kəndlər, qəsəbələr işğalçılardan azad edilir və Müzəffər Azərbaycan Ordusu öz uğurlu əməliyyatlarını davam etdirir.

İşğal edilmiş ərazilərdə vəziyyət acınacaqlıdır. Bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, təhqir edilib. Ermənilər Zəngilan rayonunda, işğal edilmiş ərazilərdəki məsciddə donuz saxlayırdılar, bu videogörüntülər internetdə var və bu, bütün müsəlman aləmini hiddətləndirir. Bu, bir daha onu göstərir ki, Ermənistan dövləti bütün müsəlman aləminə nifrətlə yanaşır, əks-təqdirdə belə alçaq hərəkətlər baş verməzdi. Əlbəttə ki, bütün müsəlman dünyası bir daha görür ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Döyüş meydanında bizim qabağımızda dayana bilməyən Ermənistan şəhərlərimizi, kəndlərimizi hər gün atəşə tutur. Bu gün səhər mənə verilən məlumata görə səhər saat 6-dan, - indi saat 9-a beş dəqiqə qalır, - bizim şəhər və kəndlərimizə 200-dən çox mərmi atılıbdır. Bu bir ay ərzində namərd atəş nəticəsində 91 mülki şəxs həlak olub, onlardan 10-u uşaqdır, 404 mülki şəxs yaralanıbdır və 2 mindən çox ev dağılıbdır. Ermənistan maksimum çox insanı öldürmək üçün qadağan olunmuş silahlardan istifadə edir. Bizim isə intiqamımız döyüş meydanındadır. Bunu mən dəfələrlə bildirmişdim, demişdim ki, biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq. Düşməni qovuruq və sona qədər qovacağıq. Eyni zamanda Ermənistana üç dəfə şans verildi. Bizim ordumuzun uğurlu əməliyyat keçirməsinə baxmayaraq, biz beynəlxalq vasitəçilərin təkliflərinə hörmətlə yanaşaraq üç dəfə atəşkəslə bağlı razılığa gəldik. Üç dəfə də Ermənistan bunu kobudcasına pozmuşdur - Birinci dəfə Gəncəni ballistik raketlərlə bombalaması ilə. İkinci dəfə atəşkəsdən 4-5 dəqiqə keçəndən sonra atəşkəsi pozdu. Üçüncü dəfə isə Bərdəyə "Smerç" raketi ilə atəşin açılması nəticəsində 21 insan həlak olmuş, 70 insan yaralanmışdır. Gəncəyə isə iki ballistik raketlə atəş nəticəsində 30-a yaxın insan həlak olmuşdur. Bax bu, erməni faşizminin eybəcər sifətidir. Biz nəinki öz torpaqlarımızı düşməndən azad edirik, biz region üçün böyük təhlükə mənbəyi olan erməni faşizminin belini qırırıq və bunu davam etdirəcəyik. Heç kim bizim qabağımızda dura bilməz, heç kim bizi bu yoldan çəkindirə bilməz.

Bununla yanaşı, mən dəfələrlə demişəm və bu, mənim mövqeyimdir, əgər Ermənistan, misal üçün, bu gün atəşi dayandırsa və danışıqlar masası arxasında konstruktiv mövqe nümayiş etdirsə, qalan torpaqlarımızdan qoşunların çıxarılması ilə bağlı üzərinə konkret öhdəlik götürsə, biz dayanmağa hazırıq. Biz hesab edirik ki, münaqişənin hərbi həlli siyasi müstəviyə keçməlidir və biz buna hazırıq. Ümid edirəm ki, Ermənistanın acı məğlubiyyəti onları vadar edəcək ki, onlar çox ciddi düşünərək bu qərara gəlsinlər.

Ancaq biz bunun əksini görürük. Ermənistan baş naziri Rusiya Prezidentinə məktub göndərir və hərbi yardım istəyir. Bu, tamamilə qəbuledilməzdir. Buna heç bir əsas yoxdur. Biz öz torpağımızda düşməni əzirik, vururuq və torpaqlarımızdan çıxarırıq. Biz Ermənistana hər hansı bir təcavüz etməmişik. Bu birincisi. İkincisi, Rusiya Minsk qrupunun həmsədr ölkəsidir, bütün həmsədrlər kimi neytral mövqedə olmalıdır və həmsədrlərin, əslində, ATƏT tərəfindən onlara verilmiş mandatı bunu tələb edir. Paşinyanın bu məktubu göndərməsi onun əslində, etirafıdır. Etiraf edib ki, Ermənistan məğlub olub. Hesab edirəm ki, bu etiraf Ermənistan cəmiyyətində də ciddi təhlil olunmalıdır və Ermənistan rəhbərliyinə ciddi təzyiq edilməlidir ki, bu müharibə dayandırılsın, işğalçılar bizim torpaqlarımızdan çıxsın və bölgədə sülh təmin edilsin.

Mən bir daha sizə bu gözəl təşəbbüsə görə təşəkkürümü bildirirəm, xoş gəlmisiniz. Əminəm ki, tədbiriniz uğurlu keçəcəkdir. Sağ olun.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi **Bağdad AMREYEV** dedi:

- Təşəkkür edirəm, cənab Prezidentim. Bu dəfə Türk iş dünyası qardaş Azərbaycanın səsini bütün dünyaya çatdırmaq üçün Bakıya gəlib. Bu münasibətlə məni və digər türk dünyası palatalarının sədrlərini qəbul etdiyiniz üçün çox təşəkkür edirəm.

Ermənistanın Azərbaycana hücumlarının başladığı ilk günlərdən bəri Türk Şurası olaraq, Türk dünyası olaraq biz qardaş Azərbaycanın yanındayıq. Lazımi bəyanatlar verdik, açıqlamalar etdik. Mən Gəncəyə getdim. Orada da mətbuat nümayəndələri ilə görüşdə bizim daha sərt mövqeyimizi ifadə etdik. Bu Vətən müharibəsində biz Azərbaycanın yanındayıq. Türk dünyası və Türk Şurasının Azərbaycanın işğal altındakı torpaqlarını qeyd-şərtsiz geri almaq məsələsində qanuni haqqı barədə dəstəyimi ifadə etdim. Münaqişənin yalnız və yalnız Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birliyin tanıdığı sərhədlərinin toxunulmazlığı əsasında həlli lazımdır deyirik.

Cənab Prezident, işğal altındakı torpaqların azad edilməsi yolunda şəhid olan bütün azərbaycanlı şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Bugünkü tədbirimizdə - Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palataları rəhbərlərinin iclasında həmrəyliyimizi bir daha ifadə edəcəyik. Bir daha qardaş Azərbaycanın yanında olduğumuzu bəyan edəcəyik. Dünən İstanbulda Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türk Şurasının, türk dünyasının Səhiyyə Nazirlərinin iclasını keçirdik. Bu tədbirdə də biz qardaş Azərbaycana tam və hərtərəfli dəstəyimizi bir daha ifadə etdik.

Bildiyiniz kimi, ötən il Bakıda keçirilən Zirvə toplantısında Türk Şurasına üzv ölkələrin prezidentləri bizə təlimat verdilər. İndi biz Türk Şurasının 2021-ci il üçün strategiyasını, Türk dünyasının 2040-cı il üzrə hədəflərini hazırlayırıq. İnşallah növbəti Zirvə toplantısında bu sənədlər Sizlər tərəfindən qəbul ediləcəkdir. Türk Şurası hər zaman Sizinlə birlikdədir, cənab Prezident. Hamımız Azərbaycanıq.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun, təşəkkür edirəm, çox sağ olun.

Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti **Mustafa RİFAT** dedi:

- Cənab Prezident, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Yenidən Bakıda Sizinlə görüşmək bizim üçün böyük xoşbəxtlikdir. Türk Ticarət və Sənaye Palataları olaraq bugünkü səfərimizin əsas məqsədi Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasına üzv ölkələrin rəhbərlərinin növbədənkənar iclasında iştirak etməkdir. Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri, Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti də buradadır. Eyni zamanda Qazaxıstanın Ticarət və Sənaye Palatasının prezidenti də videokonfransla qatılacaq, çünki o, bu gün idarə heyətinin iclasında iştirak edir.

Bu gün Sizinlə birlikdə olduğumuzu ifadə etmək üçün buraya səfərə gəldik. Düz bir il əvvəl Zirvə toplantısında yenə Sizinlə birlikdəydik. Həmin vaxt Türk dünyasından 1200 iş adamı ilə çox faydalı iclas keçirmişdik. Zirvə toplantısına da bizi dəvət etmişdiniz. Eyni zamanda Türkiyədən 50 milyon nəfəri özündə birləşdirən işçi ittifaqlarını, məmur ittifaqlarını, ticarət konfederasiyalarını təmsil edən səkkiz qeyri-hökumət təşkilatının rəhbərləri də mənimlə birlikdə buraya gəliblər.

Biz 50 milyon nəfəri təmsil edən türk iş dünyası birliklərinin rəhbərləri olaraq, azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu nümayiş etdirmək üçün buradayıq.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun.

**Mustafa RİFAT:**

- Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Yaralı əsgərlərimizə və vətəndaşlarımıza Allahdan şəfa diləyirik. Sizin liderliyinizlə Azərbaycan Ordusunu təbrik edirik. Bizim otuz illik həsrətimizə son qoyursunuz. Allah Sizdən razı olsun, Allah köməyiniz olsun. Bizim üzərimizə hansı vəzifə düşürsə, türk qardaşlarınızın, Türkiyədəki qardaşlarınızın üzərinə hansı vəzifə düşürsə, 24 saata yanınızdayıq. Bizə xəbər göndərməyiniz kifayət edər, cənab Prezident. O gündən bəri Türkiyənin Odalar və Borsalar Birliyinin binasının önünü biz Azərbaycan bayrağımızla bəzədik. O gündən bəri belədir. Bu, bütün sosial mediada yayıldı. O gün ki, Siz əməliyyata başladınız, Ankaranın ən prestijli binalarından birində Azərbaycan bayrağını qaldırdıq.

Yenə bir tapşırığınız olarsa, məmnun qalarıq. Bizim də bu işdə xidmətimiz olarsa, çox xoşbəxt edərsiniz bizi. Təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun, mən çox təşəkkür edirəm. Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, bu günlərdə bütün Azərbaycan xalqı birlik göstərir və bütün Azərbaycan xalqı dünyada bu məsələyə, bu müharibəyə münasibəti çox böyük həssaslıqla izləyir. Bu da başadüşüləndir. Çünki 30 il ərzində bizim torpaqlarımız işğal altında idi və beynəlxalq vasitəçilərin səyləri heç bir səmərə verməmişdir. Sadəcə olaraq, vaxtı uzatmaq, münaqişəni dondurmaq və işğalı əbədi etmək istiqamətində atılan addımları biz görürdük və Azərbaycan xalqı görürdü. Ona görə, bu son bir ay ərzində dünyada bu məsələ ilə bağlı səslənən hər bir fikrə, hər bir mövqeyə Azərbaycan xalqı çox böyük həssaslıqla yanaşır və ilk günlərdən bizim qardaş ölkələrimizdən bu dəstəyi görüncə əlbəttə ki, biz daha da ruhlandıq. Bu, bizə daha da böyük mənəvi güc verdi və bir daha gördük ki, bizim birliyimiz sözdə deyil, əməldədir. Sizin bu gün burada olmağınız bunu bir daha göstərir. Siz də Rifat bəy, qeyd etdiyiniz kimi, bir il bundan öncə Bakıda Türk Şurasının toplantısının keçirilməsi çox əlamətdar hadisə idi. Biz məhz bu məsələlərlə bağlı fikirlərimizi bildirmişdik ki, biz bir yerdə olmalıyıq, bütün məsələlərdə bir-birimizi dəstəkləməliyik. Hər zaman əgər kimsə çətin vəziyyətə düşərsə, mənəvi dəstək göstərilməlidir və bunu biz görürük. Ona görə sizin bugünkü toplantınıza mən xüsusi önəm verirəm. Əminəm ki, bütün Azərbaycan xalqı bunu layiqincə qiymətləndirəcəkdir. Bir daha sizə təşəkkür edirəm.

Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramov və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev bu günlərdə öz ölkələrinin Azərbaycanla həmrəy olduqlarını bir daha ifadə etdilər.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Biz sentyabrın 27-dən Azərbaycana qarşı başlayan, uşaqlar və yaşlı insanlar da daxil olmaqla, 90 mülki şəxsin ölümü ilə nəticələnən irimiqyaslı hərbi əməliyyatlardan hiddətləndiyimizi bildiririk.

Biz mülki vətəndaşların hədəfə alınmasını qətiyyətlə pisləyirik və beynəlxalq ictimaiyyəti BMT və ATƏT kimi beynəlxalq təşkilatları Azərbaycan Respublikasına hərtərəfli dəstək göstərməyə çağırırıq. Bir xalqın mədəni irsini hədəfə almağa heç bir şəkildə bəraət qazandırmaq olmaz. Ermənistanın mülki vətəndaşları, mülki obyektləri və tarixi abidələri davamlı olaraq hədəfə alması Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında 1954-cü il UNESKO Haaqa Konvensiyası, Ümumdünya mədəni və təbii irsin qorunması haqqında 1972-ci il UNESKO Konvensiyası, Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında 1949-cu il Cenevrə Konvensiyası, Arxeoloji irsin qorunması haqqında 1992-ci il Avropa Konvensiyası da daxil olmaqla, beynəlxalq humanitar hüququn kobud pozuntusu və işğalçı ölkənin davam edən təcavüzkar siyasətinin göstəricisidir.

Biz - Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri bəşəri irsin tez bir zamanda xilas edilməsi üçün öz vəzifələrini yerinə yetirmələri və müdaxilə etmələri üçün BMT və UNESKO-ya müraciət edirik. Bundan əlavə, ATƏT-in Minsk qrupunun həmsədrləri səylərini artırmalı və konstruktiv fəaliyyət göstərməlidirlər. Danışıqların beynəlxalq hüquqa əsaslanmaqla və beynəlxalq hüquqa hörmət edilməklə aparılması üçün beynəlxalq dəstək göstərilməlidir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi adından insan tələfatı, Gəncə, Bərdə və Tərtər şəhərlərində mülki vətəndaşların, dəyərli mədəni abidələrin və obyektlərin qorunması məqsədilə bütün səylərlə həmrəyliyimizi göstəririk.

Cənab Prezident, xüsusi fəaliyyətlərinə görə həmsədrlərimiz xanım Vayra Vike-Freyberqaya və İsmail Serageldinə minnətdarlığımızı ifadə edirik.

Cənab Prezident, Sizə ən yüksək hörmət və ehtiramımızı bildiririk.

*Hörmətlə,*

***İvo Yosipoviç***
*2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü*

***Buyar Nişani***
*2012-2017-ci illərdə Albaniyanın Prezidenti,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü*

***Amina Qurib-Fakim***
*2015-2018-ci illərdə Mavriki Respublikasının Prezidenti,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü*

***Əbdüləziz Osman Əl-Tuveycri***
*İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İCESCO) sabiq Baş direktoru,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü*

***Yadranka Kosor***
*2009-2011-ci illərdə Xorvatiyanın Baş Naziri,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü*

***Ekmələddin İhsanoğlu***
*İslam Əməkdaşlıq Təşkilatının 9-cu Baş katibi,*
*Türk Elm Tarixi Cəmiyyətinin fəxri prezidenti,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü*

***Rövşən Muradov***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi*

***Elnur Əliyev***
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru*

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

2020-ci il sentyabrın 27-də separatçı erməni qoşunlarının irimiqyaslı təxribatına cavab olaraq Azərbaycan öz torpaqlarını artıq 30 ilə yaxın davam edən işğaldan azad etmək üçün əks-hücum əməliyyatına başladı.

Biz sülhpərvər insanlarıq, gözləyir və ümid edirdik ki, Qarabağ məsələsi sülh yolu ilə həll edilər. Lakin bizim də səbrimiz tükəndi.

İndi Azərbaycan xalqı Ali Baş Komandanın rəhbərliyi altında öz yenilməz Ordusunun iştirakı ilə şanlı tarix yazır. Azərbaycan haqq yolundadır, haqq işi uğrunda mübarizə aparır.

Bütün varlığımızla və bütün qəlbimizlə inanırıq: torpaqlarımız qısa müddətdə azad ediləcək və Azərbaycanın dövlət bayrağı Şuşada ucaldılacaq. Hər bir Azərbaycan vətəndaşı bu Qələbə gününü səbirsizliklə gözləyir.

Biz - Şamaxı rayonunun Rus icması ölkəmizin tərəqqisi və rifahı naminə gördüyünüz işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Bu gün Azərbaycandakı tolerantlıq mühiti Azərbaycan xalqının tarixi keçmişindən miras qalmış ənənələrin davamıdır. Hazırda müstəqil Azərbaycanda öz milli-mənəvi dəyərlərini, dilini və mədəniyyətini qoruyub saxlamış rus əhali yaşayır, rus icması, Rus Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Bir sözlə, ölkədə müxtəlif millətlərin, mədəniyyətlərin və dinlərin təmsilçilərinin azad və əmin-amanlıq şəraitində yaşamaları üçün hər cür şərait yaradılıb.

Rus dili ölkəmizin hər yerində olduğu kimi, Şamaxı sakinləri arasında da gündəlik ünsiyyət vasitəsi kimi işlənməkdədir. Tədris dili Azərbaycan dili olan siniflərdə də rus dili xarici dil kimi tədris olunur. Şamaxıda rus dilində tədris aparılan 4 ümumtəhsil məktəbi fəaliyyət göstərir.

Şamaxı rayonu ərazisində yerləşən rus qəbiristanlığı mühafizə olunur, həmişə səliqəli vəziyyətdə saxlanılır ki, bu da dini və mədəni tolerantlığın nümunəsidir. Bizim rayonda müxtəlif millətlərin nümayəndələri yaşayır. Bizim aramızda dostluq və qarşılıqlı hörmət var. Xeyirdə də, şərdə də bir yerdəyik.

Biz milliyyətcə rus olan Şamaxı sakinləri də bütün azərbaycanlılar kimi, Sizi - möhtərəm Prezidentimizi sevirik. Respublikamız üçün bu çətin günlərdə Sizə möhkəm cansağlığı və Qələbə arzulayırıq.

Hörmətlə,

***Ukleina Yekaterina Vasilyevna, Svixnuşina Nina İvanovna, Kireyeva İrina Yuryevna, Ukleina Nadejda Nikolayevna, Ukleina Anna Vasilyevna, Kuzneçova Anna Petrovna, Ukleina Mariya Aleksandrovna, Slaşenina Nadejda Vasilyevna, Kotova Yelena Vasilyevna, Ukleina Anna İvanovna, Karpaçeva Anna Vasilyevna, Ukleina Tatyana Vasilyevna, İqnatova Nadejda Timofeyevna, Tretyakov Yuriy Vasilyeviç, Kotova Qalina Vasilyevna, Ukleina Vera İvanovna, Kotova Yekaterina İvanovna, Salomatina Lyubov Mixaylovna, Kastryulin Mixail Mixailoviç, Kastryulina Yekaterina İvanovna, Morozova Yekaterina Vasilyevna, Çerkasova Tatyana Vasilyevna, Fimin Vasiliy İvanoviç, Morozov Mixail Matveyeviç, Polovinkin İvan Vasilyeviç, Kolomeyçenko Olqa İvanovna, Denisenko Lyubov Nikolayevna, Şıxəliyeva Tatyana Semenova, Kireyeva Yevdokiya Yakovlevna, Strekalova Nadejda Mixaylovna, Strekalova Svetlana Vasilyevna, Strekalov Aleksandr İlyiç, Strekalov Vladimir Aleksandroviç, Korolyova Mariya Timofeyevna, Ukleina Tatyana Mixaylovna, Zborovskaya Yekaterina Semyonovna, Buçneva Lyubov Nikolayevna, Kastryulin Vladimir İvanoviç, Polovinkina Nadejda İvanovna, Popor Viktor Yakovleviç, Rusakova Anna Vasilyevna, Korolyova Nadejda Vasilyevna, Belyaev İqor Vladimiroviç, Uklein Roman İvanoviç, Dmitriyev Timofey İvanoviç, Zveryeva Marina Mixaylovna, Zveryeva Feodosiya Nikolayevna, Kretinina Anna İvanovna, Popkova Anna İlinina, Korolyov Andrey Mixayloviç, Kastryulin Andrey Mixayloviç, Olkova Nadejda Petrovna.***

*Azərbaycan Respublikası, Şamaxı rayonu*

# Azərbaycan tək deyil





*Əvvəli 1-ci səh.*

Bu gün də yeni kəndlərin işğaldan azad edilməsi xəbəri veriləcəkdir. Artıq ilkin məlumatlar gəlibdir. İnşallah, sona qədər bu haqlı davamızı davam etdirəcəyik, işğalçıları torpaqlarımızdan qovacağıq.

Türkiyə ilk saatlardan bizim yanımızda olduğunu bəyan etmişdir. Hörmətli Prezident, əziz Qardaşım çox açıq bəyanatlar vermişdir ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və Azərbaycan tək deyil. Bu, çox önəmli bəyanatlar idi və bizə əlavə mənəvi dəstəyin göstərilməsi bir daha Türkiyə-Azərbaycan birliyinin təzahürüdür.

Hörmətli Binəli bəy, biz sizinlə bərabər bu tarixi birlikdə yaşamışıq. Yaxşı bilirik, nə qədər böyük səylər göstərildi ki, Türkiyə və Azərbaycan bir-birinə daha da yaxın olsun. Çox önəmli layihələrin, sizin də rəhbərlik etdiyiniz Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi onların sırasında mühüm yer tutur. Bundan sonra digər layihələr də olacaq. İnşallah, bundan sonra da uğurlu işbirliyimiz davam edəcəkdir.

Sizə bir daha təşəkkürümü bildirirəm. Bilirəm ki, sizin səfəriniz bizə həmrəylik, dəstək göstərmək mənasını daşıyır. Buna görə də çox minnətdaram.



❖ ❖ ❖

Türkiyənin keçmiş Baş Naziri **Binəli YILDIRIM** dedi:

- Çox təşəkkür edirəm, dəyərli Prezident.

Dünən Prezidentimizlə birlikdə idik. Cənab Prezidentimizin salamlarını Sizə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, bir neçə gün əvvəl İzmirdə böyük bir fəlakət baş verdi.



**Prezident İlham ƏLİYEV:**

- Mən Prezidentə zəng etdim, başsağlığı verdim.

**Binəli YILDIRIM:**

- Bəli, İzmirdən seçilən deputat olduğuma görə hadisənin baş verdiyi ilk andan orada idim. Axtarış-xilasetmə işləri zamanı vətəndaşlarımızın dağıntılar altından sağ çıxarılması, xəsarət alanların müalicəsi üçün böyük səy göstərdik. Prezidentimiz də oraya gəldi. O da lazımi göstərişlərini verdi.

Təbii ki, Türkiyə olaraq biz Azərbaycanın bu haqlı mübarizəsində əvvəldən bəri daim onun yanındayıq. Heydər Əliyev cənablarının "Bir millət, iki dövlət" şüarını o gündən bu günədək davam etdiririk. Bilirik ki, Dağlıq Qarabağ məsələsində Siz yerdən göyə qədər haqlısınız. Çünki Azərbaycan bu müharibədə öz torpaqlarını işğalçılardan təmizləyir.

Azərbaycan 27 ildir davam edən bu işğala son qoyur, öz ərazilərinin azad olunmasını təmin edir. Buna görə Azərbaycan gecə-gündüz böyük vətənpərvərlik nümunəsi göstərərək hər gün qəhrəmanlıq dastanları yazır. Buraya gələrkən bir qədər əvvəl yenə bir xəbər oxudum, bir təyyarə məhv edilib.

❖ ❖ ❖

Görüşdən sonra Prezident İlham Əliyev Binəli Yıldırım ilə xatirə şəkli çəkdirdi.

Dövlətimizin başçısı nümayəndə heyətinin üzvləri ilə də xatirə şəkli çəkdirdi.

Binəli Yıldırım xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

Daha sonra Milliyətçi Hərəkət Partiyasının parlamentdəki fraksiyasının rəhbəri Cəlal Adan MHP-nin sədri Dövlət Baxçalının adından Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

## *Binəli YILDIRIM:* "Türkiyə bu haqq mübarizəsində Azərbaycanın yanındadır və yanında olmağa davam edəcək"

Türkiyə Respublikasının keçmiş Baş Naziri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) sabiq sədri, millət vəkili Binəli Yıldırım noyabrın 2-də Bakıda jurnalistlər üçün mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, B.Yıldırım İzmirdə baş verən hadisələr zamanı Türkiyənin Azərbaycanın dəstəyini daim hiss etdiyini deyib və ölkəmizə minnətdarlığını bildirib.

Dağlıq Qarabağ münaqişəsi haqqında danışan B.Yıldırım Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu, qardaş ölkəni daim dəstəkləyəcəklərini vurğulayıb. O, qeyd edib: "1990-cı illərin əvvəllərində Xocalıda törədilən soyqırımının, həmçinin Dağlıq Qarabağ ətrafındakı 7 rayonun işğalı qəbuledilməzdir. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma yurdundan qovulub. Hazırda tərəfləri sülhə səsləyənlər o zaman baş verənləri görməzdən gəlirdilər. Vəziyyətin həlli üçün ATƏT-in Minsk qrupu yaradıldı. Lakin bu qrup vəzifəsinin öhdəsindən gələ bilmədi. Ona görə də Azərbaycan öz haqqı uğrunda mübarizə aparır. Türkiyə bu haqq müharibəsində hər zaman Azərbaycanın yanındadır və yanında olmağa da davam edəcək. İşğal altındakı hər bir ərazinin əsl sahibinə qaytarılması bir qardaş kimi bizi çox sevindirir".

B.Yıldırım qeyd edib ki, Türkiyənin Azərbaycanla birgə həyata keçirdiyi layihələr həm bu iki ölkə, həm də Qafqaz regionu üçün böyük əhəmiyyətə malikdir. Türkiyə ilə Azərbaycan arasında siyasi, sosial və digər sahələrdə əməkdaşlıq bölgədə sülhün, əmin-amanlığın bərqərar edilməsinə, rifahın yüksəldilməsinə yönəlib.

## Baş Nazirin müavini Əli Əhmədov Türkiyənin sabiq Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb



Noyabrın 2-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının sabiq Baş Naziri, Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Əli Əhmədov bu səfəri iki ölkə arasında yüksək səviyyəli əlaqələrin nümunəsi kimi dəyərləndirib. Ümummilli Liderimiz Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını xatırladan Əli Əhmədov qeyd edib ki, bu gün bütün dünya Azərbaycan-Türkiyə qardaşlığının, tarixi dostluğunun bir daha şahidi olur. Xüsusilə, indiki dövrdə Türkiyənin Azərbaycanın yanında olması, haqq savaşımızı dəstəkləməsi tarixdən gələn qardaşlığımızın və dostluğumuzun ən bariz ifadəsidir.

YAP Sədrinin müavini söyləyib ki, bütün dünya bu gün haqq mübarizəsi aparan Azərbaycanın yanında Türkiyə kimi böyük dövlətin olduğunu görür və bu fakt, həmçinin dünyaya bir mesajdır. Türkiyə Prezidentinin, dövlət rəsmilərinin, bütün türk cəmiyyətinin bizə verdiyi mənəvi və siyasi dəstək Azərbaycanın gücünü və qüdrətini daha da artırır. Bu səfər də Azərbaycan-Türkiyə qardaşlığının bariz ifadəsidirsə, digər tərəfdən Türkiyənin 27 sentyabrdan indiyədək ölkəmizə ifadə etdiyi dəstəyin əyani göstəricisidir. Azərbaycan xalqı bu dəstəyi çox yüksək qiymətləndirir.

Əli Əhmədov, həmçinin İzmirdə baş verən zəlzələ nəticəsində çoxsaylı insan itkisi ilə bağlı xalqımızın kədərləndiyini bildirib, vəfat edənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyib.

Qardaş Azərbaycana səfər etməsindən məmnunluğunu bildirən Binəli Yıldırım torpaqlarının işğaldan azad edilməsi üçün böyük mücadilə aparan Azərbaycan xalqına uğurlar arzulayıb. O, bu yolda şəhid olan hərbçilərə və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Problemin 30 ildir həll olunmadığını deyən B.Yıldırım qeyd edib ki, bu illər ərzində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğalı davam edib. Türkiyə olaraq biz hər zaman Qarabağ torpaqlarının erməni işğalından azad olunmasının, azərbaycanlı qaçqın və köçkünlərin öz doğma torpaqlarına qayıtmasının tərəfdarı olmuşuq. Bu məqsədlə indiyə kimi aparılan diplomatik danışıqlar heç bir nəticə verməyib. Təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədrləri işğalçı Ermənistana qarşı heç bir addım atmayıb, işi zamana buraxaraq problemi unutdurmağa çalışıblar. Ona görə də iş bu həddə çatdı ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün haqq savaşına başladı və bu savaşda can Azərbaycan bir dastan yazır.

Türk xalqının hər zaman Azərbaycana dəstək verdiyini deyən B.Yıldırım 102 il öncə Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun göstərdiyi dəstəyi də xatırladıb. O, Türkiyənin bundan sonra da hər zaman qardaş Azərbaycanın yanında olacağını deyərək, səfərin məhz Azərbaycana dəstək xarakteri daşıdığını vurğulayıb.

B.Yıldırım, həmçinin İzmirdə baş verən zəlzələ ilə əlaqədar Azərbaycan xalqının dəstəyini yüksək dəyərləndirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

## Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin sabiq Baş Naziri Binəli Yıldırımla görüşüb



Noyabrın 2-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının keçmiş Baş Naziri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) sabiq sədri, millət vəkili Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Sahibə Qafarova qonaqları salamlayaraq, ölkəmiz üçün belə bir həssas dönəmdə Azərbaycana səfər etdiklərinə görə nümayəndə heyətinin hər bir üzvünə dərin təşəkkürünü bildirib. Qeyd edilib ki, bir millət, iki dövlət kimi ölkələrimiz arasındakı münasibətlərin dünyada bənzəri yoxdur. Dilimiz, dinimiz, mədəniyyətimiz, bölüşdüyümüz dəyərlər, həmçinin uğurlarımız və kədərlərimiz də birdir.

Sədr İzmirdə baş vermiş zəlzələ zamanı həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adından, Azərbaycan parlamentinin deputatları adından başsağlığı verib, xalqımızın onların dərdinə şərik olduğunu söyləyib.

Görüşdə Milli Məclisin Sədri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində sentyabrın 27-də Ermənistanın növbəti təxribatından sonra həyata keçirilən əks-hücum əməliyyatları barədə söz açıb. Qeyd edilib ki, torpaqlarımızın 20 faizini 30 il işğal altında saxlayan Ermənistan münaqişə ilə bağlı BMT-nin qətnamələrini, nüfuzlu beynəlxalq qurumların qərarlarını yerinə yetirməkdən bu illər ərzində boyun qaçırıb. Problemin həlli ilə məşğul olan Minsk qrupunun fəaliyyəti isə heç bir nəticə verməyib. İndi Azərbaycan öz torpaqlarını özü işğalçılardan azad edir. Biz bu məsələdə göstərdiyi siyasi və mənəvi dəstəyə görə qardaş Türkiyənin hökumətinə və xalqına təşəkkür edirik.

Dövlətlərarası münasibətlərdə parlamentlərin rolunu vurğulayan Sahibə Qafarova hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Spiker deputatların qarşılıqlı səfərlərinin, nümayəndə heyətlərinin beynəlxalq təşkilatlarda sıx görüşlərinin ümumi məqsədlərə xidmət etdiyini söyləyib. Bildirilib ki, ölkələrimizin əlaqələri təkcə siyasi deyil, iqtisadi sahədə də yüksələn xətlə inkişaf edir. Bu günədək ölkələrimiz arasında 249 sənəd imzalanıb. Ötən il Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsinin həcmi 4,5 milyard ABŞ dolları həcmində olub. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, bu ilin ilk 8 ayında bu göstərici 3 milyard dollara çatıb.

Spiker, həmçinin qeyd edib ki, bu gün Azərbaycan və Türkiyə bölgədə qlobal layihələrin həyata keçirilməsini təmin edən dövlətlərdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və TAP kimi enerji, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri dövlətlərimizin birgə iradəsinin məhsuludur.

Milli Məclisin Sədri Binəli Yıldırımın dəfələrlə ölkəmizdə səfərdə olduğunu xatırladaraq, onun bundan sonra da ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə töhfələr verəcəyinə inamını ifadə edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Türkiyə Böyük Millət Məclisinin sabiq sədri, millət vəkili Binəli Yıldırım ölkəmizə növbəti səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. B.Yıldırım Azərbaycanın öz ərazilərini azad etmək üçün erməni işğalçılarına qarşı apardığı mübarizədə xalqımıza dəstək vermək üçün ölkəmizə səfər etdiklərini bildirib. Qonaq vurğulayıb ki, problemlə əlaqədar BMT-nin qəbul etdiyi qətnamələr uzun illər ərzində yerinə yetirilmədiyindən bu gün müstəqil Azərbaycan öz işini özü görür. Azərbaycanın bu haqlı mübarizəsində 83 milyonluq Türkiyə xalqı öz qardaşının yanındadır.

Binəli Yıldırım Türkiyə parlamentində təmsil olunan 4 partiyanın Azərbaycana birmənalı dəstək verdiyini, TBMM-nin Sədri Mustafa Şentopun ölkəmizə və Gəncəyə səfərinin məhz Azərbaycana dəstək baxımından önəmli olduğunu vurğulayıb. Qeyd olunub ki, Türkiyənin yüksək vəzifəli rəsmilərinin ölkəmizə səfərləri yaxın günlərdə də davam edəcək.

Türkiyə və Azərbaycanın birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələri haqqında fikirlərini bölüşən Binəli Yıldırım bu işbirliyinin hər iki ölkənin beynəlxalq nüfuzuna müsbət təsir etdiyini bildirib.

Görüşdə Türkiyə ilə dostluq qrupunun rəhbəri Əhliman Əmiraslanov, deputat Məlahət İbrahimqızı, TBMM-nin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım, türkiyəli millət vəkili Cəlal Adan, Türkiyə nümayəndə heyətinin üzvü Gürşad Zorlu çıxış edərək Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin bu günü və inkişaf perspektivləri barədə fikirlərini səsləndiriblər.

# "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının sədri cənab Bidzina İvanişviliyə

Hörmətli cənab İvanişvili!

Gürcüstanda keçirilmiş parlament seçkilərində "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qalib gəlməsi münasibətilə Sizi öz adımdan və Yeni Azərbaycan Partiyası adından ürəkdən təbrik edirəm.

Sədri olduğunuz partiyanın ardıcıl olaraq üçüncü parlament seçkilərində qalib gəlməsi dost Gürcüstan xalqının həyata keçirdiyiniz siyasi kursa dəstəyini bir daha təsdiq etdi.

İnanıram ki, bu qələbəniz ölkənizin daha da çiçəklənməsinə xidmət edəcək, xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli inkişafına bundan sonra da töhfə verəcəkdir.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzu edirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 noyabr 2020-ci il*

# Moldova parlamentinin sədrinə Ermənistanın hərbi təxribatları barədə məlumat verilib



Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Müstəqil Dövlətlər Birliyi (MDB) Parlament Assambleyasının (PA) müşahidəçilər qrupunun rəhbəri kimi noyabrın 1-də Moldovada keçirilən prezident seçkilərini müşahidə etmək üçün paytaxt Kişineuda səfərdə olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Adil Əliyev MDB PA-nın müşahidəçilər qrupunun rəhbəri kimi Moldova Respublikası parlamentinin sədri xanım Zinaida Greçeani ilə görüşüb.

Görüş zamanı Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasının üzvü olan ölkələr üçün beynəlxalq müşahidə institutunun əhəmiyyəti, seçkilərin keçirilməsi və monitorinqinin qaydaları da daxil olmaqla bir çox məsələlər ətrafında müzakirələr aparılıb. Həmçinin tərəfləri maraqlandıran digər məsələlər barədə danışılıb.

Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirməsinə, Azərbaycanın mülki vətəndaşlarını qətlə yetirməsinə diqqət çəkən A.Əliyev Gəncə və Bərdə şəhərlərində törədilən müharibə cinayətləri barədə danışıb. Ermənistanın humanitar hüququn normalarını kobud şəkildə pozduğunu, 1949-cu il tarixli Cenevrə Konvensiyasına zidd davranışlar etdiyini və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş 4 qətnaməni bu vaxta qədər yerinə yetirmədiyini bildirib.

Görüşdə Milli Məclisin deputatları Rüfət Quliyev, Sabir Hacıyev və ölkəmizin Moldovadakı səfiri Qüdsi Osmanov iştirak ediblər.

Səfər zamanı Milli Məclis Sədrinin müavini Adil Əliyev rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə Moldovanın Qaqauziya muxtar ərazisində seçki prosesinin gedişini izləyib, Qaqauziyanın rəhbəri İrina Vlax və Qaqauziya Xalq Məclisinin Sədri Vladimir Kıssa ilə görüşüb.



# Milli Məclis Sədrinin müavini Adil Əliyev Kişineuda soydaşlarımızla görüşüb

Prezident seçkilərini müşahidə etmək məqsədilə Moldovada səfərdə olan Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini, MDB Parlamentlərarası Assambleyasının müşahidəçilər qrupunun rəhbəri Adil Əliyev nümayəndə heyəti ilə birlikdə Kişineu şəhərində azərbaycanlı iş adamları, diaspor fəalları və gənclərlə görüş keçirib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə Moldova Demokrat Partiyası fraksiyasının rəhbəri deputat Dumitru Diakov da iştirak edib.

Görüşdə A.Əliyev Azərbaycan həqiqətlərindən söhbət açaraq Ermənistanın təcavüzkar siyasəti, onların dinc əhaliyə qarşı raket hücumu nəticəsində günahsız insanlara və şəhərlərimizə dəyən zərərdən danışıb, Azərbaycan Ordusunun uğurlu əks-hücumu nəticəsində düşmənə layiqli cavab verildiyini söyləyib və hərbi sahədə ordumuzun uğurları ilə yanaşı, diplomatiya sahəsində müzəffər Ali Baş Komandanın münaqişə ilə bağlı qətiyyətli mövqe nümayiş etdirdiyini, xarici jurnalistlərin suallarını yüksək bacarıqla cavablandırdığını və bu çətin günlərdə müraciətlərlə çıxış edərək xalqının daim yanında olduğunu vurğulayıb. Eyni zamanda ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın şəhid ailələrinə baş çəkərək onları mütəmadi diqqətdə saxlaması və döyüşdə yaralanan əsgərlərimizə baş çəkərək onların vəziyyəti ilə maraqlanmasının hər bir insan üçün örnək olduğunu dilə gətirib. Nitqinin sonunda A.Əliyev Moldovada yaşayan azərbaycanlılara bu günlərdə həmişəkindən daha çox birliyə, vətənpərvərliyə ehtiyac olduğunu bildirib və toplaşdıqları üçün görüş iştirakçılarına təşəkkür edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Moldovalı deputat D.Diakov çıxış edərək hazırkı münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün bərpa edilməsi çərçivəsində həllini dəstəklədiyini bildirib. O, Azərbaycan Prezidentinin apardığı uğurlu siyasətin ölkəsinə qələbə bəxş etdiyini qeyd edib, bundan əlavə, Moldovada yaşayan azərbaycanlılardan ibarət diasporun fəallaşmasının müşahidə edildiyini diqqətə çatdırıb.

Görüşdə çıxış edən səfir Qüdsi Osmanov Moldovada yaşayan azərbaycanlıların fəaliyyətinin gücləndiyini və ölkəmizlə bağlı baş verən hadisələrdə birlik nümayiş etdirərək səfirlik tərəfindən təşkil edilən tədbirlərdə fəal iştirak etdiklərini bildirib.

Daha sonra azərbaycanlı iş adamı Firuz İsayev çıxışında nümayəndə heyətinin üzvlərinə görüşə görə təşəkkür edib, nəinki gənclərin, eləcə də bütün azərbaycanlıların Prezidentimizin, müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşdiyini qeyd edib.

Sonda Moldova Azərbaycanlıları Konqresinin (MAK) sədri Elçin Bayramov çıxış edərək deputatlarımızdan ibarət nümayəndə heyətinə təşəkkürünü bildirib, MAK-da aparılan islahatlar nəticəsində azərbaycanlı diasporun gəncləşdirildiyi və fəallaşdırıldığını görüş iştirakçılarının diqqətinə çatdırıb.

**◆ Prezidentə yazırlar**

# "Fəxr edirik ki, Sizin kimi xalqını, Vətənini sevən və qoruyan Ali Baş Komandanımız, dünyaya öz sözünü deyən Prezidentimiz var"

Azərbaycan Ordusunun uğurlu əməliyyatları, torpaqlarımızın ard-arda işğaldan azad edilməsi vətəndaşlarımızda, xaricdə yaşayan soydaşlarımızda, eləcə də qardaş Türkiyənin vətəndaşlarında böyük qürur və sevinc hissləri yaradıb. Onlar dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda bu hissləri ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.



Qırğızıstanın Bişkek şəhərindən **Əzizağa Əliyev, Əsəd Həsənov, Tahar Quliyev, Mirkazım Bəşirov, Qiyas Xəlilov, Sultan Qasımov, Hökümə Xəlilova** və **Ramiz Məşədihəsənli** yazırlar: "Çox hörmətli Prezidentimiz, Qırğızıstan azərbaycanlılarının "AZƏRİ" İctimai Birliyi Azərbaycan dövlətinin və onun başçısının yanında olduğunu bir daha bəyan edir. Dağlıq Qarabağda işğal altında olan yaşayış məntəqələrimizin işğalçılardan azad edilməsi uğrunda Azərbaycan Ordusunun keçirdiyi təmizləmə əməliyyatını alqışlayır və Qırğızıstandakı cəmiyyətimizlə birlikdə Silahlı Qüvvələrimizin yanında olduğumuzu bildiririk. Başqa bir ölkənin vətəndaşı olsaq da, Ana Vətənimiz üçün hər cür fədakarlığa hazır olduğumuzu bildirməkdən şərəf duyuruq. Biz keçən əsrin 1929-1937-ci illərində Azərbaycandan Orta Asiyaya sürgün olunan ata-babalarımızın indiki nəslinin nümayəndələri olaraq daim tarixi Vətənimiz Azərbaycanda gedən dəyişiklikləri, ictimai-siyasi prosesləri, mədəni-quruculuq işlərini diqqətlə izləmiş, uğurlarına sevinmişik. Möhtərəm Prezident, tarixi torpaqlarımızın, yaşayış məntəqələrimizin bir-birinin ardınca aparılan uğurlu döyüş əməliyyatları nəticəsində mənfur düşmənlərimizdən təmizlənməsi hamımızda ruh yüksəkliyi yaratmışdır. Ali Baş Komandan və Prezidentimiz kimi hər cür əmrinizə hazırıq. Təki Vətənimizin işğal altında olan torpaqları düşmənlərimizdən azad olunsun. Xaricdə yaşayan azərbaycanlılar olaraq Vətənimiz Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün görülən işlərdən qürur duyuruq. Allah ordumuza bu şərəfli mübarizədə uğurlar nəsib eləsin! Respublika Prezidenti və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı olaraq Siz Ümummilli Lider Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" tövsiyələrinə sadiq qaldınız. Təsadüfi deyil ki, Çingiz Aytmatov Bakıdakı yubileyində Sizinlə görüşməkdən çox təsirləndiyini qeyd edərək, "Azərbaycanın lideri yalnız yetkin bir dövlət xadimi deyil, həm də böyük bir ziyalıdır" demişdir. Qeyd etdiyimiz bu keyfiyyətlər bu gün Azərbaycanın işğal olunmuş torpaqlarının geri qaytarılmasını təmin etmək üçün göstərdiyiniz şücaətin, müdrikliyin nəticəsidir. Müxtəlif mediaya və televiziya kanallarına müsahibələr verərkən səsinizin ahəngi belə işğalçılara qarşı mübarizədə qələbənin ahəngi anlamına gəlir. Ona görə də xalqımız da, Vətəndən kənarda yaşayan biz azərbaycanlılar da Azərbaycanın işğal olunmuş ərazilərinin tezliklə Sizin rəhbərliyiniz altında azad olunacağına və ərazi bütövlüyümüzün qeyd-şərtsiz təmin edəcəyinizə qəti inanır, həsrətlə qələbə gününü gözləyirik. Hörmətli Prezidentimiz, Azərbaycanın bu haqlı, ədalətli mübarizəsi yolunda Sizə möhkəm cansağlığı və uğurlar diləyirik".

Rusiyanın İvanovo şəhərindən **Xeyrulla İbadov:** "Hörmətli cənab Prezident, mən Cəlilabad rayonunun Kürdlər kənd sakiniyəm. Hazırda Rusiya Federasiyasının İvanovo şəhərində yaşayıram. Amma inanın ki, qəlbim, ürəyim həmişə Azərbaycanla döyünür. Mən və bütün ailə üzvlərim Sizinlə qürur duyuruq. Bu gün Siz şanlı tarix yazırsınız. Mən bütün qəlbimlə inanıram ki, biz zəfər çalacağıq. Bütün dualarımız Sizinlə və igid əsgərlərimizlədir. Mənim kiçik qardaşım da hərbçidir və ön cəbhədə vuruşur. Qardaşımla və qüdrətli Ordumuzla fəxr edirəm. Qələbə bizimlədir! Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan xalqı!"

Türkiyənin İstanbul şəhərindən **Ulduzə Əliyevanın** məktubunda deyilir: "Cənab İlham Əliyev, bu məktubu Sizə şəxsən öz adımdan, eləcə də İstanbul Universitetindəki məsləkdaşlarım adından yazıram. Artıq bir aydır ki, ölkəmizdə Vətən müharibəsi gedir. Hörmətli cənab Prezident, Siz Vətənimizin 30 il işğalda olmuş torpaqlarını azad etməklə öz adınızı Azərbaycan dövlətçilik tarixinə qızıl hərflərlə yazırsınız. Sizin qələbə müjdəli çıxışlarınızı Türkiyənin sadə vətəndaşından tutmuş professoruna qədər bütün təbəqələri maraqla izləyir, Sizi və Azərbaycanı qəlbən dəstəkləyirlər. Dünyanın məşhur telekanallarının təxribatçı jurnalistlərinə rus və ingilis dillərində verdiyiniz gözəl və diplomatik cavablarınızı heyranlıqla izləyirik. Ümid edirik ki, rəhbərlik etdiyiniz rəşadətli Azərbaycan Ordusu tez bir zamanda Xocalını da erməni işğalçılarından azad edər, həm Xocalı şəhidlərinin, həm də Xocalı həqiqətlərini dünyaya göstərmək üçün şəhid olan qəhrəman jurnalist Çingiz Mustafayevin ruhu şad olar. Tezliklə Xocalı, Şuşa, Laçın, Xankəndidən qələbə xəbərlərini gözləyirik. Mən əslən qarabağlı olmasam da, hər dəfə hansısa bölgəmizin işğaldan azad olunduğunu eşidəndə gözlərimdən sevinc göz yaşları axır. Təsəvvür edirəm ki, həmin bölgənin insanlarının sevincinin həddi-hüdudu yerə-göyə sığmır. Bütün bu inanılmaz sevincləri bizə yaşatdığınıza görə Sizə təşəkkür edirəm".

Almaniyanın Köln şəhərindən **Ağa Ağayev:** "Müzəffər Ali Baş Komandan, rəşadətli Azərbaycan Ordusu Sizin rəhbərliyiniz altında uğurlu döyüş əməliyyatları keçirərək qısa vaxt ərzində böyük uğurlara nail olmuşdur. Çox böyük ruh yüksəkliyi ilə aparılan uğurlu döyüş əməliyyatları öz nəticəsini verməkdədir. Bu, Azərbaycan xalqı üçün Vətən müharibəsidir. Siz öz xalqınıza arxalanaraq qətiyyətli və lazımi qərarlar verməklə qələbəni təmin edirsiniz. Bu hadisələr "El bir olsa dağ oynadar yerindən" kəlamını bir daha sübut edir. Torpaqları azad etməyin və xəstə təfəkkürə malik olan ermənilərin təcavüzünə son qoymağın əsl zamanıdır. Səbrin də bir həddi var. Dünyanın bir çox dövlətlərinin erməniləri müdafiə etmələrinə baxmayaraq, təcavüzkar Ermənistan öz layiqli cavabını alır. Şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz işğaldan azad olunduqca, xalqımızın birliyi daha da möhkəmlənir. Qürur duyuruq. Azərbaycan xalqının möhtəşəmliyi bir daha özünə qayıdır. Allah şəhidlərimizə rəhmət eləsin, yaralı əsgərlərimizə isə şəfa versin. Mən əslən Füzuli şəhərindənəm. Bu gün Qarabağın bütün kənd və qəsəbələri, şəhərləri mənim üçün eynidir. Çünki Qarabağ Azərbaycandır! Bu möhtəşəm sözü tarixin şanlı səhifəsinə qızıl hərflərlə yazan Ali Baş Komandan, möhtərəm İlham Əliyev xalqımızın əsl sərkərdəsidir. Xalq öz sərkərdəsinə arxalanaraq, ölümün gözünə dik baxa-baxa qələbələr qazanır. Zəkası və qətiyyəti ilə dünyanı özünə heyran edən Ali Baş Komandan, Allah Sizi və Ordumuzu qorusun. Xalq həmişə Sizinlədir.

Sağ ol Prezidentim mənim.
Var ol Komandanım mənim.
Hər an xalqın qəlbində,
Dağ ol Prezidentim mənim.

Dünyanın harasında yaşamağından asılı olmayaraq, hər birimizin bir Vətəni var - Azərbaycan!"

Saatlı rayonunun sakini **Tacəddin Mirzəyev:** "Hörmətli Prezident, Siz dünya siyasətinin böyük simalarından biri, həmişəyaşar, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısısınız. Siz bu müharibə də heç bir dövlətin köməyindən istifadə etmədən, yalnız öz uzaqgörən siyasətinizə və rəhbərlik etdiyiniz Azərbaycan Ordusuna arxalandınız. Tezliklə güclü Ordumuzdan tam qələbə müjdəsini də alarıq. Siz bu qələbədən sonra ölkəmizin əbədi Prezidenti olacaqsınız. Dünya liderlərinə yaltaqlıq edən Paşinyan isə yarıtmaz siyasət yürütməklə özünü və ölkəsini gündən-günə uçuruma apararaq daha da gülünc vəziyyətə salıb. Allah Sizi və əsgərlərimizi qorusun! Biz ilhamı Sizdən alırıq, biz Sizinlə nəfəs alırıq! Eşq olsun Prezidentimizə! Eşq olsun Ordumuzun qəhrəman əsgərlərinə! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Tərtər rayon sakini **İlkin Kərimov** dövlət başçısına yazır: "Hörmətli Prezident, müzəffər Ali Baş Komandan, ölkəmizin müdafiəsi və dövlətimizin ərazi bütövlüyünün bərpası üçün atdığınız addımlar çox təqdirəlayiqdir. Mən bir Azərbaycan vətəndaşı kimi fəxr edirəm ki, Sizin kimi xalqını, Vətənini sevən və qoruyan Ali Baş Komandanımız, dünyaya öz sözünü deyən Prezidentimiz var. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüşlərə qatılmaq üçün Sizin əmrinizi gözləyən minlərlə vətəndaşdan biri də mənəm. Baxmayaraq ki, səhhətimdə müəyyən problemlər var, bir tərtərli kimi hər an əmrinizə müntəzirəm. Cənab Prezident, müzəffər Azərbaycan Ordusunun göstərdiyi şücaət nəticəsində işğaldan azad olunmuş ərazilərimizin videogörüntülərini izləyərkən çox duyğulanıram. Bu yaxınlarda Suqovuşan kəndinin görüntülərini görərkən göz yaşlarımı saxlaya bilmədim. Bu duyğularımı, keçirdiyim hissləri yazdığım cümlələrlə ifadə edə bilmirəm. Bu cür gözəlliyə malik olan torpaqlarımızda erməni daşnakları yaşadığına otuz ildir necə dözmüşük!? Suqovuşanı görərkən içimdə belə bir istək yarandı ki, kaş mən də bu kəndin sakini olaydım. İnşallah, bu istəyimin reallaşacağı arzusu ilə, Sizə və şanlı Ordumuza yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!"

Oğuz rayonunun sakini **Talıb Əliyev:** "Xalqımızın yüksək sevgi və hörmətini qazanmış əziz Prezidentimiz İlham Heydər oğlu Əliyev, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşı olmaqdan qürur duyuruq. Ölkəmizin şanlı tarixinə böyük qələbələr yazan Ali Baş Komandan kimi, Sizə qəlbimdən gələn ən ülvi istəklərimi çatdırıram. Torpaqlarımızın azadlığı uğrunda həlak olmuş bir şəhid atası kimi inanıram ki, övladlarımızın qanı yerdə qalmayacaq, qisasları alınacaq. Sizə Uca Allahdan cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Sizin bütün fəaliyyətiniz hər bir azərbaycanlının xoşbəxt və firavan gələcəyinə hesablanıb. Allah bu müqəddəs işinizdə Sizə yar olsun!"

Goranboy rayonundan **Afaq Hüseynova:** "Hörmətli cənab Ali Baş Komandan, əvvəla Sizi və qüdrətli ordumuzu salamlayıram. Mən Aprel döyüşlərində şəhid olmuş Bəxtiyar Hüseynovun anası olaraq Sizə təşəkkür məktubu yazmağı özümə borc bildim. Hər gün ailəmlə birlikdə televiziya qarşısında oturub səbirsizliklə Sizin bizə verəcəyiniz müjdəli xəbərləri gözləyirik. Sizin çıxışlarınızdan hər birimiz böyük zövq alırıq. Elimizin, obamızın insanlarının bu gün bir yumruq kimi Sizin ətrafınızda birləşməsi təsadüfi deyil. Bu, Sizin illərdir apardığınız daxili və xarici siyasətin müsbət nəticəsidir. Cənab Ali Baş Komandan, mən bu gün şəhid anası olaraq fəxr edirəm ki, bizim Sizin kimi bir dövlət başçımız var. Allah Sizi və Ordumuzu müzəffər etsin. Şəhidlərimizin ruhu şad olsun. "Torpaq əgər uğrunda ölən varsa Vətəndir". Qarabağ Azərbaycandır və bütün Qarabağın işğaldan azad olunmasını səbirsizliklə gözləyirik".

Şəki sakini **Ürfan Zamanova:** "Hörmətli Prezident, Sizin müdrik rəhbərliyinizlə rəşadətli, şanlı Ordumuzun düşmən tapdağı olan torpaqlarımızı mənfur düşməndən qarış-qarış azad etdiyini, ərazi bütövlüyümüzün bərpa olunduğunu gördükcə sevincimizin həddi-hüdudu olmur. Hər gün şad xəbərlər eşidirik. Bu sevinc dolu hissləri bizə yaşatdığınıza görə Sizə və Ordumuza böyük minnətdarlığımızı bildiririk. Allah Sizi və Ordumuzu qorusun. Yaşasın azad və müstəqil Azərbaycan! Qarabağ Azərbaycandır!"

Bakı şəhər sakini **Əli Həmidov:** "Hörmətli Prezidentim, cənab Ali Baş Komandan, Sizi Cəbrayıl rayonunun 3 saylı orta məktəbinin 4-cü sinif şagirdləri və şəxsən öz adımdan salamlayıram. Mənim 10 yaşım var. 8 ildən sonra Azərbaycan əsgəri adına layiq olacağam. Dünyada Sizin kimi Prezident yoxdur. Hamımız fəxr edirik ki, Sizin kimi rəhbərimiz var. Sizi çox sevirik. Cənab Prezident, Siz Paşinyanın heç bir zənginə cavab verməyin, o, Sizdən müharibəni dayandırmağı xahiş edəcək. Qəti qələbəyədək davam edin. Sizə və Ordumuzun bütün əsgərlərinə cansağlığı və böyük uğurlar arzulayırıq. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!"

Quba rayonundan **Ümbül Əliyeva:** "Hörmətli cənab Prezident, mən Quba şəhərində yaşasam da, hər bir azərbaycanlı kimi, Qarabağın hər qarışının azad olunmasına son dərəcə sevinirəm və cəbhədə qazandığımız uğurlara görə Sizə öz minnətdarlığımı bildirirəm. Biz Sizinlə fəxr edirik, cənab Ali Baş Komandan. Siz Azərbaycanın görən gözü, döyünən ürəyisiniz. İnanırıq ki, çox tezliklə üçrəngli Bayrağımız işğal altında olan bütün torpaqlarımızda dalğalanacaq və şəhid balalarımızın intiqamı alınacaq, İnşallah. Şəhid anaları da bununla təskinlik tapacaq, sevinc göz yaşları tökəcəklər. Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!"

Bakı şəhər sakini **Emil Maqsudov** yazır: "Hörmətli Prezident, Sizə ailəm və şəxsən öz adımdan dərin minnətdarlığımızı bildirir, torpaqlarımızın erməni işğalçılarından azad edilməsində göstərdiyiniz səylərinizdə uğurlar diləyirik. Sizin kimi müdrik, qüdrətli Ali Baş Komandanımız və rəşadətli Ordumuz olduğu üçün çox xoşbəxtik, Sizlərlə qürur duyuruq. Uca Allahdan Sizə və komandanlıq etdiyiniz Ordumuza güc-qüvvət və xalqımıza Qələbə sevinci arzulayıram. Qarabağ Azərbaycandır!"

Göygöl sakini **Şəfahət Cəfərov:** "Müzəffər Ali Baş Komandan, bir əsgər ailəsi kimi Sizinlə və Ordumuzla fəxr edirik. Fəxr edirik ki, bizim güclü liderimiz və qüdrətli ordumuz var. Bu haqq işinizdə Sizlərə böyük uğurlar arzulayırıq. İnanırıq ki, uzun illərdir doğma yurd-yuvasından didərgin düşmüş 1 milyon məcburi köçkün Sizin və rəşadətli Ordumuzun hünəri sayəsində öz torpaqlarına qayıdacaq və daha firavan həyat yaşayacaqlar. Allah bu şərəfli yolda Sizə və bütün əsgərlərimizə yardımçı olsun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Mingəçevir şəhərindən **Elgiz Aslanov:** "Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan, ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın azad olunması sevincini bizə yaşatdığınız üçün bir vətəndaş kimi həm Sizə, həm də Azərbaycan Ordusuna böyük minnətdarlığımı bildirirəm. Tarixi torpağımız olan Qarabağın düşmən işğalından tam azad olunması uğrunda apardığınız haqlı mübarizədə Azərbaycan əsgəri kimi əmrinizdəyəm. Allah Sizi, ordumuzu və xalqımızı qorusun, böyük sərkərdə!"

Şamaxı sakini **İsmət Yusubov:** "Hörmətli Prezident, müzəffər Ali Baş Komandan, mən Qərbi Azərbaycandanam. Ermənistandakı tarixi yurdlarımızdan qovulduqdan sonra, 30 ildən artıqdır ki, Azərbaycanda yaşayıram. Tarixdə 10 "Qarabağnamə" yazılmışdır, Siz 11-ci "Qarabağnamə"ni yazırsınız. Siyasi diplomat, natiq, vətənpərvər lider olduğunuz üçün Sizə təşəkkür edirəm. Sizin müdrik siyasətiniz sayəsində erməni mifi dağıdıldı, işğal olunmuş Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarında üçrəngli bayraqlarımız dalğalandırıldı. Sizə və qəhrəman əsgərlərimizə ailəm və öz adımdan minnətdarlığımı bildirirəm. Allah Sizlərə bu şərəfli işinizdə yardımçı olsun! Qələbə bizimləridir! Qarabağ Azərbaycandır!"

# Baş Nazir Əli Əsədov Gürcüstanın Baş Naziri Giorgi Qaxariyaya məktub ünvanlayıb

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov noyabrın 2-də Gürcüstanın Baş Naziri Giorgi Qaxariyaya məktub ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazir Əli Əsədov Gürcüstanda keçirilmiş parlament seçkilərində "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının qalib gəlməsi münasibətilə Baş Nazir Giorgi Qaxariyanı təbrik edib.

Bu qələbənin hakim partiyanın uğurlu siyasətinə dost Gürcüstan xalqı tərəfindən verilən yüksək qiymətin təcəssümü olduğu vurğulanıb, Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli inkişafına bundan sonra da töhfə verəcəyinə əminlik ifadə olunub.

# Azərbaycanın və Türkiyənin Xarici İşlər nazirləri arasında görüş keçirilib



Noyabrın 1-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Bakıya işgüzar səfər edən Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu arasında görüş keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı nazirlər Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bölgədəki son vəziyyətə dair ətraflı fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Ermənistanın humanitar atəşkəslə bağlı razılıqlara rəğmən, azərbaycanlı dinc əhalini atəşə tutması, Cenevrə görüşündən sonra ATƏT-in Minsk qrupunun həmsədrlərinin çağırışına məhəl qoymayaraq yenidən Azərbaycanın yaşayış məntəqələrini hədəf alması, beynəlxalq humanitar hüququ kobud şəkildə pozması barədə həmkarına məlumat verib.

Nazirlər bölgədə dayanıqlı sülhün təmin olunması üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycan ərazilərinin işğalına son qoyulmasının vacibliyini vurğulayıblar.

# Türk Şurasının nümayəndə heyəti Ermənistanın destruktiv əməlləri barədə məlumatlandırılıb



Noyabrın 2-də Xarici İşlər naziri Ceyhun Bayramovun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi (Türk Şurası) Bağdad Amreyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətini salamlayan nazir Ceyhun Bayramov son zamanlar Türk Şurasını Baş katibinin ölkəmizə səfərlərinin Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinə əlavə dəstək verdiyini vurğulayıb.

Türk Şurası tərəfindən Azərbaycanın mövqeyi ilə bağlı bu günədək sərgilənən birmənalı dəstəyə görə təşəkkürünü bildirən nazir C.Bayramov Baş katibin raket atəşinə məruz qalan Gəncə şəhərinə səfər etməsinin Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilən müharibə cinayətləri ilə yerində tanış olmaq baxımından xüsusi önəm kəsb etdiyini və mənəvi əhəmiyyətinin yüksək olduğunu qeyd edib.

Nazir Ceyhun Bayramov Ermənistanın destruktiv əməlləri barədə qarşı tərəfi məlumatlandırıb. Uzun illər ərzində Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qeyri-qanuni mövcudluğunun yalnız ölkəmiz üçün deyil, bütün bölgə üçün ciddi təhdid təşkil etdiyi vurğulanıb. Azərbaycanın xoş niyyət nümayiş etdirərək üç dəfə humanitar atəşkəsə razılıq verdiyi və hər dəfə də bu humanitar atəşkəsin Ermənistan tərəfindən kobud şəkildə pozulduğu qeyd edilib. Sonuncu Cenevrə danışıqlarında da mülki əhalini hədəfə almamaq öhdəliyini götürən Ermənistanın yenidən onu kobud şəkildə pozduğu və Azərbaycanın yaşayış məntəqələrini artilleriya atəşinə tutduğu diqqətə çatdırılıb.

Bakıda Türk Ticarət və Sənaye Palatasının təşkil etdiyi "Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü" tədbirinin əhəmiyyətini qeyd edən Ceyhun Bayramov Azərbaycanın işğaldan azad edilmiş bütün torpaqlarında bərpa işlərinin həyata keçiriləcəyini və bununla əlaqədar dövlətimiz tərəfindən bütün səylərin səfərbər ediləcəyini bildirib.

Baş katib Bağdad Amreyev öz növbəsində səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla qeyd edib. O, Türk Şurasının Azərbaycanın yanında olduğunu və ölkəmizin haqlı mövqeyini birmənalı şəkildə dəstəklədiyini bildirib.

Bağdad Amreyev Bakıda təşkil edilmiş tədbirin əhəmiyyətini vurğulayıb, belə tədbirlərin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində müvafiq layihələrin həyata keçirilməsinə, beləliklə də həmin torpaqlarda əhalinin normal həyatının bərpasına dəstək olduğunu qeyd edib.

Tərəflər həmçinin Türk Şurasının növbəti Zirvə görüşünə hazırlıq, eləcə də təşkilatın gündəliyində duran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

# "Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü" mövzusunda Türk Ticarət və Sənaye Palatasının növbədənkənar iclası keçirilib





Noyabrın 2-də Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilati dəstəyilə Türk Ticarət və Sənaye Palatasının (TCCI) növbədənkənar görüşü keçirilib.

Tədbirdə İqtisadiyyat naziri Mikayıl Cabbarov, Türk Ticarət və Sənaye Palatasının və Türkiyə Odalar və Borsalar Birliyinin (TOBB) prezidenti Mustafa Rifat, Türk Şurasının Baş katibi Bağdad Amreyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev, Qazaxıstan Sahibkarların Milli Palatasının (Atameken) sədri Ablay Mirzahmedov, Özbəkistan Ticarət və Sənaye Palatasının sədri Adham İkramov, Qırğızıstan Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev və digər rəsmi şəxslər iştirak edib.

Türk Ticarət və Sənaye Palatasının və TOBB-un prezidenti Mustafa Rifat giriş nitqi ilə çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları nəticəsində Azərbaycan torpaqları işğaldan azad olunur. "Azərbaycana hər sahədə dəstək verməyə hazırıq və torpaqların işğaldan azad olunması ilə bağlı Azərbaycanın apardığı mübarizədən qürur duyuruq", - deyən R.Hisarcıklıoğlu Azərbaycanın istehsal, ticarət, logistika imkanlarının geniş olduğunu vurğulayaraq türkdilli dövlətlərin iş adamlarını bu potensialdan daha fəal istifadə etməyə çağırıb. Onun sözlərinə görə, Türkiyənin türkdilli ölkələrdə 20 milyard dollar həcmində investisiyası mövcuddur və qarşıdakı dövrdə uğurlu birgə layihələrə də start veriləcək.

İqtisadiyyat naziri Mikayıl Cabbarov əvvəlcə Türkiyənin Egey bölgəsində baş verən zəlzələ nəticəsində həlak olanlarla əlaqədar başsağlığı verib, yaralılara şəfa diləyib. Nazir, həmçinin Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına həlak olan şəhidlərimizə Allahdan rəhmət, yaralılara şəfa arzulayıb.

Çıxışına davam edən nazir bildirib ki, Azərbaycanın regionun davamlı inkişafa nail olunmasında göstərdiyi səylərə və əldə etdiyi mühüm uğurlara baxmayaraq, Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçı siyasəti iqtisadi əməkdaşlığın genişləndirilməsinə ciddi maneələr yaradır, iqtisadi potensialın tam istifadə olunmasını məhdudlaşdırır. Tədbir iştirakçılarına Ermənistanın bu ilin sentyabrın 27-dən Azərbaycana qarşı növbəti təxribatlara başlaması, günahsız mülki əhalini və mülki obyektləri artilleriya və raket sistemlərindən atəşə tutaraq törətdiyi terror və müharibə cinayətləri, Avropanın enerji təhlükəsizliyində önəmli rola malik boru kəmərlərini zədələmək cəhdləri barədə məlumat verilib.

Müzəffər Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, Cenevrə konvensiyalarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən xeyli uzaqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutmaqda davam edir. "Bildirməliyəm ki, Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün apardığı əməliyyatlar beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Azərbaycan bu gün hər hansı dövlətin deyil, öz ərazilərində əməliyyatlar keçirir və yalnız legitim hərbi obyektləri hədəf alır.

Bu xüsusda mən Türk Şurasına, cənab Amreyev, Sizə Azərbaycanın ədalətli mövqeyinə verdiyiniz davamlı dəstəyə görə dərin təşəkkürümü bildirir, üzv ölkələr tərəfindən göstərilən mənəvi dəstəyə görə dərin minnətdarlığımı ifadə edirəm. Türkiyə dövləti isə bu günlərdə Azərbaycana xüsusi dəstək ifadə edir, həm beynəlxalq platformalarda, həm siyasi və ikitərəfli münasibətlərdə çox ciddi dəstək verir. Fürsətdən istifadə edərək, türk birliyinə, bizim üçün həyati önəmli olan dövrdə qardaşlığımıza verilən yüksək dəyərə görə qardaş Türkiyəyə dərin təşəkkürümü bildirirəm" - deyə M.Cabbarov vurğulayıb.

Nazir qeyd edib ki, Türk Ticarət və Sənaye Palatasının üzvü olan Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir, Avrasiyanın mühüm və etibarlı nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu və 25 milyon ton yükaşırma qabiliyyətinə malik Bakı Beynəlxalq Dəniz Ticarət Limanı fəaliyyət göstərir. Dünya İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi "Qlobal Rəqabətlilik İndeksi"nə görə Azərbaycan dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 141 ölkə arasında 11-ci, hava nəqliyyatı xidmətləri üzrə 12-ci, dəniz limanı xidmətləri üzrə 25-ci, yol infrastrukturunun keyfiyyətinə görə isə 27-ci yerdədir.

İnvestisiyaların stimullaşdırılması məqsədilə dövlət tərəfindən logistik mərkəzlər və güzəştli şərtlərlə fəaliyyət imkanları yaradan sənaye zonaları yaradılıb. Azərbaycanda xarici investisiyalara yerli investisiyalarla bərabər hüquqlu rejim tətbiq olunur, investisiya fəaliyyətinə dövlət tərəfindən təminatlar verilir. Nazir bildirib ki, işğaldan azad olunan ərazilər üzrə Vahid Tədbirlər Planı hazırlanıb və bu sahədə Azərbaycan Türk Ticarət və Sənaye Palatasına üzv ölkələrlə əməkdaşlıq etməyə hazırdır.

Türk Şurasının Baş katibi Bağdad Amreyev bildirib ki, ötən müddətdə TCCI-yə üzv ölkələrin əməkdaşlığının genişləndirilməsi istiqamətində mühüm işlər görülüb. Özəl sektoru təmsil edən iş adamları arasında əlaqələrinin qurulması üçün üzv dövlətlərdə biznes-forumlar keçirilib və Ticarət Evlərinin açılması ilə bağlı uğurlar əldə olunub. Ölkələrimiz arasında qarşılıqlı investisiya yatırımının artırılması üçün Türk Şurasının da öz imkanlarından istifadə edəcəyini söyləyən B.Amreyev "türk iş dünyası Dağlıq Qarabağla bağlı haqq işində Azərbaycanın yanında olduğunu bəyan edib", - deyə vurğulayıb.

Azərbaycanın Xarici İşlər nazirinin müavini Ramiz Həsənov bildirib ki, Ermənistan döyüş bölgəsindən çox uzaqda yerləşən rayonların dinc əhalisinə qarşı kasetli bombalardan istifadə edib, bu isə müharibə cinayətləridir. Ermənistan Azərbaycan torpaqlarını işğalda saxladığı müddətdə sərvətlərimizi talan edib, dövlətə və mülki əhaliyə külli miqdarda ziyan vurub. "İşğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması üçün işlərə artıq başlanılıb və bu istiqamətdə gələcək fəaliyyətimizdə dost və qardaş türkdilli ölkələrin iştirakından məmnunluq duyarıq", - deyə R.Həsənov qeyd edib.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək, Prezident İlham Əliyev tərəfindən son illər Azərbaycanda genişmiqyaslı iqtisadi islahatların həyata keçirildiyini bildirib. Onun sözlərinə görə, bu islahatların əsas məqsədi ölkə iqtisadiyyatının şaxələnməsinin təmin olunması, yeni iş yerlərinin yaradılması, əhalinin rifah halının yaxşılaşdırılması, ölkəmizin iqtisadi və hərbi potensialının gücləndirilməsidir.

Qeyd edilib ki, Azərbaycan dövləti öz iqtisadiyyatının strukturunu təkmilləşdirir və investisiya mühitinin əlverişliliyinin artırılmasını təmin edir. Azərbaycanda koronavirusla mübarizədə adekvat addımlar atılıb. Pandemiyanın iqtisadiyyata təsirinin azaldılması ilə bağlı pandemiyadan zərər çəkmiş iqtisadi subyektlərə dövlət tərəfindən böyük dəstək verilir. M.Musayev Azərbaycanın valyuta ehtiyatlarının və makroiqtisadi sabitliyin qorunması üçün mövcud iqtisadi alətlərin ölkəmizin iqtisadi inkişafına dayanıqlı zəmin yaratdığını vurğulayıb. Bütün bunlar isə, Türk Ticarət və Sənaye Palatasına üzv dövlətlərin qarşılıqlı investisiyalar qoymasına münbit şərait yaradır.

M.Musayev bildirib ki, Türkdilli dövlətlər arasında ticarət və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yeni və güclü mexanizm olan Türk Ticarət və Sənaye Palatası ölkələrimiz arasında iqtisadi əlaqələrin və sərmayə yatırımları üçün etibarlı tərəfdaşlıq imkanlarının coğrafiyasının genişləndirilməsinə, eləcə də özəl sektorlar arasında ticarət dövriyyəsinin yüksəldilməsinə hesablanıb. Ötən bir il ərzində palatanın aparatının fəaliyyətinin qurulması, daxili müştərək palataların yaradılması, biznes-forumların, dialoq platformalarının coğrafiyasının artırılması istiqamətində mühüm addımlar atılıb və bu addımlar türkdilli dövlətlərin arasında ticarət dövriyyəsinin artmasına zəmin yaradır. "Biz çox istərdik ki, Türk Ticarət və Sənaye Palatasına üzv dövlətlər yeni investisiya imkanlarını bir daha dəyərləndirərək, Azərbaycanda birgə fəaliyyətə qoşulsunlar. Biz qardaşlarımızın burada fəaliyyət göstərməsindən çox məmnun olardıq", - deyə ASK prezidenti qeyd edib.

Tədbirin sonunda "Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü" mövzusunda keçirilən Türk Ticarət və Sənaye Palatasının növbədənkənar iclasının Bəyanatı qəbul olunub.

Tədbir Türk Ticarət və Sənaye Palatasının adından Azərbaycanın cəbhə bölgəsində yaşayan, Ermənistanın hərbi-təcavüzü nəticəsində zərərçəkən mülki əhali üçün humanitar yardımın yola salınması ilə başa çatıb.

***"Azərbaycan"***



# Türk Ticarət və Sənaye Palatasının BƏYANATI

Türk Ticarət və Sənaye Palatasının (TTSP) "Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü" mövzusunda keçirilən növbədənkənar iclasının iştirakçıları Azərbaycanın sosial-iqtisadi tərəqqisini və qazandığı uğurları yüksək qiymətləndirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanda sahibkarlığın inkişafı üzrə strateji xəttinə uyğun olaraq, ölkədə biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyi tədbirləri, investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi ilə Azərbaycanda çoxminli sahibkarlar sinfinin formalaşmasına, rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisələrin yaradılmasına, nəticədə ölkə məhsullarının xarici bazarlara ixracının artmasına yaradılan əlverişli şəraiti alqışlayır.

Palata Azərbaycanın sosial-iqtisadi inkişafında, iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsi, sahibkarların qanuni mənafelərinin qorunması və işgüzar fəaliyyətinin gücləndirilməsi istiqamətində dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna xidmətlərinə və gördüyü işlərə böyük dəyər verir.

Ortaq milli-mənəvi dəyərlərdən qaynaqlanan türkdilli dövlətlərin birliyi və strateji müttəfiqliyi hazırda birgə səylərimizlə inkişaf etməkdədir. Dünyada bənzəri olmayan bu dostluq və qardaşlıq münasibətləri regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət edən, siyasi və iqtisadi proseslərə istiqamət verən mühüm amilə çevrilmişdir.

Türkdilli dövlətlərin Azərbaycanın haqq işinə verdiyi dəstək həmrəyliyimizin daha bir nümunəsidir və xalqlarımız üçün olduqca dəyərlidir.

Türk Ticarət və Sənaye Palatasının üzvləri və türkdilli dövlətlərin işgüzar dairələri son dövrlərdə Azərbaycanda baş verən hadisələri diqqətlə izləyirlər.

Palata üzvləri olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində həll olunmasının vacibliyini bir daha vurğulayırıq.

Tədbir iştirakçıları Azərbaycanın münaqişə zonasından çox uzaqda yerləşən yaşayış məntəqələrinin erməni silahlı birləşmələri tərəfindən qadağan olunmuş silahlardan mütəmadi olaraq atəşə tutulmasını, dinc əhali arasında ağır itkilərə səbəb olan halların qətiyyən yolverilməz olduğunu bildirərək qəti etirazlarını ifadə edirlər. Dünya ictimaiyyəti Ermənistan tərəfindən beynəlxalq hüququn pozulması nəticəsində məqsədyönlü şəkildə mülki şəxslərin qətlə yetirilməsinin qarşısının alınması üçün zəruri addımlar atmalı və bu ölkənin silahlı birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməlidir.

Türk Ticarət və Sənaye Palatasının üzvləri işğaldan azad olunmuş ərazilərin zəngin yeraltı sərvətlərə malik olmasını, kənd təsərrüfatının və turizmin inkişafı üçün yüksək potensialını, habelə iqtisadiyyatın digər sahələrinin inkişafı üçün əlverişli şəraitin olduğunu nəzərə alaraq, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün bütün imkanlarını səfərbər edərək həmin ərazilərdə həyata keçiriləcək genişmiqyaslı tədbirlərdə *(infrastrukturun qurulması, tikinti, abadlıq-quruculuq işlərinin aparılması, sahibkarlığın inkişafına dəstək göstərilməsi, yeni layihələrin həyata keçirilməsi və s.)* yaxından iştirak etməyə hazır olduqlarını bildirirlər.

Biz - "Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü" mövzusunda keçirilən iclas iştirakçıları, habelə cəmiyyətin fəal hissəsini təşkil edən türkdilli dövlərlərin sahibkarları, həmrəylik nümayiş etdirərək Azərbaycanın qəbul etdiyi bütün qərarları dəstəkləyir, birlikdə yeni iqtisadi uğurlara nail olacağımıza inanır və ölkələrimizin iqtisadi potensialının daha da gücləndirilməsi, rəqabətədavamlı istehsalın genişləndirilməsi, əhalinin rifah halının daha da yaxşılaşdırılması, dünya miqyasında nüfuzumuzun artması üçün bütün gücümüzü səfərbər edəcəyimizi **bəyan edirik.**

Bəyanat Türk Ticarət və Sənaye Palatasının "Azərbaycanın sosial və iqtisadi inkişafının yeni dövrü" mövzusunda keçirilən növbədənkənar iclasının iştirakçıları tərəfindən qəbul edilib.

***Bakı şəhəri, 02 noyabr 2020-ci il***

# AHİK-də Türkiyənin aparıcı ictimai təşkilatlarının rəhbərləri ilə görüş keçirilib

Noyabrın 2-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) qurumun sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevin Türkiyənin aparıcı ictimai təşkilatlarının rəhbərləri ilə görüşü keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə İşçi Həmkarlar İttifaqları Təşkilatları Konfederasiyası (TÜRK-İŞ), İşçilərin Həmkarlar İttifaqları Təşkilatları Konfederasiyası (HAK-İŞ), İşəgötürənlər Həmkarlar İttifaqları Təşkilatları Konfeederasiyası (TİSK), İctimai İşçilərin Həmkarlar İttifaqları Təşkilatları Konfederasiyası (T. KAMU-SEN), Dövlət Qulluqçuları Həmkarlar İttifaqları Təşkilatları Konfederasiyasının (MEMUR-SEN) rəhbərləri iştirak ediblər.

S.Möhbalıyev bildirib ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin bütün cəbhəboyu hücuma keçməsi ilə əlaqədar Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatına başlayıb. Ermənistan silahlı qüvvələrindən fərqli olaraq Azərbaycan Ordusu yalnız qarşı tərəfin atəş nöqtələrini susdurmaqdadır. Nəticədə işğal olunmuş ərazilərimizin bir hissəsi, o cümlədən 4 şəhər, 3 qəsəbə, 200-ə yaxın kənd işğalçılardan azad edilib, strateji əhəmiyyət kəsb edən bir sıra yüksəkliklər ordumuzun nəzarətinə keçib. AHİK sədri Azərbaycanın haqq savaşına tərəddüdsüz dəstəyə görə bütün Türkiyə xalqına minnətdarlıq edib, qardaşlığımızın dönməz və əbədi olduğunu bildirib.

S.Möhbalıyev qeyd edib ki, Ermənistan atəşkəsi pozaraq Azərbaycanın dinc əhalisinə qarşı qadağan olunmuş silahlar istifadə edirlər. Erməni faşistlərinin həyata keçirdikləri bu cinayət əməlləri nəticəsində yalnız dinc əhali zərər çəkir.

Bu gün Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi güclü Azərbaycan var. Bununla yanaşı, ermənilər bu gün davam edən əməliyyatlara üçüncü tərəfi də cəlb etmək məqsədini güdürlər. Lakin onlar unudurlar ki, bu gün Azərbaycanın yanında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün Türkiyə dayanıb. Təbii ki, Ermənistan hansı məqsədləri güdməsindən asılı olmayaraq onların silahlı qüvvələri Azərbaycan Ordusu qarşısında diz çöküb. Ermənistan Azərbaycana qarşı törətdikləri bütün əməllərə cavab verməli olacaq. İnanırıq ki, yaxın vaxtlarda müzəffər Ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şuşa və Xankəndi də daxil olmaqla, keçmiş Dağlıq Qarabağ vilayətinin bütün yaşayış məntəqələrində Azərbaycan bayrağını dalğalandıracaq.

Daha sonra çıxış edən qonaqlar bildiriblər ki, dünya ictimaiyyətinə də məlumdur ki, ermənilərin atdıqları bütün addımlar məqsədli xarakter daşıyır. Onların özləri də bilirlər ki, mülki əhaliyə qarşı ballistik raketlərdən, kasetli bombalardan, qadağan olunmuş silahlardan istifadə cinayətdir. Ermənilərin insanlığa qarşı cinayət və humanitar hüququn pozulması ilə bağlı Ermənistan hökumətini idarə edən və bu qərarları verən şəxslərin məsuliyyətə cəlb edilməsi təmin edilməlidir. Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu deyən qonaqlar bu haqq savaşında daim qardaş ölkəni dəstəkləyəcəyini qeyd ediblər.

# Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası cəbhə bölgəsinə humanitar yardım göndərib



Noyabrın 2-də Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasının adından cəbhə bölgəsinə humanitar yardım göndərilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Özbəkistan, Qırğızıstan, Türkiyə, həmçinin Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının nümayəndələri və Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva iştirak ediblər.

Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasının adından Azərbaycanın cəbhə bölgəsində yaşayan, Ermənistanın hərbi təcavüzü nəticəsində zərərçəkən mülki əhali üçün humanitar yardım göndərilib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Q.Paşayeva və Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasının sədri Rıfat Hisarcıklıoğlu türkdilli dövlətlərin dəstəyini yüksək qiymətləndirib, göstərilən yardıma görə təşəkkür ediblər.

# Müdafiə Nazirliyi xəbər verir

## Anar EYVAZOV: "Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir"

Noyabrın 1-də döyüş əməliyyatları cəbhənin əsasən Ağdam, Xocavənd, Qubadlı və Zəngilan istiqamətlərində davam edib. Düşmən bölmələri Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Qazax, Tovuz və Daşkəsəndə, o cümlədən cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndləri daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, raket və artilleriya vasitələrindən atəşə tutub.



AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 2-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.



Mətbuat katibi bildirib ki, Zəngilan istiqamətində əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə hücum edən Ermənistanın hərbi qruplaşmaları bölmələrimiz tərəfindən vaxtında aşkarlanıb. Keçirilmiş uğurlu əməliyyatla düşmən itki verərək geri çəkilməyə məcbur edilib. Cəbhənin digər istiqamətlərində də ordumuzun fəaliyyəti nəticəsində düşmən şəxsi heyət və hərbi texnika baxımından itki verib. Səngərlərdə və yeraltı sığınacaqlarda gizlənən düşmənin canlı qüvvəsi Hərbi Hava Qüvvələrimizin zərbələri ilə məhv edilib. Hərbi sığınacaqlar darmadağın olunub.



Anar Eyvazov qeyd edib ki, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 8 kəndi işğaldan azad edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi ilə yanaşı, 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını, 5 ədəd digər avtomobil texnikası və mövqelərimizə hücum edən "Su-25" tipli döyüş təyyarəsi məhv edilib. Hazırda ordumuza qarşı döyüşən hərbi qruplaşmalarda silah-sursat, ərzaq və hərbi texnika üçün ehtiyat hissələri çatışmazlığı müşahidə olunur.

"Ordumuzun sayıqlığı nəticəsində düşmən bölmələrinin istənilən fəaliyyətinin qarşısı dərhal alınır. Ordumuz havada və quruda əməliyyat şəraitinə tam nəzarət edir. Bu gün Azərbaycan əsgəri Ali Baş Komandanımızın rəhbərliyi ilə döyüş meydanında düşməni ağır məğlubiyyətə uğradaraq Ermənistan rəhbərliyinin uzun müddətdir yaratdığı mifi yox edir. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

* * *

Dünən Ermənistan müdafiə nazirliyinin rəsmilərinin cəbhənin müxtəlif istiqamətlərində gedən gərgin döyüşlər zamanı, guya, bəzi sahələrdə öz mövqelərini irəli çəkməsi, hətta Azərbaycan Ordusunun bir qrup hərbçisinin "məhv" edilməsi barədə yaydıqları xəbər tamamilə yalandır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, buna bənzər məlumatlar erməni hərbçiləri arasında hökm sürən qorxu, təşviş və ruh düşkünlüyünü, ümumilikdə isə xaos və özbaşınalığı, qismən də olsa aradan qaldırılmasına yönəlib.

* * *

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın növbəti döyüş təyyarəsinin "vurulması" barədə xəbər dezinformasiyadır. Nə qədər gülməli səslənsə də, Ermənistan tərəfinin məlumatlarına inanaraq döyüş əməliyyatları başlayan gündən indiyədək "vurulan" təyyarələrin sayını hesablasaq artıq Azərbaycan HHQ-nin aviabazalarında bir dənə də olsun uçuş aparatı qalmamalı idi.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan HHQ-nin bütün döyüş aviasiya vasitələri bu gün heç bir uçuş həyata keçirməyib, tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

* * *

Ermənistan mətbuatı dünən işğal altında olan yaşayış məntəqələrimizin, guya, Azərbaycan Ordusu tərəfindən müxtəlif silahlardan atəşə tutulması ilə bağlı bir neçə dəfə həqiqətə uyğun olmayan məlumatlar yayıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

"Bir daha rəsmi olaraq bildiririk ki, Azərbaycan Ordusu mülki əhaliyə və qeyri-hərbi infrastruktura atəş açmır", - deyə nazirliyin məlumatında qeyd edilib.

# Böyük Britaniyanın Azərbaycandakı səfiri Baş Prokurorluqda olub



Noyabrın 2-də Baş prokuror Kamran Əliyev Böyük Britaniyanın ölkəmizdəki səfiri Ceyms Şarp ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş prokuror Kamran Əliyev ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, bu əlaqələrin gündən-günə daha da inkişaf etdiyini qeyd edib.

Baş prokuror sentyabrın 27-dən başlayaraq Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə cinayətlərin törədildiyini bildirib və xüsusilə vurğulayıb ki, ümumilikdə mülki əhalidən 91 nəfər həlak olub. Onlardan 27-si qadın, 11-i uşaq olub. Həmçinin 102-si qadın, 50-si uşaq olmaqla 404 nəfər yaralanıb. Ümumilikdə, 2488 evə, 97 çoxmərtəbəli binaya və 461 mülki infrastruktur obyektinə külli miqdarda ziyan dəyib.

Kamran Əliyev Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin tərkibində digər ölkələrdən cəlb edilmiş muzdlu şəxslərin döyüş əməliyyatlarında iştirak etmələri, həmçinin xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsində başlanmış cinayət işləri barədə səfirə məlumat verib.

Baş prokuror səfir Ceyms Şarpa Baş Prokurorluq tərəfindən təşkil edilmiş mətbuat konfransları və brifinqlərdə iştirak etməsinə, habelə Birləşmiş Krallıq tərəfindən Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə zərər çəkmiş mülki şəxslərimizə göstərdikləri maliyyə dəstəyinə görə də təşəkkürünü bildirib.

Görüşə görə təşəkkürünü bildirən səfir ikitərəfli münasibətlərə toxunaraq Böyük Britaniyanın Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini deyib.

Səfir ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüquq normalarına əsasən həllinin vacibliyini diqqətə çatdırıb.

Münaqişə zamanı mülki şəxslərin, xüsusən də münaqişə zonasından kənarda yaşayan dinc əhalinin həlak olmasına görə məyus olduğunu bildirərək, ölkəsi tərəfindən belə halların daim qətiyyətlə pislənildiyini qeyd edib.

Daha sonra hər iki ölkənin prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə əməkdaşlıq, hüquqi yardım, ekstradisiya və sair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Ermənistanın müharibə cinayətləri: Məcburi köçkün qəsəbələri hədəfə alınır

Ermənistan silahlı bölmələri cəbhəyanı yaşayış məntəqələrində dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, sosial təyinatlı binaları hədəfə almaqda davam edir.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, düşmən rayonun cəbhəyanı kəndləri ilə yanaşı, məcburi köçkünlər üçün salınmış qəsəbələri də artilleriya atəşinə tutur. Erməni hərbçilərinin genişmiqyaslı təxribatları nəticəsində təkcə Təzəkənd qəsəbəsində sentyabrın 27-dən indiyədək 4 ev, 1 uşaq bağçası dağılıb, 50-yə yaxın evə ziyan dəyib.

Təzəkənd qəsəbəsində erməni vəhşiliyinin izlərini fotolarda təqdim edirik.









# Azərbaycan Respublikası Baş Prokurorluğunun məlumatı

Xəbər verildiyi kimi, Azərbaycanın işğal olunmuş Laçın, Kəlbəcər və digər rayonlarının ərazilərində xarici dövlətlərin erməni əsilli vətəndaşları olan şəxslərin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsində 21.10.2015 və 30.03.2018-ci il tarixlərdə Cinayət Məcəlləsinin 192.2.3 (qanunsuz sahibkarlıq) və 318.2-ci maddələri ilə (dövlət sərhədini qanunsuz keçmə) cinayət işləri başlanıb. Həmin cinayət işlərindən biri - işğal olunmuş, lakin Milli Ordumuzun uğurlu əməliyyatları nəticəsində son günlərdə işğaldan azad edilən Zəngilan rayonunun Vejnəli kəndi ilə bağlı olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, istintaq zamanı Baş Prokurorluğun İstintaq İdarəsinin qərarı əsasında Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən müəyyənləşdirilib ki, Zəngilan rayonunun Vejnəli kəndində əlvan metal yataqlarından qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq gəlir əldə edən İsveçrə Konfederasiyasında rəsmi qeydiyyatdan keçmiş "Vallex Group" şirkətlər qrupunun filialı olan "Base Metals" Qapalı Səhmdar Cəmiyyəti 2009-2017-ci illər ərzində cəmi 301 milyon 918 min manat məbləğində qanunsuz gəlir əldə edib.

Qeyd edilən cinayət faktları ilə əlaqədar "Vallex Group" şirkətlər qrupunun maliyyə investoru, İsveçrə Konfederasiyasının vətəndaşı Vartan Sirmakes və rəhbəri Valeriy Mejlumyan, habelə həmin şirkətlər qrupuna daxil olan "Base Metals" QSC-nin icraçı direktoru Artur Mkrtumyan Cinayət Məcəlləsinin qeyd olunan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, məhkəmənin müvafiq qərarları ilə qiyabi həbs seçilməklə istintaq orqanı tərəfindən barələrində beynəlxalq axtarış elan edilib.

Həmin cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən Azərbaycan dövlətinə və vətəndaşlarına dəymiş ziyanın məbləğinin dəqiqləşdirilməsi və digər istintaq üçün əhəmiyyət kəsb edən halların müəyyənləşdirilməsi məqsədilə 30.10.2020-ci il tarixdə işğaldan azad olunmuş Vejnəli kəndində yerləşən, uzun illər ərzində istismara məruz qalan qızıl yataqlarının yerləşdiyi əraziyə, hadisə yerinə baxış da daxil olmaqla, digər zəruri istintaq hərəkətləri həyata keçirilir.

Həmçinin cinayət işi üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri istintaq hərəkətlərinin icrası məqsədilə İsveçrə Konfederasiyasının səlahiyyətli dövlət orqanlarına beynəlxalq hüquqi yardımın göstərilməsi haqqında vəsatətlə müraciət olunub.

Azərbaycan Respublikası Baş Prokurorluğu bəyan edir ki, Ermənistan tərəfindən Azərbaycanın zəbt olunmuş və artıq işğaldan azad edilmiş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərin milli və beynəlxalq qanunvericilik əsasında məsuliyyətə cəlb olunmaqla sanksiyaların tətbiq edilməsi məqsədilə beynəlxalq hüquq normaları çərçivəsində bütün mümkün tədbirlərin görülməsi təmin ediləcək.

# Azərbaycan QHT-ləri: Erməni lobbisinin azad sözə, ifadə azadlığına qarşı açıq müharibə elan etməsi bizdə böyük narahatlıq yaradıb

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları erməni lobbisinin Ermənistanın Azərbaycana hərbi təcavüzünü obyektiv işıqlandıran beynəlxalq media qurumlarına və jurnalistlərə təzyiq göstərməsi ilə bağlı Beynəlxalq Söz Azadlığı Mübadiləsi Şəbəkəsinə, Beynəlxalq Mətbuat İnstitutuna, Jurnalistləri Müdafiə Komitəsinə, Sərhədsiz Reportyorlar Təşkilatına, Beynəlxalq Jurnalistlər Federasiyasına, Avropa Jurnalistlər Federasiyasına, Beynəlxalq Xəbər Təhlükəsizliyi İnstitutuna, Beynəlxalq Media Dəstəyi Təşkilatına və "Article 19" Təşkilatına müraciət ünvanlayıblar.

AZƏRTAC-ın məlumatına görə, müraciətdə deyilir ki, 27 sentyabr-31 oktyabr 2020-ci il tarixlərində Azərbaycanın döyüş zonasından uzaqda yerləşən şəhər və rayonlarına Ermənistanın etdiyi ballistik və qadağan olunmuş kasetli raket hücumları nəticəsində 91 mülki vətəndaş öldürülüb, 404 şəxs isə yaralanıb. Ermənistanın törətdiyi belə hərbi cinayətləri dünya mətbuatı geniş işıqlandırılıb.

Lakin erməni diasporu Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətləri işıqlandıran, obyektiv məlumat yayan, hətta neytral mövqe nümayiş etdirən, Ermənistanın və erməni diasporunun maraqlarına cavab verməyən media orqanlarını, jurnalistləri, ictimai fəalları hədəfə götürür, onlara ciddi təzyiqlər göstərirlər. Erməni lobbisi azad sözü basqı altında saxlamağa çalışaraq münaqişə ilə bağlı obyektiv və neytral mövqe göstərən jurnalistləri ölümlə hədələyir, təhdid və təhqir edir.

Belə nümunələrdən biri Fransanın TF1 kanalının əməkdaşı xanım Liseron Budulun hazırladığı reportajla bağlıdır. Belə ki, xanım Budul Azərbaycana səfər edərək Gəncə, Bərdə, Tərtər və digər yaşayış məntəqələrində Ermənistanın mülki əhalimizi artilleriya və raket atəşinə tutmasının şahidi olmuş və bu haqda obyektiv reportaj hazırlamışdır.

Reportaj yayımlandıqdan sonra Fransadakı erməni lobbisinin üzvləri xanım Liseron Budula və TF1 kanalına qarşı total hücum və təzyiqlər etmiş və jurnalisti ölümlə hədələmişlər. Nəticədə TF1 həmin reportajın yayımını dayandırmaq və onu sistemdən silmək məcburiyyətində qalmışdır.

"New York Times" qəzetinin İstanbuldakı müxbiri Karlotta Qallın də ermənilərin eyni şəkildə mənəvi və siyasi terroruna məruz qalmışdır. Belə ki, qəzetin redaksiyası və jurnalist Ermənistanın Azərbaycanın dinc əhalisini ballistik raketlə qətlə yetirməsini işıqlandırdığına görə ermənilərin ciddi təzyiqi və təhdidi ilə üzləşmişdir.

Fransanın "Şarl Ebdo" jurnalında dünyanın üç səmavi dinindən birinin peyğəmbərinin karikaturasına söz azadlığı kimi yanaşılması siyasəti fonunda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı balanslı reportaja erməni lobbisinin açıq təhdidlərinin artması və buna adekvat reaksiyanın verilməməsi bizdə dərin təəssüf və təəccüb hissi doğurur.

Erməni lobbisinin azad sözə, ifadə azadlığına, jurnalistikanın obyektivlik, tərəfsizlik və qərəzsizlik prinsiplərinə qarşı açıq müharibə elan etməsi bizdə böyük narahatlıq yaradıb.

"Hesab edirik ki, erməni lobbisinin bütün dünyada müstəqil medianı susdurmaq cəhdləri, ilk növbədə, beynəlxalq media institutları kimi sizi narahat etməli və bu qanunsuzluğa açıq etirazınızı bildirməlisiniz.

Azərbaycanın jurnalist və media hüquqlarının qorunması istiqamətində fəaliyyət göstərən QHT-lər olaraq sizdən baş verən bu kimi hadisələrə etiraz etməyə və erməni lobbisinin azad sözü susdurmaq cəhdinin qarşısını almağa çağırırıq", - deyə müraciətdə qeyd edilir.

# Livan erməniləri kütləvi şəkildə muzdlular qismində döyüşlərə cəlb olunur


Despite Lebanon's woes, Armenians spring to action for Nagorno-Karabakh

BEIRUT (Reuters) - When Lebanon's financial crisis pushed Vartkes to leave for Armenia this summer, he never imagined he would volunteer to fight in Nagorno-Karabakh.

Livan erməniləri kütləvi şəkildə muzdlular qismində Azərbaycana qarşı döyüşlərə cəlb olunur.

AZƏRTAC xəbər verir ki, bu barədə məlumat "Reuters" Agentliyinin yaydığı məqalədə yer alıb.

Məqalədə deyilir ki, Livandakı maliyyə böhranı Vartkes adlı ermənini bu yay Ermənistana getməyə məcbur edəndə o, heç Dağlıq Qarabağda döyüşəcəyini ağlına gətirmirdi.

Ermənistan müdafiə nazirliyinin rəsmisi diaspordan bir çoxunun (dəqiq rəqəm göstərmədən) döyüşlərə getmək üçün müraciət etdiyini söyləyib. Yerli təlimatçı deyib ki, Argentina və ABŞ kimi uzaq ölkələrdən yüzlərlə erməni döyüş təlimi keçmək üçün Ermənistana gəlib.

Dünyanın ən böyük erməni icmalarından biri - təxminən 140 min erməni mənşəli toplum Livanda hökm sürən maliyyə böhranına baxmayaraq, pul toplayıb Ermənistana yardım göndərib.

Yerevanda yerli və xarici könüllülərin təlimi ilə məşğul olan Karapet Agacanyan "Reuters" Agentliyinə onun düşərgəsində təxminən 10 Livan ermənisinin təlim keçdiyini söyləyib. Onun sözlərinə görə, sentyabrın sonunda döyüşlər başlayanda onlar cəbhə bölgəsinə getmək üçün Beyrutdan gəliblər. Çoxsaylı erməni əsilli livanlılar döyüşlərdən hələ bir neçə ay əvvəl Beyrutdan İrəvana gedirdilər. Livandakı iqtisadi böhran və bunun ardınca avqust ayında Beyrut limanında təxminən 200 insanın ölümü ilə nəticələnən partlayış miqrasiyanı gücləndirdi.

Erməni İnqilab Federasiyası partiyasının rəhbəri, livanlı deputat Hagop Pakradounyan Livandan könüllüləri qeydiyyata alan və göndərən hər hansı bir təşkilatın olmadığını söyləyib. O deyib ki, qeydiyyatdan keçmək üçün Beyrutdan təxminən 20 nəfər gəlib. Kiminsə döyüşdə iştirak etmək üçün çağırılıb-çağırılmadığı aydın deyildi.

Qeyd edək ki, Livanın Ancar şəhərindən gələrək müharibədə iştirak edən muzdlulardan biri - opera müğənnisi Kevork Xacyanan döyüşdə məhv edilib. Məqalədə bu barədə də məlumat verilib.

# Baş Prokurorluq: Ermənistanın silahlı qüvvələri yeni metodlardan istifadə edib dinc sakinlərimizə qarşı cinayət əməllərini davam etdirir

Ermənistanın silahlı qüvvələri Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində geri çəkildikcə əraziləri minalayaraq növbəti təxribat əməllərinə yol verməklə, artıq yeni metodlardan istifadə edib dinc sakinlərimizə qarşı cinayət əməllərini davam etdirir. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 2-də partlamamış silah-sursatın axtarışı ilə bağlı Cəbrayıl rayonunun Mehdili kəndinə ezam olunmuş Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əməkdaşı Zeynalov Telman Bəbir oğlu minaya düşməsi nəticəsində "sol ayağın topuqdan aşağı ətrafının travmatik amputasiyası" xəsarəti alıb.

Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə cinayət işi başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən intensiv istintaq hərəkətləri həyata keçirilir.

# Baş Prokurorluq Ermənistan silahlı qüvvələrinin Bərdədə törətdiyi cinayət əməlləri barədə maarifləndirici videoçarxlar hazırlayıb

İşğalçı Ermənistan Respublikasının silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Azərbaycanın qədim tarix və mədəniyyət mərkəzlərindən biri olan Bərdədə 27 nəfər həlak olub, 105 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ermənistan Azərbaycanın tarixi-mədəni irs mərkəzlərindən biri olan qədim Bərdə şəhərinə raket zərbələri endirməklə bir daha özünün təcavüzkar və işğalçı mahiyyətini nümayiş etdirib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidməti tərəfindən Ermənistan Respublikasının silahlı qüvvələrinin Bərdədə törətdiyi cinayət əməlləri barədə dünya ictimaiyyətinin məlumatlandırılması məqsədilə fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində növbəti dəfə maarifləndirici videoçarxlar hazırlanıb.

Ermənistanın işğalçı və təcavüzkar mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən bütün beynəlxalq qurumlara müraciət edilməsi təmin ediləcək.

# Qalib məhz Azərbaycan olacaq

*Əvvəli 1-ci səh.*

Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət. Ümumiyyətlə, müharibənin necə aparılması barədə anlayışları yoxdur".

Müharibə hər nə qədər tərəflərin bir-birinə qarşı silahlı güc tətbiqi olsa da, onun öz qayda-qanunları var. Hərbi əməliyyatlar vəhşilik həddinə gətirilməməlidir. Cenevrə Konvensiyasına görə, hərbi münaqişələr zamanı xüsusilə dinc əhali arasında itkilərə səbəb olacaq və mülki obyektlərə zərər vura biləcək hücumlar qadağandır. Ermənistanın günlərdir mülki insanlarımızı hədəfə alması, hətta körpə uşaqları, məktəbliləri qətlə yetirməsi göstərir ki, törədilmiş soyqırımı vəhşilikləri bu gün də Ermənistan silahlı qüvvələrinin döyüş hazırlığına daxil edilmiş taktikasıdır. Bunun özü müvafiq beynəlxalq hüquq normalarına əsasən, Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzü və güc tətbiqi aktıdır. Nədənsə erməni tərəfi üçün bu qaydalar yoxdur. Onların aqressiv davranışı, beynəlxalq hüququ, Cenevrə konvensiyalarını kobud şəkildə pozması və hərbi cinayətlər törətməsi işğalçıların müharibənin nizamlanması ilə bağlı konkret fikirlərinin olmamasından xəbər verir. Dinc şəhərlərə kasetli raketlərlə və döyüş sursatları ilə hücumlar hərbi cinayətdir. Budur, erməni faşizminin siması, onun yırtıcı mahiyyəti. Heç şübhə etmirik, bu vəhşiliklərə göz yuman, Ermənistanın bəşəri cinayətlərini dəstəkləyən başqa hər kəs də əli azərbaycanlı körpələrin qanına batmış müttəhimlərlə tarixin haqq-hesab anında yanaşı olacaq. Çünki Ermənistan kimi beynəlxalq cinayətkara hər hansısa şəkildə dəstək vermək regionda sülhə, sabitliyə qarşı çıxmaqdır. İnkişafın qarşısını almaqdır, insan faciələrinə, təcavüzkar qonşumuzun quldur əməllərinə şərik olmaqdır.

XXI əsrdə Yer üzündə bütün humanitar dəyərlərdən uzaq belə bir dövlətin olması, erməni xalqının faşizm ideologiyasının əsirinə çevrilməsi, əslində, bəşəriyyət adına böyük bir utancdır. İkinci Dünya müharibəsində faşizmə qalib gəlmiş ölkələrin çoxunda hər il bu qələbənin ildönümü qeyd edilir. Bəşəriyyət faşizm kabusundan qurtulduğunu düşünərkən, Ermənistanın apardığı siyasət bu dəhşətli hərbi cinayətin bəzi ölkələrdə hələ də bitmədiyini göstərir. Uydurulmuş saxta miflər, yalan tarix, özünü başqa xalqlardan üstün tutmaq hissi Ermənistan cəmiyyətini, dövlətini dünyamız üçün təhdidə çevirir. Əfsuslar olsun ki, eyni coğrafiyada yaşayan xalq, qonşu ölkənin vətəndaşları olaraq bu təhdiddən ən çox əziyyət çəkənlər də məhz biz, azərbaycanlılarıq.

## Mədəni abidələrin qəsdən dağıdılması cinayətdir

Ordumuz işğal altındakı yaşayış məntəqələrimizi düşməndən təmizlədikcə o torpaqlardan çəkilişlərə baxanda sivilizasiyadan, dəyərlərdən nə qədər uzaq bir ölkə və cəmiyyətlə qonşuluqda yaşadığımızı bir daha hiss edir və təəssüflənirik. Birinci Qarabağ savaşı zamanı məcburi köçkünlərimizin didərgin düşdükləri abad kənd, qəsəbə və şəhərlərdən, qurulu evlərdən indi əsər-əlamət qalmayıb. İşğaldan azad edilən böyük şəhərlərimiz hazırda sadəcə boş torpaqlardan, vəhşicəsinə dağıdılmış infrastrukturun qalıqlarından, illərlə talan edilmiş təbiətdən ibarətdir. Ermənilərin işğal edilmiş ərazilərimizdə törətdikləri vandalizm aktlarının miqyası insanı heyrətə gətirir. Onlar bu ərazilərdə mövcud olan evlərdən, mülklərdən, sosial obyektlərdən sökülüb-dağıdılması mümkün olan hər şeyi daşıyıb aparıblar.

Bu gün Ermənistanın həyata keçirdiyi etnik və mədəni təmizləmə müharibə cinayətləridir, insanlıq əleyhinə atılan ən qəddar addımlardır. Düşmən tərəfi həmçinin bizim mədəni irsimizə təcavüz edir. Beynəlxalq humanitar hüququn normalarında mədəni irsin qorunmasına dair müddəalar var. Ermənistan bu müddəaları da pozur. Və biz hazırda mədəni irsə qəsdin şahidi oluruq. Qəbiristanlıqlar, qəbirüstü abidələr atəşə tutulur, dağıdılır. Şuşadakı məscidin viran qoyulması, müqəddəs məbədlərdə mal-qaranın saxlanması, işğal olunan ərazilərdə arxeoloji, dini abidələrin məhv edilməsi mədəni irsə təcavüzdür. Gəncə şəhərindəki məbəd də Ermənistan tərəfindən dağıntıya məruz qalıb. Bir sözlə, işğalçı dövlətin Azərbaycan xalqına qarşı həyata keçirilən mədəni soyqırımı ölkəmizin mədəni irsinə, ümumiyyətlə, dünya mədəniyyəti abidələrinə qarşı edilən hücumlardır. Ermənistan "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il tarixli Konvensiyanı və ona əlavə edilmiş Protokolu, digər müvafiq sənədləri kobud şəkildə pozur. Bu, vandalizm hərəkətləridir. Münaqişə başlayandan indiyə kimi Azərbaycan UNESKO-nun mədəni abidələrinin qorunması müddəalarına əməl edir. Ölkəmiz tərəfindən heç bir abidə dağıdılmayıb. Əksinə, onların qorunması üçün əlimizdən gələni əsirgəmirik.

Hazırda Azərbaycan Silahlı Qüvvələri sülhməramlı niyyətini həyata keçirir, təhlükəsiz yaşam tərzinin bərqərar olunmasını istəyir. Ermənistan isə təcavüzünü davam etdirir.

Əlbəttə, Azərbaycan dövləti o yaşayış məntəqələrini əvvəlkindən də gözəl şəkildə tikəcək. Dağıdılmış infrastruktur sistemi təxminən 30 il əvvəlkindən də müasir və sistemli şəkildə qurulacaq. İşğaldan azad edilmiş məskənlərimizdə həyat yenidən bərpa olunacaq, məcburi köçkünlərimiz tarixi yurd yerlərinə qayıdacaqlar. Orada onların layiqli həyat səviyyəsi təmin ediləcək. Bütün bunlar Azərbaycan dövlətinin imkanları daxilində öz həllini tapacaq məsələlərdir. Təəssüflər olsun ki, erməni xəstəliyinə bir həll görünmür. İşğalçı dövləti idarə edənlərin, öz idarəçilərinə bu vəzifələrdə etimad göstərən cəmiyyət üzvlərinin saxta miflər yaradıb onun əsirliyində qalmaq mərəzindən sağalacaqlarına ciddi bir ümid yoxdur.

## Multikultural dəyərlərə ən çox önəm verən ölkə

Azərbaycan bütün dünyada multikultural dəyərlərə ən çox önəm verən, zəngin tolerantlıq ənənələrinə malik ölkələrdəndir. Müxtəlif xalqların nümayəndələri əsrlərdir ki, bu ölkədə mehriban qonşuluq şəraitində yaşayır, fərqli özünəməxsusluqlardan qidalanan zəngin ortaq mədəniyyət formalaşdırır. Azərbaycanda hər kəsin etnik mənsubiyyətinə, inancına, ünsiyyət qurduğu dilə dövlət səviyyəsində də, cəmiyyət ortamında da böyük sayğı var. Əhalinin böyük əksəriyyətinin inancını təşkil edən İslam dini ilə yanaşı, burada mövcud olan digər dini icmalar da dövlətin himayəsi altındadır. Azərbaycan məscidlə kilsənin, sinaqoqun bir-birinin qonşuluğunda yerləşdiyi, heç kimin etiqad azadlığının, milli mənsubiyyətinin sorğulanmadığı, istədiyi dildə rahatlıqla ünsiyyət qura bildiyi, öz dilində təhsil almaq imkanına malik olduğu gözəl ölkələrdən biridir. Ona görə də burada hər kəs özünü rahat hiss edir. Azərbaycanda doğulan, yaşayan insanlar buranı özünə doğma Vətən bilir və Vətəninin təəssübünü çəkir. Azərbaycan həm də multikultural dəyərlərin bütün dünyada yayılmasına çalışan, son onilliklərdə təşəbbüskarı olduğu qlobal layihələrlə, ölkəmizdə keçirilən forumlarla bu istiqamətdə ciddi nəticələrə nail olan ölkədir.

Prezident İlham Əliyev müsahibələrində, çıxışlarında dəfələrlə bəyan edib ki, Azərbaycan Dağlıq Qarabağdakı hərbi xunta rejiminin, bu illər ərzində, demək olar ki, əsarətdə saxladığı erməni vətəndaşlarını da bu bəladan qurtaracaq. Onların ləyaqətli həyatını təmin etməyə çalışacaq. Əlbəttə, bunun üçün zaman tələb olunacaq. Ermənilər fərqində olmalıdırlar ki, övladlarının sağ qalması, ailələrinin, cəmiyyətlərinin rahat həyatı, dövlətlərinin işğalçı mövqeyinə görə illərdir yaşadıqları səfalətli həyatdan qurtuluşları Azərbaycanla sülhdən keçir. Bizim apardığımız dava haqq davasıdır. Azərbaycan əsgəri ölkəmizin ərazi bütövlüyü uğrunda vuruşur. Təcavüzkar Ermənistanın Qarabağa göndərdiyi əsgərlər isə başqasının torpaqlarında işğalçı kimi məhv edilirlər. Artıq Ermənistan cəmiyyətinin bu həqiqəti dərk edib öz yanlışlarını anlaması vaxtıdır.

## Azərbaycan Cənubi Qafqaz regionunun əsas inkişaf mərkəzidir

Ölkəmizin təşəbbüskarı və icrası prosesinin əsas iştirakçılarından olduğu qlobal layihələr regionumuz üçün yeni bir gələcək müəyyənləşdirir. Ermənistan özünü bu gələcəyə də işğalçı kimi daxil etmək istəyirsə, onun həmin gələcəkdə yeri olmayacaq. Çünki Azərbaycan Ermənistanın bütün beynəlxalq normaları, BMT kimi ali qurumun qətnamələrini tapdayaraq istədiyi şəkildə davranmasına artıq dözüm göstərmək niyyətində deyil. Dünyanın qabaqcıl, yüksək səviyyədə təchiz olunmuş, sarsılmaz döyüş ruhlu nizami ordusuna, geniş diplomatik əlaqələrə, böyük iqtisadi imkanlara malik Azərbaycan düşmənlə istənilən dildə danışmağa qabildir. Bu gün biz hərbi müstəvidə Ermənistanı diz çökdürmüşük. İşğalçı ölkə diplomatik müstəvidə də Azərbaycan qarşısında aciz durumdadır. Düşmənin bu məğlubiyyəti labüddür və mülki əhalimizə qarşı törədilən qanlı terror əməlləri də qaçılmaz məğlubiyyətin bu ölkədə artıq aydın dərkindən irəli gəlir. Amma düşmən əl atdığı hər ağır cinayətlə öz məğlub aqibətini daha da ağırlaşdırır.

Bizim apardığımız haqq davasıdır, bu davanın qalibi məhz Azərbaycan olacaq!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ədliyyə naziri Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinə Ermənistanın işğalçılığı ilə bağlı müraciət ünvanlayıb

Ədliyyə naziri Fikrət Məmmədov nazirliyin sıx əməkdaşlıq etdiyi Avropa məkanında yerli özünüidarə orqanlarına məsul nüfuzlu qurum olan Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin prezidentinə və baş katibinə Ermənistanın ölkəmizə qarşı hərbi təxribatları, xüsusilə dinc əhaliyə hədəflənən müharibə cinayətləri ilə bağlı müraciət ünvanlayıb.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə dünya ictimaiyyətinin diqqətinin yönəldiyi 30 ildir davam edən Ermənistan-Azərbaycan hərbi münaqişəsinin acı nəticələri, əzəli tarixi torpağımız olan Dağlıq Qarabağın və ətraf yeddi rayonun işğal olunaraq etnik təmizləməyə məruz qalan azərbaycanlıların öz dədə-baba yurdlarından didərgin salınması, bununla da ermənilərin işğal altında saxladıqları ərazilərimizdə bələdiyyə institutunun yaradılmasının qeyri-mümkünlüyü və məcburi köçkün düşmüş soydaşlarımızın uzun illərdir yerli özünüidarə hüququndan tamamilə məhrum olunduğu barədə məlumat verilib.

Ermənistanın münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə həllini dəfələrlə müxtəlif bəhanələrlə uzatması, silahlı qüvvələrini işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasına məhəl qoymaması, ona sərf edən status-kvonu davam etdirərək işğal altındakı ərazilərin zəngin təbii ehtiyatlarını istismar etməsi və qeyri-qanuni iqtisadi fəaliyyət göstərməsi, qanunsuz məskunlaşdırma həyata keçirməsi diqqətə çatdırılıb.

Bildirilib ki, bununla da beynəlxalq hüquq normalarını, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarını kobud şəkildə pozan Ermənistanın yeni rəhbərliyinin açıq işğalçılığa hesablanan şüarlarla çıxışlar etməsi və beynəlxalq ictimaiyyətin buna səssiz qalması təcavüzkarı hərbi təxribatları daha da intensivləşdirməyə ruhlandırıb.

Bütün bunlar barədə Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı tutarlı faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırıldığı vurğulanıb.

Müraciətdə Ermənistan silahlı birləşmələrinin yaşayış məntəqələrimizə və dinc əhaliyə qarşı başladığı hərbi təxribatlara cavab olaraq Azərbaycanın BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun özünümüdafiə hüququna əsaslanmaqla işğalçını sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatları həyata keçirdiyi, doğma torpaqları uğrunda və yalnız öz ərazisində heç bir kənar dəstək olmadan öz gücü ilə vuruşduğu qeyd olunub.

Cəzasızlıqdan azğınlaşan Ermənistanın hərbi mövqelərimizi, xüsusilə qəsdən ağır artilleriya qurğularından yaşayış məntəqələrimizi və mülki əhalimizi atəşə tutması nəticəsində bu günədək təkcə hərbçilərimiz deyil, eyni zamanda 11-i uşaq olmaqla 91 mülki şəxsin həlak olduğu və 400-dən çox insanın yaralandığı qeyd edilib, doğum xəstəxanası, uşaq bağçaları, məktəblər, rayon məhkəməsi binası və s. daxil olmaqla 3.000-ə yaxın yaşayış binasının və mülki obyektlərin məhv edildiyi və ya ciddi ziyan gördüyü, həmçinin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan neft kəmərlərinin atəşə tutulduğu diqqətə çatdırılıb.

Düşmənin mülki əhalimizə qarşı törətdiyi qeyri-insani əməllərinin təzahürü olaraq döyüş meydanından xeyli aralıda yerləşən əhalinin sıx məskunlaşdığı Gəncə və Bərdə şəhərlərinin beynəlxalq hüququn qadağan etdiyi kaset bombaları və ballistik raketlərlə atəşə tutulduğu, nəticədə 47 nəfərin həlak olduğu, 200-dən çox insanın yaralandığı vurğulanıb.

Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə məsul qurum kimi Konqresə məlumat verilib ki, ölən və xəsarət alanlar sırasında, həmçinin biri qadın olmaqla bələdiyyə sədrləri də var və 3 bələdiyyə binasına ciddi ziyan dəyib, bələdiyyələrin 30-dan çox üzvünün və qulluqçusunun əmlakına zərər vurulub.

Diqqətə çatdırılıb ki, hətta erməni terroruna məruz qalan şəhərləri ziyarət edən diplomatik korpus üzvləri də artilleriya atəşinə tutulub. Düşmənin həyata keçirdiyi namərd hücumlar razılaşdırılmış humanitar atəşkəs rejimi şəraitində həyata keçirilib.

BMT-nin Baş katibi və Avropa İttifaqı əhalinin yaşadığı bölgələrə edilən hücumları qınayan və onların qətiliklə qəbuledilməz olduğunu qeyd edən, mülki şəxslərin və obyektlərin atəşə tutulmasına son qoyulmasını tələb edən bəyanatlarla çıxış ediblər.

Lakin beynəlxalq normalara və çağırışlara məhəl qoymayan Ermənistan mülki əhaliyə hədəflərini dayandırmır və hazırda Azərbaycanın bir çox şəhərlərinə bu cür raket hücumlarının davam etməsi ilə ölən və yaralanan mülki şəxslərin sayı artmaqdadır.

Eyni zamanda düşmən raket zərbələrini öz ölkəsinin ərazisindən endirməklə münaqişənin coğrafiyasını genişləndirmək və döyüş əməliyyatlarına üçüncü ölkələri cəlb etmək məqsədini güdür.

Müraciətdə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT, Avropa Şurası, Avropa Parlamenti və Qoşulmama Hərəkatı kimi aparıcı beynəlxalq təşkilatların digər oxşar qərarlarının təxirəsalınmadan dərhal icra edilməsinin və ədalətin bərpa edilməsi üçün beynəlxalq hüququn tam gücünü tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan döyüş meydanında açıq üstünlüyə malik olmasına baxmayaraq, insanların həyatını xilas etmək naminə qan tökülməsini istəmir və münaqişənin siyasi yolla həlli üçün sülh danışıqlarının aparılmasının tərəfdarıdır.

Ədliyyə naziri Yerli və Regional Hakimiyyətlər Konqresinin yüksək nüfuzunu, geniş coğrafiyasını və təmsilçiliyini nəzərə alaraq ədaləti, sülhü və əmin-amanlığı bərpa etmək, insanlıq əleyhinə və müharibə cinayətlərinin qarşısını almaq üçün səsini ucaldacağına ümidvar olduğunu bildirib.

Nazirlik tərəfindən həmçinin Ermənistanın işğalçılığı ilə bağlı əsl həqiqətləri dünyanın daha geniş ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə 150 mindən çox yerli və regional hakimiyyətlərin təmsil olunduğu Konqresin rəhbər orqanları olan palatalarının sədrlərinə və Avropa Şurasının 45 üzv dövlətini təmsil edən nümayəndə heyətlərinin rəhbərlərinə analoji müraciətlər göndərilib.

## Biz birlikdə güclüyük!

# Karantin rejiminin tələblərinə ciddi əməl edilməlidir



*Əvvəli 1-ci səh.*

Bir ay davam edəcək karantin rejimi dekabrın ilk həftəsində virusa yoluxmada azalma müşahidə olunarsa, dayandırıla bilər. Lakin əksi müşahidə olunarsa, bu müddət uzadıla bilər.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Gebreyesus koronavirusa yoluxma şübhəsi ilə özünü təcrid edib. Baş direktor "Twitter" hesabında məlumat verib ki, infeksiyaya yoluxduğu təsdiqlənmiş şəxslə təmasda olduğu üçün ÜST-ün təlimatlarına uyğun olaraq qarşıdakı bir neçə gün ərzində özünü təcrid edəcək və evdən işləyəcək. O, qeyd edib ki, vəziyyəti yaxşıdır və onda virusun simptomları yoxdur.

Qeyd edək ki, Gürcüstanın Baş naziri Giorgi Qaxariya da "Facebook" səhifəsində yazıb ki, dünən bütün günü birgə çalışdığı əməkdaşda koronavirus aşkarlandığına görə, özünü cəmiyyətdən təcrid edib.

## Arxayınçılıq yoluxmanın əsas səbəblərindən biridir

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da son dövrlərdə koronavirusa yoluxanların sayında artım müşahidə edilir, yoluxma və sağalma halları arasında fərq xeyli böyüyür. Təəssüf ki, hətta yoluxmanın 4 rəqəmli həddə yüksəldiyini, virus səbəbindən ölənlərin sayının artdığını da müşahidə edirik.

Buna görə həm də sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, Nazirlər Kabineti ölkə ərazisində xüsusi karantin rejiminin müddətini dekabrın 1-dək uzadıb. Eyni zamanda son günlər Lənkəran şəhərində, Cəlilabad və Masallı rayonlarında yüksək yoluxma faktları aşkar olunduğuna görə, həmin rayonlara giriş-çıxış dayandırılıb.

Onu da qeyd edək ki, sözügedən qurumun oktyabrın 29-da imzaladığı qərara uyğun olaraq, ötən gündən bütün təhsil pillələri üzrə tədrisin distant təşkilinə başlanılıb. Bu qərar dekabrın 1-dək qüvvədədir.

Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru Adil Allahverdiyev bildirib ki, sentyabrdan etibarən dünyada koronavirusa yoluxanların sayında artım qeydə alınır. Bu tendensiya Azərbaycandan da yan keçməyib. Rəqəmlərin artımının obyektiv səbəbləri də var. Onlardan biri respirator sistemə aid xəstəliklərin sentyabr-oktyabr aylarından başlayaraq artmasıdır. Digər yandan isə yoluxma sayının azlığı vətəndaşlarda arxayınlığa səbəb oldu və hər kəs pandemiyanın bitdiyini düşündü: "Əslində isə, xəstəlik davam edir. Bunu biz ikinci dalğa kimi də qəbul edə bilmərik. Çünki xəstəlik var və vətəndaşlar ona məsuliyyətlə yanaşmanı unutduqdan sonra rəqəmlərdə artımlar qeydə alındı".

A.Allahverdiyev söyləyib ki, bu gediş, əslində, çox həyəcanlıdır. Çünki hazırda gərgin bir dövrdə yaşayırıq: "Vətən müharibəsi davam edir. Bizim hər birimizin xəstələnməsi cəbhə üçün də təhlükə törədir. Vətəndaşlar cəbhə zonasında hərbçilərlə təmasda olduqlarına görə, məsuliyyətimiz birə on qat artmalıdır. Hər birimiz ordumuzun qələbəsi naminə koronavirusa qarşı mübarizədə də həmrəylik nümayiş etdirməliyik".

## Əhalinin sayına görə aparılan test sayı yüksəkdir

Adil Allahverdiyev Azərbaycanda koronavirusa yeni yoluxma hallarının müəyyənləşdirilməsi məqsədilə aparılan testlərdən də danışıb: "Ölkəmizdə əhalinin sayına görə aparılan test sayı yüksək səviyyədədir. Test saylarının çoxluğu son dərəcə önəmlidir və xəstəliyi gizli keçirənlərin üzə çıxarılmasına imkan verir. Bu, iki cür ola bilər. Bəziləri xəstəliyi zəif, asimptomatik keçirir. Onlar virus daşıyıcısı olsalar da, özlərini sağlam hiss edirlər. İkinci qrup insanlar isə əlamətləri hiss etsələr də, yoluxduqlarını düşünmür, soyuqdəymə, qrip olduqlarını deyirlər. Aparılan testlər bunları üzə çıxarır. Ona görə də test sayının çoxluğu xəstəliyin yayılmasının qarşısını almağa kömək edə bilər".

Göründüyü kimi, hazırda ölkəmizdə sanitar-epidemioloji vəziyyət elə də ürəkaçan deyil və yoluxma sayı bu cür artmaqda davam edərsə, hazırkı durum daha da pisləşə bilər. Bunu isə heç bir Azərbaycan vətəndaşı istəməz. Təbii ki, sentyabr ayından, yəni Vətən müharibəsi başlayandan hər birimizin diqqəti ümdə olaraq cəbhəyə yönəldi, pandemiyanı unutduq və bunun nəticəsində də COVID-19-un sürətli yayılmasına rəvac verdik.

Amma vətəndaş məsuliyyəti ilə hazırda yaranmış bu mənfi tendensiyanı tezliklə aradan qaldırmaq da mümkündür. Mütəxəssislərin təsbit etdiyi kimi, koronavirus təhlükəsindən qorunmağın yolları bəllidir - maska taxmaq, əl gigiyenasına əməl etmək və məsafə saxlamaq.

Bu sadə qaydalara əməl etməklə həm insanlarımızın, həm də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda rəşadətlə döyüşən əsgərlərimizin sağlamlığına və təhlükəsizliyinə böyük töhfə vermiş olarıq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasına daha 596 yoluxma faktı qeydə alınıb, 322 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 596 yoluxma faktı qeydə alınıb, 322 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 13 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 57 min 40 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 44 min 479 nəfər müalicə olunaraq sağalıb, 753 nəfər vəfat edib. Aktiv xəstə sayı 11808 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 368 min 620 test aparılıb. Dünənki test sayı isə 5081-dir.




**Lənkəran Dövlət Universiteti yumşaq inventar, yataq ləvazimatı və xüsusi geyimlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər bağlı zərfdə möhürlənmiş şəkildə 03.11.2020-ci il saat 08:30-dan 05.11.2020-ci il saat 17:30-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır. Zərflər 06.11.2020-ci il saat 09:30-da açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

*Tender komissiyası*

**Lənkəran Dövlət Universiteti digər nəqliyyat xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar (025) 255-14-80 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər bağlı zərfdə möhürlənmiş şəkildə 03.11.2020-ci il saat 08:30-dan 05.11.2020-ci il saat 17:30-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır. Zərflər 06.11.2020-ci il saat 10:00-da açılacaqdır.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

*Tender komissiyası*

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

## Tarixi ədalət təmin edilir

Danılmaz həqiqətdir ki, 30 ilə yaxın müddət ərzində Azərbaycan münaqişənin sülh yolu ilə həll olunması üçün mümkün olan bütün vasitələrdən istifadə olunmasına çalışıb. Belə ki, erməni tərəfinin davamlı qeyri-konstruktiv mövqe göstərməsinə baxmayaraq, Azərbaycan daim diplomatik həll variantına üstünlük verib və danışıqlar prosesində fəal iştirak edib. Hərbi potensialının Ermənistanla müqayisədə əhəmiyyətli dərəcədə yüksək olmasına baxmayaraq, Azərbaycan hər zaman beynəlxalq hüququn prinsiplərinə, ümumbəşəri dəyərlərə sadiqliyini göstərib, münaqişənin sülh yolu ilə tənzimlənməsində maraqlı olduğunu öz konstruktiv mövqeyi ilə təsdiq edib.

Təəssüf ki, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi, eləcə də BMT Baş Assambleyası, Avropa Parlamenti, İslam Konfransı Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar tərəfindən münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dair qəbul edilən sənədlərin icra olunmaması münaqişənin sülh yolu ilə nizamlanmasına imkan verməyib.

Bu dövr ərzində münaqişənin həlli məqsədilə keçirilən danışıqlarda erməni tərəfi hər dəfə texniki məsələləri və danışıqların formatının dəyişdirilməsini qəsdən gündəmə gətirməklə, eyni zamanda, cəbhəboyu ərazilərdə və hətta Azərbaycan - Ermənistan dövlət sərhədi istiqamətində davamlı təxribatlar törətməklə danışıqlar prosesinə xələl gətirməyə, problemin həllindən diqqəti yayındırmağa, beynəlxalq hüquq normalarına və prinsiplərinə məhəl qoymadan işğala və təcavüzə əsaslanan status-kvonu qorumağa çalışıb. Zəbt olunmuş tarixi Azərbaycan torpaqlarında qeyri-qanuni məskunlaşma aparmaqla, tarixi, dini və mədəni abidələri talan etməklə, qədim yaşayış yerlərinin adlarını dəyişdirərək tarixi saxtalaşdırmaqla, iqtisadi və təbii resursları qanunsuz mənimsəməklə, böyük həcmdə hərbi texnika və qoşun cəmləşdirməklə və digər kriminal fəaliyyətlər həyata keçirməklə işğalçı dövlət faktiki olaraq danışıqları imitasiya etdiyini və yeni ərazi iddialarında olduğunu nümayiş etdirib.

Azərbaycanın çoxsaylı çağırışlarına baxmayaraq, açıq təcavüzkar siyasətinə görə adekvat beynəlxalq təzyiqin göstərilməməsi və heç bir sanksiyanın tətbiq edilməməsi işğalçı dövləti beynəlxalq hüquq normalarına hörmətsizliyi davam etdirməyə bir qədər də "cəsarətləndirmiş"dir. Belə ki, kriminal xunta rejiminin "andiçmə" mərasiminin Şuşada keçirilməsi, qondarma parlamentin bu qədim şəhərimizə köçürülməsinə qərar verilməsi və münaqişənin həllinin baza prinsiplərinə zidd olaraq "Qarabağ Ermənistandır və nöqtə" kimi sərsəm bəyanat səsləndirilməsi işğalçı dövlətin törətdiyi aşkar terrorçuluq fəaliyyətlərinə, qanlı əməllərə və soyqırımı cinayətlərlərinə görə cəzasızlıq səbəbindən azğınlaşmasından irəli gəlib.

Cari ilin iyul ayında Azərbaycan - Ermənistan dövlət sərhədinin Tovuz rayonu ərazisində işğalçı dövlət tərəfindən törədilən növbəti təxribat əməlləri yuxarıda qeyd olunan mənfur siyasəti bir daha açıq şəkildə göstərdi. Cəbhə zonasından xeyli uzaqda yerləşən və çoxsaylı strateji enerji və nəqliyyat xətlərinin keçdiyi Tovuz rayonunun hədəfə alınması düşmənin yeni münaqişə ocaqları yaratmaq və mövcud vəziyyəti daha da kəskinləşdirmək niyyətindən xəbər verir.

İyul döyüşlərində Azərbaycan Ordusu tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində xeyli sayda itkilərə məruz qalan düşmənin cari ilin avqust ayında mülki əhaliyə qarşı terror aktları törətmək məqsədilə ölkəmizə diversiya qrupu göndərməsi işğalçı dövlətin təcavüzkar və terrorçuluq siyasətindən heç zaman əl çəkməyəcəyini bir daha təsdiq etdi.

BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ermənistanın yeni ərazilər uğrunda müharibəyə hazırlaşdığını bildirməsi və beynəlxalq ictimaiyyətin onları hərbi təcavüzdən çəkindirməyə çağırması faktiki olaraq daha genişmiqyaslı növbəti erməni təxribatının proqnozu kimi qiymətləndirilə bilər. Hadisələrin sonrakı



gedişatı dövlət başçısının proqnozlarını bir daha doğrultdu.

Cari ilin 27 sentyabr tarixindən etibarən Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan istifadə etməklə intensiv atəşə tutması ermənilərin terrorçu, faşist və işğalçı xislətinin daha da dəhşətli olmasını ortaya qoydu. Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuzun mülki əhalinin təhlükəsizliyini təmin etmək və işğalçı erməni silahlı qüvvələrinin döyüş fəallığını azaltmaq məqsədilə həyata keçirdiyi sülhə məcburetmə əməliyyatları qısa müddət ərzində möhtəşəm uğurlar əldə olunmasına imkan verdi.

Qürurverici haldır ki, Ali Baş Komandanımızın qətiyyəti sayəsində xalqımız həsrətində olduğu qələbə sevincini yaşadı. Dövlət başçısı cənab İlham Əliyevin hər birimizin həyat amalına çevrilmiş "Qarabağ Azərbaycandır!" şüarı öz təsdiqini tapmış oldu. Bu gün üçrəngli bayrağımızın Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Suqovuşanda, Xudafərində və işğaldan azad olunmuş digər yaşayış məntəqələrimizdə dalğalanması hər bir azərbaycanlıda böyük fəxarət hissi yaradıb. 27 sentyabr - 30 oktyabr tarixləri ərzində şanlı Ordumuz tərəfindən 4 şəhər, 3 qəsəbə və 185 kənd erməni işğalından azad olunub.

Hazırda Azərbaycan əsgərinin şücaəti sayəsində 27 illik həsrətə son qoyulur, tarixi ədalət bərpa olunur və nəhayət, işğala və təcavüzə əsaslanan status-kvo dəyişdirilir.

Təəssüf doğuran odur ki, döyüş meydanında Azərbaycan əsgərinin qəhrəmanlığı qarşısında aciz qalan və böyük itkilər verərək geri çəkilməyə məcbur olan mənfur düşmən beynəlxalq konvensiyalarda təsbit olunmuş müharibə qaydalarını kobud şəkildə pozur. Belə ki, mülki əhalimizin yaşadığı məntəqələri atəşə tutan xain düşmən cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir, Bərdə, Qəbələ, Kürdəmir və digər şəhərlərə də çoxsaylı raket zərbələri endirib. Erməni vandallığını bir daha nümayiş etdirən Gəncə, Bərdə və Tərtərdəki terror aktları və qadağan olunmuş silahlardan istifadə ilə törədilən müharibə cinayətləri Xocalı qətliamının davamı olmaqla 91 mülki şəxsin, o cümlədən uşaqların və qadınların həyatına son qoydu. Lakin Azərbaycan xalqının qələbə əzmini azaltmağa və ölkəmizdə sabitliyi pozmağa yönələn düşmənin bu cəhdləri uğursuzluğa düçar oldu.

Moskva, Paris, Vaşinqton və Cenevrədə razılaşdırılmış humanitar atəşkəsi kobudcasına pozan xain düşmənin heç bir əxlaq normalarına uyğun gəlməyən qanlı əməlləri sayəsində dünyasını dəyişən vətəndaşlarımızın qisasının qəhrəman əsgərlərimiz tərəfindən döyüş meydanında layiqli şəkildə alınması xüsusi qeyd olunmalıdır. Azərbaycan əsgərinin sarsıdıcı əks-hücum həmləsindən təlaşa düşən düşmən tarixi torpaqlarımızdan qorxaqcasına qaçır.

Bu günlərdə Azərbaycan erməni təcavüzünə və terroruna qarşı hərbi, siyasi, diplomatik, informasiya və digər platformalarda möhtəşəm qələbələr əldə etməklə özünün müstəqillik tarixinin ən şərəfli və şanlı səhifələrini yazır. 30 ilə yaxın müddətdə işğal altında olan tarixi Azərbaycan torpaqlarının azad edilməsi ilə mövcud status-kvo dəyişdirilir, regionda sülh və təhlükəsizliyin bərqərar olmasında ölkəmizin qüdrətini göstərən və milli maraqlarımızı tam təmin edən yeni strateji mənzərə formalaşır.

Ədalətə söykənən və haqq mübarizəsinə əsaslanan Xalq-Dövlət-Ordu birliyi mənfur düşməni qorxuya salıb. Eyni zamanda "Bir millət, iki dövlət" düşüncəsindən güc alan Azərbaycan-Türkiyə həmrəyliyi hər birimizdə böyük qələbəyə əminlik hissi yaradıb. Bütün bunlar Azərbaycan bayrağının tezliklə Şuşada, Xankəndidə və işğalda olan digər tarixi torpaqlarımızda dalğalanacağına inamı artırır.

Hazırda hər bir Azərbaycan vətəndaşı apardığımız haqq savaşında fəal iştirak etməyə və Vətən müharibəsinə öz töhfəsini verməyə çalışır. Sevindirici haldır ki, döyüş meydanında əldə etdiyimiz qələbələr informasiya cəbhəsində qazandığımız uğurlarla müşahidə olunur və möhkəmlənir. Azərbaycan həqiqətlərinin, düşmən tərəfindən törədilən təcavüz aktlarının dünya ictimaiyyətinə çatdırılması işində vətəndaşlarımızın, kütləvi informasiya vasitələrimizin və dövlət qurumlarımızın göstərdiyi əzmkarlıq və həmrəylik qürurvericidir.

Ayrıca qeyd olunmalıdır ki, döyüş meydanında əsl sərkərdə şücaəti göstərən Ali Baş Komandanımız böyük qətiyyəti ilə erməni saxtakarlığına qarşı informasiya mübarizəsində də öncül mövqedə dayanır. Belə ki, dünyanın aparıcı kütləvi informasiya vasitələrinə gündəlik olaraq geniş müsahibələr verən dövlət başçısı dəqiq tarixi faktları, beynəlxalq hüquqi sənədlərin konkret müddəalarını və digər əsaslandırılmış arqumentləri səsləndirməklə informasiya cəbhəsindəki qələbəmizi də təmin edir. Məhz bu müsahibələr düşmən tərəfindən davamlı olaraq dünya mediasına ötürülən "fake news"ların uğursuzluğa düçar olmasına imkan verir.

Şübhə yoxdur ki, Azərbaycan xalqının böyük ruh yüksəkliyi şəraitində davam edən Vətən müharibəsində əldə edəcəyimiz şanlı qələbə müasir tariximizdə yeni səhifələrin açılmasını şərtləndirmiş olacaqdır. Bu baxımdan, sevincini yaşadığımız parlaq qələbələrin memarı möhtərəm Prezidentimizin aşağıdakı fikirləri Azərbaycanın haqlı mövqeyini aydın ifadə edir: "Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz".

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

## Ermənistanın münaqişəni dini motivə çəkmək cəhdləri iflasa uğrayır

### Təcavüzkar dövlət xristianlığa da böyük ləkə, xəcalət mənbəyidir

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 20-ci əsrin ən faciəli münaqişələrindən biridir. Bu münaqişə nəticəsində xalqımız böyük fəlakətlər, tarixi haqsızlıq və işğalçı təfəkkürlə üz-üzə qalmışdır. Təcavüzkar Ermənistanın tarixi "tərcümeyi-halı" bizə deməyə əsas verir ki, bu xalqın "xəmiri" xəyanət və satqınlıqla yoğrulub.



XX əsrin əvvəllərində Osmanlı dövlətində önəmli mövqelərə malik olan, lakin onun zəiflədiyi dövrdə xəyanət edərək çar Rusiyasına sığınan ermənilər "zəifi" sat, "güclünü zəifləyəndə satarsan" prinsipi ilə yaşayıblar. 1918-ci ildə yaranmış geosiyasi reallıqlardan yararlanaraq tarixi Azərbaycan torpaqlarında özlərinə saxta bir dövlət qurmağı bacaran bu nankor xalq SSRİ dövründə müəyyən səbəblərə görə üstün mövqelər əldə etməklə öz xislətinə xas "fəaliyyətindən" əl çəkməmiş, hər vəchlə Azərbaycan xalqına qarşı düşmənçilik siyasətini davam etdirmişdir. Ermənistan ərazisindən azərbaycanlıların bir neçə dəfə köçürülməsi buna əyani sübutdur.

1980-ci illərdə SSRİ-nin siyasi-iqtisadi cəhətdən zəifləməsi, "yenidənqurma" siyasətinin iflasa uğraması bu imperiyanı süquta sürükləyəndə Qərb dövlətləri də bu vəziyyətdən maksimum dərəcədə bəhrələnməyə çalışırdı. Həmin dövrdə Qərbin maraqları ermənilərin maraqları ilə üst-üstə düşürdü. Belə ki, yeni ərazilər əldə etməyə çalışan ermənilər Dağlıq Qarabağda milli ədavəti qızışdırırdı. Tarixin hər dövründə "ikiüzlü" və "ləyaqətsiz" hərəkətləri ilə seçilən erməni xisləti bir tərəfdən Qərbin maraqlarına uyğun olaraq SSRİ-nin daha da zəifləməsi və dağılmasında müstəsna rol oynamış milli zəmində qarşıdurmaya rəvac verir, digər tərəfdən milli məsələlərin xüsusiyyətlərini dərindən bilməyən Sovet rəhbərliyini Azərbaycana qarşı yönəldirdi. Heç kimə sirr deyil ki, həmin dövrdə Sovet İttifaqının rəhbəri olmuş Mixail Qorbaçov Qərbin böyük planının bir parçası idi. M.Qorbaçovun erməni lobbisinin dəstəyi ilə hakimiyyətə gəlişi onda ermənilərə qarşı xüsusi "münasibət" və imkanlar yaratmışdı.

Ermənilər yaranmış vəziyyətdən hiyləgərcəsinə istifadə edərək öncə Ulu Öndər Heydər Əliyevin Moskvada tutduğu yüksək vəzifələrdən kənarlaşdırılmasına nail oldular. Sonra isə Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün xaricdəki erməni lobbisi ilə birlikdə məqsədyönlü fəaliyyətə keçdilər. Nəticədə Azərbaycana qarşı yönəlmiş təxribatlara və getgedə qızışan münaqişə qığılcımlarına göz yumulurdu. Dağlıq Qarabağ Muxtar Vilayətində nizam-intizam yaratmaq əvəzinə ona xüsusi idarəçilik statusu verilməklə bugünkü mövcud münaqişənin əsası qoyuldu. SSRİ-nin süqutunda birbaşa rol oynayan ermənilər riyakarcasına daha sonra Rusiya və onun rəhbəri Boris Yeltsinlə də "alət" qismində əməkdaşlığı davam etdirdilər. 1988-ci ildə erməni separatçılarının Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başlamış bu münaqişə yekunda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə nəticələndi.

İndi isə Ermənistanda "Soros məhsulu" olan iqtidar rəhbərliyi Qərbə üz tutub. Paşinyanın inqilab ərəfəsində küçələrdə səsləndirdiyi bütün şüarlar anti-Rusiya xarakteri daşıyırdı. Bəli, ermənilər bu gün də Rusiyaya xəyanət edirlər. Bir tərəfdən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) ayaqlarına qapanıb yalvaran Ermənistan istədiyi cavabı almadığı üçün dərhal NATO-nun qapısını döydü. Qərb və Rusiya arasında əsrlərdir manevrlər etməyi bacaran bu xalqdan heç kim sədaqət gözləməməlidir. Özlərini sadəcə "alət" və "əlaltı" funksiyasında görən ermənilər hansı xalq tərəfindən nəvaziş görüblərsə, sonda mütləq o xalqa xəyanət ediblər. Onların satqınlıq və xəyanət üzərində təşəkkül tapan "əqidəsi" tarixin bütün dövrlərində açıq şəkildə özünü büruzə vermişdir. Əlbəttə ki, siyasi proseslərdə onların çirkin və qeyri-əxlaqi fəaliyyətini əsrlərdir Azərbaycan xalqı görür. Xalqımız bu terrorçu zehniyyətdən çox əziyyət çəkib. Ancaq bu gün Ermənistan sadəcə siyasi olaraq deyil, dini-mənəvi cəhətdən də iyrənc və qəbuledilməz mövqe nümayiş etdirir. Bir neçə gün əvvəl bütün Ermənistan katalikosu II Qareqinin xalqa müraciəti, onun kilsə adından bütün vətəndaşları və hətta uşaqları belə ölümə qədər hərbi savaşa çağırması açıq-aşkar dinin siyasiləşdirilməsi faktıdır. Ermənistanın dini lideri anlamır ki, bütün dinlər insanları sülhə və əmin-amanlığa çağırır. Kilsə adından çıxış edərək müharibə bəyanatları vermək yalnız onun ağlına gələ bilərdi. Nəticə isə birmənalıdır: Ermənistan xristianlığı siyasiləşdirməyə çalışır. Əslində Ermənistanı heç xristian dövləti də adlandırmaq olmaz. Xristianlığın bütün mötəbər, sülhsevər və ümumbəşəri prinsiplərini tapdalayan bu dövlətin mənəviyyata hörmət etməsi mümkün deyil. Ermənistan mənəviyyatsız dövlətdir. Çünki mənəviyyatı olan dövlət silahsız insanların, məsum körpələrin üzərinə raket yağdırmaz. Bu xalqın "köksüzlüyü" bütün davranışlarında aydın şəkildə sezilir.

Döyüş meydanında müzəffər Ordumuz qarşısında tab gətirə bilməyən namərd düşmən hər vasitədən istifadə edir. Dini faktoru ortaya ataraq Şuşadakı kilsənin vurulması ilə bağlı ölkəmizə qarşı başlatdığı çirkin "kampaniya" nəticə vermədiyi üçün onlar daha qlobal müstəviyə keçərək məsələni xristian-müsəlman qarşıdurmasına çevirmək istəyir. Gəncəni, Bərdəni, Tərtəri və digər yaşayış məntəqələrimizi raket atəşinə tutaraq yüzə yaxın günahsız insanın ölümünə səbəb olan bu "dövlət" öz terrorçu mahiyyətini bir daha göstərir. Terrorun, terrorçunun dili, dini, irqi olmadığını bilsək də, bir dövlətin bütün dünyəvi və dini strukturları ilə birgə terrorizm mənbəyinə çevrilməsi əslində qlobal təhlükəsizliyə təhdiddir. İŞİD, Əl-Qaidə, Boko Haram kimi terror təşkilatları islam dinini necə siyasiləşdirib ölkə və şəhərləri viran qoyursa, Ermənistanın terror təşkilatı da xristianlığı siyasiləşdirərək şəhərlərimizi bombalayır, dinc sakinlərə qarşı soyqırımı aktı törədir. Onlar Xocalı soyqırımını bu gün də davam etdirmək niyyətində olduqlarını öz əməlləri ilə bəyan edirlər. Ermənistan katalikosu II Qareqinin məlum müraciəti isə bir daha sübut edir ki, onlar üçün heç bir dəyər yoxdur. Qəsbkarlığı, təcavüzü, haqsızlığı dini müstəvidən pərdələmək, hətta dini buna alət etmək xristian aləminə qarşı da böyük hörmətsizlikdir. Bu dövlət dünya və region üçün olduğu kimi, xristianlıq üçün də bir ləkə, xəcalət mənbəyidir. Ermənistanın bu hərəkətləri düşünülmüş və planlı bir strategiyadır. Onlar bu münaqişəni dinlərarası toqquşma səviyyəsinə gətirərək beynəlxalq təhlükəsizlik üçün ciddi bir təhdid yaratmaq, dini zəmində total müharibəni tətikləmək istəyirlər. Bununla da böyük dövlətlərin dini zəmində müharibəyə cəlb edilməsini arzulayırlar. Azərbaycan isə daim dinlərarası və mədəniyyətlərarası dialoqun mərkəzi kimi çıxış edir. Dünya birliyi hər iki ölkənin məqsəd və məramını obyektiv qiymətləndirməli, ermənilərin ləyaqətsiz planları ilə bəşəri dəyərlər sisteminə vuracağı zərərləri zamanında dəyərləndirməlidirlər. Heç kəs unutmamalıdır ki, biz öz torpağımızda döyüşür, ərazi bütövlüyümüzü bərpa edirik.

Bu Vətən müharibəsində bütün dinlərə mənsub, o cümlədən rus, yəhudi və s. millətlərdən olan Azərbaycan vətəndaşları çiyin-çiyinə vuruşur, şəhid olurlar. Ermənistanın bu müharibəyə dini don geyindirmək cəhdləri baş tutmayacaqdır. Çünki Azərbaycan bütün dinlərin və etnik qrupların nümayəndələrinin bir ailə kimi yaşadığı tarixi bir məkandır. Ermənistan artıq məğlub olub. Əmin olun ki, bunu başda Paşinyan olmaqla, hər kəs anlayır. Sadəcə hakimiyyəti itirməmək məqsədilə manevrlər etmək və rüsvayçı formada məğlub olduqlarını gizlətmək üçün vaxtı uzadırlar. Özünü indi də Qərbə "sırımaq" istəyən bu hakimiyyət fəlakətə məhkumdur. Qərb isə öz dəyərlər sisteminə hörmət etməklə bu təcavüzkar ölkənin əməllərinə düzgün qiymət verməlidir. Onlar da anlamalıdırlar ki, bəşəriyyət üçün olduqca təhlükəli bir oyun oynayan Ermənistan artıq bir "alət" kimi də funksionallığını itirib.

Əminliklə deyə bilərik ki, başda Paşinyan olmaqla, digər erməni təcavüzkarları da tarix və beynəlxalq qanunlar qarşısında törətdikləri vəhşiliyə, təcavüzə görə cavab verəcək, mütləq cəzalarını alacaqlar. Ona da əminəm ki, bunu daha 27 ildən sonra yox, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə yaxın zamanlarda mütləq görəcəyik!

***Səyavuş HEYDƏROV,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini***

## İşğalçı Ermənistan vandalizminə görə cavab verəcək

Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı uğurlar Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasətin məntiqi nəticəsidir.





Müasir ordu quruculuğu istiqamətində mühüm addımların atılması, Azərbaycan Ordusunun dünyanın 50 ən güclü orduları sırasında olması da dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Məhz bunların sayəsində indi Ordumuz döyüş meydanında düşmənə sarsıdıcı zərbələr endirir, illərdir yağı tapdağında olan doğma torpaqlarımızı işğaldan azad edir.

Prezident bu gün də usaqgörənlik, vətənpərvərlik, qətiyyət, əzm, prinsipiallıq, dönməzlik nümayiş etdirir. Azərbaycan xalqının haqq işi uğrunda əsl fədakarlıq nümunəsi ortaya qoyur. Bütün çətinliklərə, xarici qüvvələrin təzyiqinə cəsarətlə sinə gərir və onları dəf edir.

Dövlət başçısı Azərbaycan xalqına müraciətlərində, eləcə də digər çıxış və müsahibələrində Ermənistanın müharibə aparmaq üçün bu qədər silah-sursatı haradan aldığını soruşur. Əlbəttə, bu, dərin məna daşıyan bir sualdır və təbii ki, deyilən söz öz ünvanını tapır. Axı Ermənistan yoxsul bir ölkədir.

Ermənistanda əhali ac-yalavac yaşayır. İqtisadiyyat gündən-günə daha da çökür. Vəziyyətin yaxşılaşacağına isə güman yoxdur. Çünki bu ölkə regionda gerçəkləşdirilən qlobal layihələrin hamısından kənarda qalıb. Azərbaycan işğalçılıqla, vandalizmlə məşğul olan mənfur qonşusunu regiona xeyir-bərəkət gətirən neft-qaz ixracı marşrutlarından, dəmir yolu xətlərindən, nəqliyyat dəhlizlərindən kənarda qoyub və biz bunu gizlətmirik. Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, ermənilər işğal etdikləri torpaqlarımızı boşaltmayınca vəziyyət bu cür də qalacaq.

Belə isə bu faşist xislətli ölkə hansı vəsaitlə müharibə aparır? Sirr deyil ki, Ermənistan havadarları üçün bir oyuncaq, xaricdə yaşayan varlı ermənilərin əlinə baxan bir dilənçidir. Cinayətkar hərbi-siyasi rəhbərliyi bu ölkəni işğalçılığa, cinayətə, aclığa, səfalətə sürükləyib. Zorla orduya göndərilən erməni cavanları, eləcə də qadınlar, yeniyetmələr, qocalar özgə torpağında ucuz, urvatsız ölümə məhkum edilirlər. Odur ki, erməni döyüşçülər meydandan qaçır, ölkəsinin əyri-üyrü yollarla əldə etdiyi silahı atıb gedir, məğlub olurlar.

Məğlubiyyətin acısının və xəcalətinin əvəzini isə faşist xislətli Ermənistan cəbhə zonasından yüz kilometrlərlə aralıda yerləşən ərazilərə qadağan olunmuş silahlardan atəş açaraq Azərbaycanın dinc əhalisindən, o cümlədən gül üzlü körpələrdən çıxır.

"Sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır?.. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlananda? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq", - deyə dünyaya əsl həqiqəti bəyan edir mərd, məsləkindən dönməz Prezidentimiz.

Almaniyanın ARD televiziya kanalının müxbiri Prezidentimizlə müsahibəsində deyir: "Bu sualı davamlı olaraq verən şəxsdə müəyyən mənada bir cavab olmalıdır".

Prezident isə yenə də öz dəyişməyən mövqeyindən çıxış edərək bildirir: "Cavabım olsaydı, soruşmazdım. Hələ də soruşuramsa, o deməkdir ki, cavab almamışam. Biz məhv etdiklərimiz barədə minimum ilkin hesablama aparmışıq, yeri gəlmişkən, mən bizim məhv etdiklərimizin hamısını açıqlamamışam. Bu, olacaq. Bizim məhv etdiyimiz və qənimət kimi götürdüyümüz sursatın dəyəri 2,7 milyard dollardır. Bu pul haradan gəlir? Ermənistan kasıb ölkədir. Onun büdcəsi 2 milyard dollardan azdır. Onun xarici borcu 8 milyard dollardır... Beləliklə, mən soruşuram, amma heç bir cavab verilmir. Ona görə də, soruşmağa davam edəcəyəm".

Uzun illərdir Qarabağ torpağını işğal altında saxlayıb onun "sinə"sinə dağ çəkən, Azərbaycanın dinc əhalisinin günahsız qanına bu və digər şəkildə bais olanlar hələ çox suallara cavab verməli olacaqlar. Təkcə Azərbaycan xalqı və onun müdrik Prezidenti qarşısında deyil, həm də ulu tarix qarşısında... İndi isə törətdikləri vəhşiliklərə, vandalizm və cinayətlərə görə döyüş meydanında cəzalarını alırlar. Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi müzəffər Azərbaycan Ordusu onlara kimin kim olduğunu sübut edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir



İranın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair təklif etdiyi plana əsasən, ilk növbədə, işğal edilmiş ərazilər azad edilməlidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif dövlət televiziyasına müsahibəsində deyib. O bildirib ki, ərazilər azad edildikdən sonra hər iki tərəf atəşkəs rejiminə sadiq qalacaqlarını bəyan etməlidir.

Nazir qeyd edib ki, İran sərhədi yaxınlığında gedən hərbi əməliyyatlarda terrorçu qruplaşmaların iştirakına imkan verməyəcək.

Onun sözlərinə görə, rəsmi Tehran münaqişənin sülh yolu ilə həlli üçün fəaliyyət göstərən ATƏT-in Minsk qrupuna rəqib olmadan sabitliyi bərpa etməyə cəhd edir. Danışıqlar 30 ildir nəticəsiz davam edir. İranın təklifi sadəcə olaraq müvəqqəti sülh yaratmaq deyil, işğal altındakı torpaqların azad edilməsindən və bölgə xalqlarının təhlükəsiz yaşaması üçün zəmanət verilməsindən ibarətdir. Tərəflər Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin olunacağına dair zəmanət verdikdən sonra münaqişə region dövlətlərinin iştirakı ilə həll olunar.

M.C.Zərif İranın irəli sürdüyü təklifin Prezident Həsən Ruhaninin xüsusi nümayəndəsi Seyid Abbas Əraqçı tərəfindən Azərbaycan, Ermənistan, Rusiya və Türkiyənin siyasi rəhbərliyinə çatdırıldığını bildirib.

❖ ❖ ❖




Azərbaycan Belarusdan tutmuş Qazaxıstana qədər postsovet məkanında kifayət qədər böyük təsirə malikdir, buna etinasız yanaşmaq olmaz. Bu səbəbdən, mən hesab edirəm ki, Vladimir Putin müstəqil hakim kimi indiki distansiyanı saxlamaqda davam edəcək.

Bu barədə AZƏRTAC-a müsahibəsində politoloq, Rusiya Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun elmi əməkdaşı Aleksandr Karavayev bildirib.

A.Karavayev qeyd edib ki, Moskva özünün "hibrid bitərəf" strategiyasını qoruyur. O deyib: "Bu, Rusiyanın iki tərəfdaş-dostlarının öz aralarında müharibə vəziyyətində yeganə mümkün formadır. ATƏT-in Minsk qrupunda bu seçim təkcə Rusiya qarşısındadır, belə ki, məhz Rusiya region ölkələrinin qarşılıqlı fəaliyyətini ümumi sosial-iqtisadi ansambla qoşur. Buna görə Rusiya çox mürəkkəb manevr etməlidir - bir tərəfdən Ermənistan üçün müttəfiqlik reputasiyasını qoruyub saxlamaq, digər tərəfdən müharibəyə Ermənistanın tərəfində qoşulmadan Azərbaycan üçün aparıcı siyasi və iqtisadi tərəfdaş nüfuzunu qoruyub saxlamaq lazım gəlir".

Ekspertin fikrincə, Moskva və Bakı arasındakı münasibətlərin böhranı Rusiyanın Cənubi Qafqazda nüfuzunun aşağı düşməsi ilə nəticələnə bilər. "Əlbəttə, bu mənada Türkiyə üçün asandır. Bununla belə, Moskva daha çox riskə gedir. Axı Bakı ilə münasibətlərdə böhran başlasa, o halda nəinki Cənubi Qafqazda Rusiyanın nüfuzu azalar, həm də MDB və Avrasiya İqtisadi Birliyindəki inteqrasiya dairəsində qarşılıqlı fəaliyyət mürəkkəbləşə bilər. Məsələ ondadır ki, Azərbaycan Belarusdan tutmuş Qazaxıstana qədər postsovet məkanında kifayət qədər böyük təsirə malikdir, buna etinasız yanaşmaq olmaz. Bu səbəbdən, mən hesab edirəm ki, Vladimir Putin müstəqil hakim kimi indiki distansiyanı saxlamaqda davam edəcək", - deyə o vurğulayıb.

A.Karavayevin fikrincə, gələcək danışıqlar Bakının maraqları nəzərə alınmaqla aparılacaq. Ekspert sonda deyib: "Azərbaycan faktiki olaraq Madrid prinsiplərinin ilk bəndlərini öz gücü ilə həyata keçirib. Əslində bu, Bakının hüququdur. Gələcək danışıqların yeni platforması cari reallıqlara əsaslanacaq. Qaytarılmış ərazilərin bir hissəsində iqtisadi bərpa üçün hazırlıq işləri aparılır. Beləliklə, cəmi iki ay bundan əvvəl Minsk qrupu həmsədrlərinin sərəncamında olan danışıqlar paketinin bir hissəsi artıq tarixin çevrilmiş səhifəsidir. İndiki qondarma "DQR"in aqibətinin necə olacağı hələ məlum deyil. Lakin təbii ki, Bakının mövqeyi - Ermənistan silahlı qüvvələrinin tam çıxarılması və daha sonra Ermənistan və Azərbaycan arasında sərhədlərə sülhməramlıların yerləşdirilməsi artıq xəyal deyil, Azərbaycan maraqlarının cari reallıqlarıdır".

❖ ❖ ❖



Azərbaycanın işğal altındakı torpaqlarının düşməndən geri alınması müasir dünyanın ən səs-küylü hadisəsidir. Azərbaycan bu hərbi-siyasi uğuru ilə bütün dünyaya mesaj verdi ki, beynəlxalq hüquq və ədalət hamı üçün bərabər olmalıdır. Şanlı Azərbaycan Ordusu düşmənə də, onun havadarlarına da göstərdi ki, haqqı olanı kimsə ona minnətlə qaytara bilməz, onu öz gücü, öz iradəsi ilə almağa qadirdir. Şanlı Azərbaycan Ordusunun şücaəti barədə xəbərlərdən qürur duyuruq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Bursa vilayətinin Osmanqazi bələdiyyəsinin sədri Mustafa Dündar ifadə edib.

Azərbaycan Ordusunun düşməni bütün cəbhələrdə məğlub etməsinin hər bir türkiyəli üçün qürur mənbəyi olduğunu bildirən Mustafa Dündar deyib: "Torpaqlarımız uğrunda şəhid və qazi olan qəhrəman övladlarımızın xatirəsini əbədiləşdirmək, bu istiqamətdə davamlı işlər görmək hər birimizin mənəvi borcudur. Şəhid general Polad Həşimovun xatirəsinin əbədiləşdirilməsi Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid və qazi olan bütün qəhrəmanlara göstərilən hörmət və ehtiram, Azərbaycana mənəvi dəstəyin nümunəsidir. Məqsədimiz odur ki, gələcək nəsillər keçdiyimiz, yaşadığımız ağır illəri və hadisələri unutmasınlar. Əminliklə deyə bilərəm ki, general Polad Həşimov Parkı Azərbaycanın şərəfli hərb tarixinin bir hissəsinə çevriləcək. Bu park Azərbaycanı sevən insanların tanıdığı məkan olacaq. Bundan başqa, bu parkda Azərbaycana dair tədbirlərin keçirilməsi istər-istəməz Qarabağla bağlı yaşadığımız sıxıntıları, yaxın və uzaq tarixdə insanlara xatırladacaq".

Polad Həşimov Parkının salınması təşəbbüsü ilə çıxış etdiyinə görə Dünya Azərbaycanlıları Platformasının rəhbərliyinə minnətdarlığını ifadə edən bələdiyyə sədri Mustafa Dündar bildirib ki, milli-mənəvi dəyərlərimizin inkişafına xidmət edən bu fəaliyyətlər gələcəkdə də davam etdirilməlidir

Xatırladaq ki, Bursanın Osmanqazi bələdiyyəsinin ərazisində salınan general Polad Həşimov Parkının açılışı oktyabrın 28-də geniş ictimaiyyətin iştirakı ilə keçirilib.

❖ ❖ ❖




Azərbaycanın Braziliyadakı Səfirliyinə Braziliya vətəndaşı, San Paulo ştatında yaşayan 10 yaşlı Marlon adlı bir gəncdən "Əsgərə məktub" layihəsi çərçivəsində, şanlı Azərbaycan Ordusunun əsgərlərinə ünvanlanmış məktub daxil olub.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, məktubda o, Azərbaycan döyüşçülərini salamlayaraq, onlara gedən müharibədə hər bir şəxsin və hər bir yaxşılığın müdafiə edilməsini arzulayıb. Qeyd olunub ki, o şirniyyat almaq üçün ona verilən pullara qənaət edib. O istərdi ki, əsgərlərimiz bu pula özlərinə şirniyyat alsınlar. Məktuba 30 (6 ABŞ dolları) real pul vəsaiti əlavə olunub. Gəncin anası məktubu yekunlaşdıraraq, bu kiçik vəsaitin sevgi ilə göndərildiyini və Marlonun hər gecə Azərbaycan xalqı və əsgərləri üçün dua etdiyini bildirib. Sonda "Bütün sevgi, hörmət və ehtiramımızı sizə göndəririk" sözləri yazılıb.

Qeyd edək ki, Braziliyada 100 mindən artıq erməni yaşadığı halda heç bir vətəndaşlarımız və soydaşlarımız yaşamır və bu sırf yerli insanlar tərəfindən Azərbaycan Ordusuna dəstək vermək üçün atılan addımdır.

❖ ❖ ❖



İsveçin paytaxtı Stokholmda Azərbaycan Ordusuna dəstək məqsədilə avtomobil yürüşü təşkil olunub.

AZƏRTAC xəbər verir ki, İsveçdə yaşayan azərbaycanlıların keçirdiyi yürüşdə Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmiş 40-a yaxın müxtəlif növlü nəqliyyat vasitəsi Stokholmun Strandvagen bulvarından başlayaraq şəhərin əsas küçələrinə yürüş edib.

Yürüşdə iştirak edən avtomobillər üzərində "Qarabağ Azərbaycandır!" kimi şüarları yerləşdirilib. İştirakçılar yerli ictimaiyyətin diqqətini Dağlıq Qarabağ münaqişəsindəki Azərbaycanın haqlı mövqeyinə yönəltməyə çalışıblar.

❖ ❖ ❖



Macarıstanda yaşayan azərbaycanlı icmasının və tələbələrin təşəbbüsü ilə Budapeşt şəhərinin Azadlıq meydanında Bərdə və Gəncə şəhərlərindəki terror qurbanlarının anım mərasimi keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Bərdə, Gəncə və digər yaşayış məntəqələrində işğalçı Ermənistan ordusunun terror aktları törətməsini, mülki şəxslərin, o cümlədən azyaşlı uşaqların və qadınların qətlə yetirilməsini yaşadıqları cəmiyyətə çatdırmaq üçün baş tutan aksiya terror qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsilə başlayıb.

Aksiyada 200 gənc soydaşımız əllərində Ermənistanın işğalçı siyasətini, Gəncə və Bərdə şəhərlərində ermənilərin törətdiyi terror aktlarını əks etdirən məlumat lövhələrini, "Körpələr mələkdirlər, mələklərin öldürülməsinə son qoyulsun!", "Mən sülhəm, amma Ermənistan məni öldürdü!", "Bərdə üçün dua et!" və sair şüarlar tutublar. Meydanda yanan şamlarla "Bərdə" sözü əks olunub və ətrafına boş qalmış ayaqqabılar düzülüb.

Aksiya ilə maraqlanan şəhər sakinlərinə işğalçı Ermənistan ordusunun mülki insanlara qarşı istifadəsi qadağan olunan kasetli raketlərlə Azərbaycanın dinc sakinlərini hədəfə alması barədə məlumat verilib.

❖ ❖ ❖



Avstraliya-Azərbaycan Assosiasiyası və Güney Azərbaycan Demokratik Birliyinin təşəbbüsü ilə Sidney şəhərində yaşayan azərbaycanlı icması erməni terroruna etiraz olaraq avtomobil yürüşü keçirib. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, 100-ə yaxın avtomobilin iştirakı ilə keçirilən avtoyürüş Oubern qəsəbəsinin Road Station küçəsindən start götürüb, mərkəzi küçələrlə dairəvi hərəkət etdikdən sonra həmin ünvanda başa çatıb.

Üzərində üçrəngli Azərbaycan bayraqları və "Qarabağ Azərbaycandır!" şüarı asılan avtomobillərdə hərəkət edən yürüş iştirakçıları yerli ictimaiyyətin diqqətini cəbhə xəttindən uzaqda yerləşən Gəncə və Bərdə şəhərlərinin, eləcə də digər yaşayış məntəqələrinin dinc əhalisinin Ermənistan tərəfindən ağır artilleriya atəşinə tutulmasına çəkiblər. Həmvətənlərimiz Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı istifadəsi qadağan olunan kasetli bombalar vasitəsilə Bərdə şəhərində törətdiyi terror aktının nəinki beynəlxalq hüquqa zidd addım, eyni zamanda insanlığa qarşı yönəlmiş cinayət olduğunu vurğulayıblar. Güclü yağışa və erməni əsilli şəxslərin yürüş iştirakçılarına mane olmaq cəhdlərinə baxmayaraq, yürüş insidentsiz başa çatıb.

❖ ❖ ❖



Şotlandiyanın Aberdin şəhərində yaşayan azərbaycanlılar şəhərin mərkəzində yerləşən Saint Nicholas kilsəsinin qarşısında icazəli aksiya keçirib. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, aksiya iştirakçıları Gəncə və Bərdə şəhərlərində, eləcə də ölkəmizin digər yaşayış məntəqələrində işğalçı Ermənistan ordusunun vandalizm aktları törətməsini, mülki şəxslərin, o cümlədən azyaşlı uşaqların və qadınların qətlə yetirilməsini pisləyiblər.

Aberdin şəhərində təhsil alan gənclərin və azərbaycanlı icmasının təşəbbüsü ilə keçirilən aksiyada bildirilib ki, Azərbaycanın Gəncə və Bərdə şəhərlərinin və digər yaşayış məntəqələrinin ağır artilleriya atəşinə tutulması Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar siyasətin davamıdır. Həmvətənlərimiz beynəlxalq ictimaiyyəti Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı istifadəsi qadağan olunan kasetli bombalar vasitəsilə Bərdə şəhərinin dinc əhalisini hədəf alınmasına biganə qalmamağa səsləyib. Aksiyada Gəncə və Bərdə terrorunun qurbanlarının xatirəsi yad edilib. Müxtəlif dillərdə "Qarabağ Azərbaycandır "Uşaq ölümünə son", "Erməni terrorçuluğuna son!", "Ermənistan - BMT qətnamələrinə əməl et!" kimi şüarlar səsləndirilib.

❖ ❖ ❖




ABŞ-ın "Washington Times" qəzetinə müsahibəsində Azərbaycanın bu ölkədəki səfiri Elin Süleymanov son zamanlar bəzi mətbu orqanlarında, guya ki, Azərbaycan və Ermənistan arasında gedən döyüşlərdə suriyalı muzdluların iştirak etməsi kimi qərəzli və əsassız iddialara cavab verərək bunun sovetsayağı təbliğat olduğunu bildirib. Səfir qeyd edib ki, Ermənistan tərəfinin bu kimi cəfəng iddialar yaymaqda əsas məqsədi üçüncü tərəfi münaqişəyə birbaşa cəlb etmək üçün bəhanə yaratmaqdır. Səfir "Washington Post" və digər mətbu orqanlarında yayılan məlumatların faktlara əsaslanmamasını, eləcə də döyüşlərin başlamasından bir ay müddət keçməsinə baxmayaraq, bu iddiaların heç bir sübutunun tapılmamasını vurğulayıb. "Azərbaycan silahlı qüvvələrinin belə döyüşçülərin köməyinə ehtiyacı yoxdur", - deyə səfir qeyd edib.

E.Süleymanov təəssüflə bildirib ki, faktların yoxlanılmaması və "tənbəl" jurnalistika" bu kimi saxta iddiaların Qərb mediasında yayılmasına səbəb olub.

Sözügedən məqalə ilə bu internet səhifəsindən tanış olmaq mümkündür.

Eyni zamanda nüfuzlu "Newsweek" jurnalına ABŞ-dakı prezident seçkilərini şərh edən səfir E.Süleymanov bildirib ki, Azərbaycan bu seçkilərdə tərəf tutmur, lakin seçkilərdən kimin qalib gələcəyindən asılı olmayaraq, gələcək administrasiya bölgəmizdə sülhün bərqərar edilməsi üçün obyektiv, qərəzsiz və balanslı vasitəçi olmalıdır. Səfir bu xüsusda Amerikada fəaliyyət göstərən erməni lobbisi və onun göstərdiyi təzyiqlərin maneçilik törətdiyini bildirib.

❖ ❖ ❖



Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov İSNA xəbər agentliyinin saytına müsahibə verib. AZƏRTAC xəbər verir ki, səfir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair aktuallıq kəsb edən sualları cavablandırıb. Qeyd olunub ki, Qarabağ müharibəsi separatizm ilə başlayıb və Azərbaycanın erməni əsilli vətəndaşları xarici ölkələr tərəfindən aqressiv separatizmə təşviq olunub. Nəticədə Azərbaycan 30 min şəhid verib, eləcə də bir milyona yaxın Azərbaycan vətəndaşı öz doğma yurd-yuvalarından qovulub.

Diplomat vasitəçilik mandatı almış həmsədrlərin fəaliyyətinə toxunaraq deyib ki, 1992-ci ildə Minsk Qrupu bu münaqişənin həlli məqsədilə təşkil edilib. Lakin həmsədrlərdən ikisi regiondan uzaqda yerləşən və Qarabağ münaqişəsinin həllinin onlar üçün prioritet olmayan ölkələrdir. İndiyədək heç bir konkret nəticə əldə olunmamasına baxmayaraq, Azərbaycan münaqişənin həllində sülh və dialoqdan heç vaxt imtina etməyib. Ötən müddət ərzində aparılan danışıqlar nəticəsində müzakirələrin formatı və baza prinsipləri yaradılıb ki, son zamanlar Ermənistan tərəfi avantürist davranış və bəyanatları ilə bu formatı dağıtmağa çalışıb.

Azərbaycana guya Suriya və Türkiyədən muzdlular göndərildiyi barədə iddiaların heç bir əsası olmadığını vurğulayan B.Hüseynov bildirib ki, bu, Ermənistan tərəfindən uydurulan növbəti yalan və şayiədir. Azərbaycan Ordusunun 100 min şəxsi heyəti var və bu müddət ərzində heç ehtiyat qüvvələr də səfərbər olunmayıb. Azərbaycan hərbi texnika və silah baxımından Ermənistanla müqayisə oluna bilməz. Əksinə, PKK qüvvələrinin Ermənistan tərəfindən döyüşdüyü sənədlərlə sübut edilib. Ermənistanın baş naziri xaricdəki erməniləri regiona gəlməyə və döyüşməyə çağırır.

Səfir diqqətə çatdırıb ki, regionun problemi region dövlətləri tərəfindən həll edilə bilər. Kənar qüvvələrin regiona cəlb edilməsinə ehtiyac yoxdur.

Davam edən döyüşlərə toxunan B.Hüseynov xatırladıb ki, sentyabrın 27-də Azərbaycan özünümüdafiə hüququndan vətəndaşlarının həyatını və təhlükəsizliyini qorumaq üçün istifadə etdi. İran-Azərbaycan sərhədinin Ermənistanın işğalı altında olan 132 kilometrlik hissəsi bir neçə gün əvvəl azad olundu və Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlə qardaş İran xalqını da təbrik etdi.

"2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında Saziş" iki ölkənin parlamentləri tərəfindən təsdiq olunub və qüvvəyə minib. Bu gün hər iki ölkənin qurumları bu sazişin müddəalarını həyata keçirirlər", - deyə diplomat bildirib.

Səfir müsahibəsində İran-Azərbaycan münasibətlərinə dair digər sualları da cavablandırıb.

❖ ❖ ❖



İraqın paytaxtı Bağdad şəhərinin mərkəzində yerləşən Hüseyni Əl-Cavadin Məscidinin qarşısında Ermənistanın Gəncə və Bərdə şəhərlərini raket atəşinə tutması nəticəsində həlak olmuş insanların xatirəsi yad edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın İraqdakı səfirliyinin təşkilatçılığı ilə təşkil olunan tədbirdə parlamentin deputatları, diplomatik korpusun əməkdaşları, Bağdad ictimaiyyətinin nümayəndələri və jurnalistlər iştirak ediblər.

Azərbaycanın İraqdakı müvəqqəti işlər vəkili Nəsir Məmmədov Ermənistanın törətdiyi vəhşiliklər barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

❖ ❖ ❖



Norveçdəki Azərbaycan icmasının üzvləri, Dağlıq Qarabağda baş verən müharibə cinayətləri və dinc həmvətənlərimizə qarşı Ermənistan silahlılarının hücumlarına qarşı olaraq Oslonun mərkəzində yerləşən krallığın parlament binasının qarşısında icazəli etiraz aksiyası keçiriblər.

AZƏRTAC xəbər verir ki, Norveçdə fəaliyyət göstərən "CAN" təşkilatının təşəbbüsü ilə keçirilən aksiyaya azərbaycanlılarla yanaşı, Türkiyənin Norveçdəki səfiri Fazıl Çorman, habelə türk, Pakistan, Somali və yəhudi diasporunun üzvləri qatılıblar.

Tədbirdə çıxış edən Norveçdə fəaliyyət göstərən "CAN" diaspor təşkilatının sədri Şervin Nəcəfpur son həftələr Qarabağda yaşanan hadisələr, münaqişənin yenidən aktiv fazaya keçməsinə səbəb olan Ermənistan tərəfinin həyata keçirdiyi işğalçılıq, terror və təxribat siyasəti barəsində məlumat verib.

Şervin Nəcəfpur diqqətə çatdırıb ki, Azərbaycan torpaqlarının 20 faizinin işğal altında saxlanılması və bunun nəticəsində 1 milyondan artıq qaçqın və məcburi köçkünün haqlarının tapdalanması, mövcud olan bütün sivil və hüquq normaları pozur. "Bu haqsızlıq nəticəsində yaranmış vəziyyətdə isə ilk növbədə, işğaldan əziyyət çəkən azərbaycanlıların hüquqları pozulur, Ermənistan hakimiyyəti isə BMT Təhlükəsizlik Şurasının və bir sıra digər təşkilatların qəbul etdiyi qətnamələrə belə məhəl qoymur", - deyə diaspor təmsilçisi bildirib.

Münaqişə çərçivəsində mülki insanlara hücumların yolverilməz olduğunu bildirən Norveçdəki türk federasiyasının sədri Hatiçe Luk, məşhur türk əsilli yazıçı Sercan Leylek, gənc siyasətçi Arina Sheikh və norveçli hüquqşünas Vəfa Bakkalar və başqaları Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüququn tələblərini kobud şəkildə pozaraq, Azərbaycanın təmas xəttinə yaxın olmayan yaşayış məntəqələrini və mülki obyektlərini raket və artilleriya qurğularından intensiv atəşə tutmasına qarşı etiraz ediblər. Çıxışlarda qeyd edilib ki, Gəncə və Bərdə şəhərlərində, eləcə də Azərbaycanın digər yaşayış məntəqələrində törədilən terror aktları Ermənistanın təcavüzkar siyasətinin davamıdır. Aksiyada Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərində mülki əhaliyə qarşı istifadəsi qadağan olunan kaset bombalar vasitəsilə atəşə tutması, bu faktın "Amnesty İnternational", "Human Rights Watch" kimi beynəlxalq təşkilatlar tərəfindən rəsmi şəkildə təsdiqlənməsi, Ermənistanın Şuşa meşələrini yandırmaq üçün fosforlu silahdan istifadə edərək ekoloji terror törətməsi barədə yerli ictimaiyyətə məlumat verilib.

Dünya ictimaiyyətini günahsız uşaqların qətlinə biganə qalmamağa səsləyən həmyerlilərimiz "Qarabağ Azərbaycandır!", "Erməni terroruna son!", "Uşaq ölümünə son!", "Biz terrora yox deyirik", "İşğalçı dövləti dəstəkləməyin!", "Ermənistan, BMT qətnamələrinə əməl et!" kimi şüarların əks olunduğu plakatlar və posterlər nümayiş etdirib, Azərbaycanın və ona dost münasibət bəsləyən ölkələrin bayraqlarını meydanda dalğalandırıblar.

Aksiya Azərbaycan Dövlət himninin səsləndirilməsi ilə başa çatıb.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




"Amnesty International" Beynəlxalq hüquq müdafiə təşkilatı ilk dəfə olaraq etiraf edib ki, Ermənistan silahlı qüvvələri dünyanın bir çox ölkələrində qadağan olunmuş kasetli döyüş sursatlarından istifadə edir. AZƏRTAC xəbər verir ki, Rusiyanın "utro.ru" nəşrində dərc edilmiş material bu barədədir.

Nəşrdə göstərilir ki, "Amnesty International"-ın verdiyi məlumata görə oktyabrın sonlarında Azərbaycanın Bərdə şəhərində yaşayış məhəllələri atəşə tutularkən, Yerevan kasetli döyüş sursatlarından istifadə edib.

Hüquq müdafiəçiləri amerikanın "Vice News" nəşrində dərc olunmuş fotoşəkilləri təhlil edərək 300 mm çaplı yaylım atəşli "Smerç" reaktiv sistemindən atılmış bir neçə mərminin düşməsi faktını təsdiq ediblər. Məsələn, 9H235 qəlpəli döyüş elementlərinin fraqmentləri tapılıb. Amnesty vurğulayır ki, bu mərmilər Ermənistan silahlı qüvvələri tərəfindən tətbiq edilib.

"Amnesty International"-ın Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Mari Strazers bu atəşləri şərh edərək deyib: "Kasetli döyüş sursatları ilə mülki ərazilərə atəş açılması ağılsız və qəddar hərəkətdir, bu, saysız-hesabsız ölüm, yaralanma və əzab-əziyyətə gətirib çıxarır. Kasetli döyüş sursatları mahiyyət etibarilə seçimsiz təsir göstərən silahlardır və istənilən hallarda onlardan istifadə beynəlxalq humanitar hüquqa görə qadağandır".

Məqalədə qeyd edilir ki, Ermənistan silahlı qüvvələrinin seçimsiz təsir göstərən silahlardan istifadə etmək cəhdləri Bakıda müxtəlif səviyyələrdə dəfələrlə göstərilib. Məsələn, oktyabrın 10-da bildirilmişdi ki, Yerevan Dağlıq Qarabağda döyüş əməliyyatları zamanı kasetli döyüş sursatlarından və hətta içərisinə ağ fosfor doldurulmuş tüstülü mərmilərdən mülki obyektlərə qarşı istifadə edir. O vaxt Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməliyyatlar üzrə meneceri Elnur Qasımov bildirmişdi ki, oktyabrın 8-də Füzuli rayonunun Arayatlı kəndinin yaxınlığında içərisinə ağ fosfor doldurulmuş mərmi aşkar edilib. Yevlax, Goranboy və Ağcabədi rayonlarında isə kasetli bombaların fraqmentləri tapılıb.

Məqalədə deyilir: "Yerevanın seçimsiz təsir göstərən silahdan Azərbaycan şəhərlərinin mülki əhalisinə qarşı istifadə etmək cəhdləri onun münaqişəni davam etdirmək üçün resurslarının tükənməsinə dəlalət edə bilər. Hərçənd, Ermənistan rəhbərliyinin bundan sonra hər hansı beynəlxalq yardım akkumulyasiya edə biləcəyi şübhə doğurur. Konvensiyanı imzalamış və ya özlərinin silah arsenalında müharibə aparmağın müasir vasitələri olan xarici vasitəçilərlə söhbət zamanı köhnəlmiş kasetli döyüş sursatlarının tətbiq olunmasını izah etmək çətindir".

❖ ❖ ❖




Özbəkistanın "fikr.uz" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsini dərc edib. AZƏRTAC xəbər verir ki, "Dağlıq Qarabağ resurslar məsələsi deyil, bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir" sərlövhəsi ilə verilən yazı rus dilində yayımlanıb.

Jurnalistin nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? sualına Azərbaycan Prezidenti belə cavab verib: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

"İnterpress.uz" saytının Bərdə və digər şəhər və kəndlərimizin atəşə tutulması ilə bağlı məqaləsində bildirilir ki, "Amnesty International" Ermənistanın Azərbaycanın Bərdə şəhərində kaset bombalarından istifadə olunduğunu təsdiq edib. Bildirilir ki, "Smerç" kaset bombası adamların sıx toplaşdığı əraziyə düşüb və nəticədə 21 adam həlak olub, çoxlu yaralananlar və dağıntılar var.

Məqalədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi haqqında da məlumat verilir.

Bundan əlavə, "tnews.uz" portalı "Vladimir Putin Azərbaycanı dəstəklədi" sərlövhəli məqalə ilə çıxış edib.

Yazıda deyilir: "Rusiya Prezidenti Vladimir Putin "VTB Kapitala" "Rossiya zovyot!" İnvestisiya Forumunun iclasında bildirib ki, Dağlıq Qarabağ özü və Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı yeddi rayonu Ermənistanın nəzarəti altına keçib. Bu ərazilər Azərbaycanın əzəli torpaqlarıdır.

"İnterpress.uz" portalı digər məqaləsində yazır ki, tanınmış ABŞ eksperti Piter Teys erməni terrorizmini dayandırmağa çağırıb. O deyib ki, Ermənistan beynəlxalq humanitar hüququn norma və prinsiplərini pozaraq Azərbaycanda dinc əhaliyə qarşı terror aktları həyata keçirib və belə terror aktları pislənməlidir.

❖ ❖ ❖




Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Prezident İlham Əliyevin Fərmanı ilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarəetmənin yaradılacağı barədə məlumat yayıb. Məlumatda Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) istinadla xəbər verilir ki, işğaldan azad edilən hər bir rayonda müvəqqəti xüsusi idarəetməni həyata keçirəcək komendantlıq yaradılacaq və ona rəhbərlik edəcək komendant Daxili İşlər Nazirliyi tərəfindən təyin olunacaq.

Bununla yanaşı, komendantın öz fəaliyyətini Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə əlaqələndirəcəyinin sənəddə öz əksini tapdığı da qeyd edilir.

Məlumatda fərmandan gətirilən sitatda deyilir: "Müvəqqəti komendantlıqlar mühüm əhəmiyyətli obyektlərin, o cümlədən nəqliyyat və telekommunikasiya infrastrukturu obyektlərinin, enerji və su təchizatı sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsini təşkil etsinlər".

Bu komendantlıqların, həmçinin aşkar edilən hərbi texnikanın, silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin toplanması, inventarlaşdırılması və mühafizəsini, eyni zamanda ictimai qaydanı və təhlükəsizliyi təmin edəcəyi də bildirilir.

Fərmandan gətirilən növbəti sitatda qeyd edilir: "Müvəqqəti komendantlıqlar aidiyyəti dövlət orqanları ilə birlikdə minalardan təmizləmə və zərərsizləşdirmə işlərinin aparılması, terrorçuluq, casusluq, təxribat və Azərbaycan Respublikasına qarşı yönəldilmiş digər qanunazidd fəaliyyətin qarşısının alınması, ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi üçün zəruri tədbirlər görsünlər".

Məqalədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və səbəbləri barədə də ətraflı məlumat verilir.

Qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddialarına 1988-ci ildə başlanıb. 1992-ci ildə iki keçmiş sovet respublikası arasında müharibəyə çevrilən münaqişə xarici havadarlarına arxalanan Ermənistanın qələbəsi ilə yekunlaşıb. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs elan olunsa da, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Dağlıq Qarabağda yaşayan separatçı ermənilər müstəqil respublika elan etsələr də, bu qondarma "dövlət" heç bir beynəlxalq qurum və dövlət tərəfindən tanınmayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etsə də, Ermənistan hökuməti bu sənədləri icra etməyib.

Cari il sentyabrın 27-də Ermənistan ordusunun növbəti təxribatının qarşısını alan Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçərək işğal altında olan torpaqları azad etməyə başlayıb.

❖ ❖ ❖




Özbəkistanın tnews.uz portalı Azərbaycanın Özbəkistandakı səfirliyinin Bərdə hadisələri ilə bağlı mətbuat üçün məlumatını yayıb. AZƏRTAC xəbər verir ki, məlumatda oktyabrın 27-də və 28-də Ermənistanın humanitar atəşkəs rejimini pozaraq "Smerç" bombalarından Bərdə, Goranboy və digər əraziləri atəşə tutduğu bildirilir. Oktyabrın 27-də Bərdə rayonu ərazisində 5 dinc sakin həlak olub, 14 nəfər yaralanıb. Həmin gün "Euronews" televiziya kanalının çəkiliş qrupu da "Kornet" sistemindən atəşə tutulub.

Qeyd olunur ki, oktyabrın 28-də qədim Bərdə şəhərinin mərkəzi "Smerç" qurğularından raket atəşinə tutulub, nəticədə 21 dinc sakin həlak olub, 70-dən çox insan yaralanıb. Vurğulanır ki, silahlı münaqişələr zamanı mülki əhalini və obyektləri nişan almaq hərbi cinayətdir və 1949-cu ildə imzalanan Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasıdır.

Deyilir ki, Ermənistanın Azərbaycanın mülki obyektlərini və dinc əhalisini raket atəşinə tutması ilə bağlı Avropa məhkəməsinə müraciət edilib. Vurğulanır ki, erməni təcavüzkarlarının əli ilə günahsız insanların həlak olmasına, erməni vandallarının cinayətlərinə dünya birliyi daha nə qədər susacaq?

Dünya ictimaiyyəti Azərbaycan ərazisindəki təcavüzkar qüvvələrə siyasi, maliyyə dəstəyi göstərən ayrı-ayrı dövlətlərə müvafiq təsir göstərməyə çağırılır.

Qeyd etmək istəyirik ki, Azərbaycan öz növbəsində bütün cəbhəboyu humanitar atəşkəs rejiminə əməl edir. Ermənistan rəhbərliyi, ən nəhayət, başa düşməli və qəbul etməlidir ki, Azərbaycanın dövlət sərhədləri dünya birliyi tərəfindən tanınıb və Azərbaycan öz ərazisinə hücum edən hər hansı hərbi obyekti məhv etmək hüququna malikdir.

❖ ❖ ❖




Almaniyanın ictimai televiziya kanalı olan "ARD"nin "Tagesschau" verilişində Azərbaycana səfər etmiş jurnalist Oliver Mayer-Rütün Tərtərdən hazırladığı "Dağlıq Qarabağda müharibə" mövzusunda reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, reportajda Ermənistan-Azərbaycan münaqişəsinin tarixinə nəzər salınır. Bildirilir ki, hazırda hərbi əməliyyatların aparıldığı Qarabağ Azərbaycanın tərkib hissəsi olub və Ermənistan tərəfindən işğal edilib. Beynəlxalq hüquq tərəfindən Azərbaycanın ərazisi kimi tanınan bölgədə 4 həftədir ki, şiddətli döyüşlər gedir.

Reportajda, həmçinin Tərtər sakinləri Xalid Hümbətovun və Hicran Əmrahovanın müsahibələri də yer alıb. Eyni zamanda Ermənistanın raket hücumları nəticəsində Tərtərdə dağılmış evlər və mülki infrastruktur obyektləri nümayiş etdirilib.

❖ ❖ ❖



Misirin "Alwasela" qəzeti, "Almasryalyoum", "Garbnews" və "Aldiplomasy" portalları və "Asiaelyoum" İnformasiya Agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsindən əsas məqamları yayıblar. AZƏRTAC-a istinadla yayılan xəbərlər "Azərbaycan Prezidenti: Qarabağ bizim üçün ədalət, qürur və beynəlxalq hüquq məsələsidir" sərlövhəsi ilə yerləşdirilib. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı alman müxbirin Qarabağın nəyə görə xalqımız üçün önəmli olduğu sualına cavabında deyib: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Xəbərlərdə dövlətimizin başçısının bəzi beynəlxalq təşkilatların Ermənistanın işğalçılıq, etnik təmizləmə siyasətinə qarşı ikili standartlar mövqeyindən çıxış etməsi, Gəncə, Bərdə və Tərtərdə mülki insanların qətlə yetirilməsi barədə fikirləri də yer alıb.

❖ ❖ ❖




Bu gün Fransada söz, mətbuat azadlığı gündəmdədir. Hamı mətbuat azadlığından danışır. Belə bir vaxtda Dağlıq Qarabağdan yazan jurnalistlərin, eləcə də bu münaqişədən danışan deputatların təhqir olunması və ölümlə hədələnməsi qəbuledilməzdir. Xüsusilə də ölüm hədələri ASALA kimi terror təşkilatının adından edilir. Bu, söz və mətbuat azadlığına böyük zərbədir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində fransız jurnalist, KERNEWS radiosunun təsisçisi və "Bourse Plus" qəzetinin müxbiri Yannik Üryen söyləyib.

Ermənistana səfər etmiş bir qrup fransız deputatla bağlı fikirlərini bölüşən Y.Üryen deyib: "Çox təəssüflər olsun ki, bu gün Fransa çox zəifdir. Artıq uzun illərdir ki, Fransa gücünü itirib. Bu gün fransız deputatlar sirkdəki klounlar kimidir, səs-küy salıb diqqəti cəlb edirlər. Ancaq bu, səs-küydən başqa bir şey deyil. Müəyyən sayda seçici səsi üçün hər şeyə hazır olan bu deputatlar heç nə əldə edə bilməyəcəklər. Həmin deputatlar Fransanın maraqlarından daha çox, öz maraqlarını düşünürlər. Bu isə onlara xeyir gətirməyəcək. Onlar səs-küy saldıqları vaxt Azərbaycan öz torpaqlarını azad edəcək və qazanan Azərbaycan tərəfi olacaq".

Fransada icra hakimiyyəti üzvlərinin çox zəif olduğunu deyən jurnalist bildirib ki, onların əksəriyyəti müəyyən hakim dairələrdə özlərinə yer etmiş erməni lobbisinin marionetinə çevrilib.

Y.Üryen qeyd edib ki, son günlər erməni lobbisi öz mənfur hərəkətləri ilə iç üzünü açıb göstərdi. "Fransa Dağlıq Qarabağ münaqişəsinin həlli həvalə olunan Minsk qrupunun həmsədridir. Həmsədr isə bitərəf olmalı, məsələni dərindən öyrənib, ədalətli həll təklif etməlidir. Ancaq bu gün Fransa əllərini yanına sallayaraq gözləyir", - deyə jurnalist vurğulayıb.

❖ ❖ ❖




"Der Freitag" qəzetində alman şərqşünas Mixael Raynhard Hesin müsahibəsi çap olunub.

Müsahibədə bildirilir ki, Dağlıq Qarabağda Ermənistan və Azərbaycan arasında bir aydır döyüşlər gedir. Münaqişənin uzun tarixçəsi mövcuddur və bölgə uğrunda dəfələrlə hərbi əməliyyatlar baş verib. 30 il bundan öncə Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunub və təxminən 1 milyon azərbaycanlı öz yurd-yuvalarından didərgin salınıb. BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr işğal olunmuş ərazilərin dərhal Azərbaycana qaytarılmasını tələb edir.

Məqalədə həmçinin Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə bağlı fikirlər bölüşülür, münaqişənin təhlilində Almaniyada qeyri-neytral jurnalistika probleminə toxunulur, eləcə də Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinin, Azərbaycan torpaqlarının işğal edilməsinin və təxminən 1 milyon insanın məcburi köçkün düşməsinin alman mətbuatında lazımınca işıqlandırılmamasının səbəbləri izah olunur.

❖ ❖ ❖




İspaniyanın böyük oxucu kütləsinə malik "Diplomat in Spain" və "Style International" internet portallarında Ermənistanın Bərdəyə raket hücumları barədə məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalələrdə Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində dinc insanlara qarşı törədilmiş müharibə cinayəti ilə əlaqədar oktyabrın 29-da Azərbaycanın İspaniyadakı Səfirliyinin inzibati binasının qarşısında xatirə guşəsi yaradıldığı diqqətə çatdırılıb.

Bildirilib ki, guşədə Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə mülki şəxslərin məqsədli şəkildə hədəfə alınması nəticəsində həlak olanların fotoları, ermənilərin törətdikləri növbəti müharibə cinayətlərinin fəsadlarına dair müxtəlif materiallar, infoqram və məlumatlar nümayiş etdirilib.

Qeyd olunub ki, İspaniyada yaşayan azərbaycanlıların, eləcə də yerli ictimaiyyətin nümayəndələri səfirliyin binası qarşısına gələrək guşənin önünə gül dəstələri və şamlar düzüb, Ermənistanın hərbi təcavüzü nəticəsində həyatını itirmiş mülki şəxslərin xatirəsinə dərin ehtiramlarını ifadə edərək, bu təcavüz aktından təsirləndiklərini, böyük kədər hissi keçirdiklərini bildiriblər. Bu cür cinayətlər insanlıq əleyhinə nifrət hissinin təzahürü kimi qiymətləndirilib.

Məqalələrdə oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərini "Smerç" yaylım atəşli reaktiv sistemdən raket atəşinə tutması nəticəsində uşaqlar da daxil olmaqla, 21 mülki şəxsin həlak olduğu, 70-dən çox insanın ağır yaralandığı diqqətə çatdırılır.

Xüsusi olaraq vurğulanır ki, Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində dinc əhalinin məqsədyönlü şəkildə qətlə yetirilməsi qətliam və müharibə cinayətidir. Bu, Ermənistan tərəfindən beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Bu cinayətə görə ölkənin baş naziri və müdafiə naziri də daxil olmaqla, Ermənistan rəhbərliyi tam şəkildə məsuliyyət daşıyır.

❖ ❖ ❖




